

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

BDU

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

25 iyun 2023-cü il


# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


BDU-da SABAH qrupları ilə bağlı görüş keçirilib
→Səh.2

BDU-nun kafedra müdiri Qazaxıstanda Ümummilli Lider Heydər Əliyevin irsi ilə bağlı məruzə edib
→Səh.5

Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşaviri ilə görüş
→Səh.9

Elm və təhsil naziri BDU-nun Qazax filialında olub
→Səh.11

Görkəmli alim Şirməmməd Hüseynovun anım günüdür
→Səh.11

Azərbaycanın İsraildəki səfiri Muxtar Məmmədov Holon Texnologiya İnstitutunda təhsil alan BDU tələbələri ilə görüşüb
→Səh.15

BDU tələbələri "Qədim yurd yerimiz - Qərbi Azərbaycan" adlı kitab sərgisində
→Səh.20





"Qurtuluşumuzun Memarı" adlı kitab sərgisi
→Səh.2





Tanınmış ictimai-siyasi xadim Lidiya Rəsulovaya həsr olunmuş "Tarixə yazılmış ömür" kitabının təqdimatı olub
→Səh.5





BDU-nun həmtəşkilatçılığı ilə Beynəlxalq Arbitraj Yay Məktəbi başlayıb
→Səh.9





BDU tələbələri Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalında qalib gəliblər
→Səh.9

BDU-da Azərbaycan Silahlı Qüvvələr Gününə həsr edilən kitab sərgisi
→Səh.20




## BDU-da 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş tədbir

***İyunun 14-də Bakı Dövlət Universitetində (BDU) 15 İyun – Milli Qurtuluş Gününün otuzuncu ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanı ziyarət edib. Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad edilib. Daha sonra BDU-da Ulu öndərin büstü önünə gül dəstələri qoyulub.

Tədbirin rəsmi hissəsində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra BDU-nun Jurnalistika fakültəsinin müəllimi Mahir Qəribovun ssenari müəllifliyi ilə Azərbaycan Dövlət Televiziyasının hazırladığı “Tarixin izi ilə” sənədli filmi nümayiş olunub.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, 15 iyun tariximizə xalqımızın Milli Qurtuluş Günü, nicat günü kimi daxil olub. 1993-cü ilin mürəkkəb, ziddiyyətli və ağır iyun günlərində xalqımızı və ölkəmizi çətin sınaqdan yalnız fenomenal şəxsiyyət – Ulu Öndər Heydər Əliyev çıxara bilərdi. Ümummilli Lider Heydər Əliyevin yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtması ilə ölkəmizin həyatında yeni mərhələnin əsası qoyuldu: “Ulu Öndərimizin 1993-2003-cü illəri əhatə edən hakimiyyəti dövründə Azərbaycan postsovet ölkələri ilə müqayisədə keçid dövrünün çətinliklərini daha uğurla arxada qoyub, sürətli dirçəliş mərhələsinə daxil oldu. Ölkəni bürüyən və xaricdən idarə olunan vətəndaş müharibəsinə, dövlət çevrilişləri cəhdlərinə birmənalı olaraq son qoyuldu. Dövlətimizin parçalanma təhlükəsi aradan qaldırıldı, tədricən əmin-amanlıq bərpa olundu. Bütün bunların sayəsində isə ölkəyə böyük həcmdə sərmayələr cəlb edildi. Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən dost və tərəfdaş ölkələrin sayı günü-gündən artdı. Xalqımızı bəlalardan, dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas edən Ulu Öndər qısa müddət ərzində bugünkü qüdrətli Azərbaycanın prioritetlərini müəyyənləşdirdi. Dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyasını hazırladı. Dahi şəxsiyyətin Azərbaycan xalqına ən böyük töhfəsi isə həmin prioritetləri, inkişaf konsepsiyasını özündən sonra həyata keçirəcək siyasi varisini yetişdirməsi oldu”.

Rektor qeyd edib ki, 2003-cü ildən ölkəmizə uğurla rəhbərlik edən Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin milli qurtuluş konsepsiyasını inamla həyata keçirdi. Bununla da xalqımızın hərtərfli rifahına nail olundu. Ulu Öndərin bütün arzuları, planları və ən əsası özündə tarixi torpaqlarımızın azadlığını ehtiva edən müqəddəs ata vəsiyyəti Prezident İlham Əliyev tərəfindən əzmlə, fədakarlıqla yerinə yetirildi. Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda başlatdığı milli qurtuluş savaşımız 2020-ci ilin 10 noyabrında müdrik rəhbərimizin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin qətiyyətli siyasəti, peşəkar diplomatik gedişləri və mahir sərkərdəlik məharəti sayəsində öz məntiqi sonluğuna çatdı. Bununla da müstəqil, qüdrətli, ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycanın həyatında yeni səhifələr açıldı.

*(Ardı 2-ci səhifədə)*

## Milli Gimnastika Arenasında BDU-nun Məzun Günü keçirilib

→Səh.24

# Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

***Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını və ölkəmizdən kənarda yaşayan bütün soydaşlarımızı İslam dünyasının birlik, bərabərlik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə təbrik edib. Təbrikdə deyilir:***

"Hörmətli həmvətənlər!

Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İslam dininin əlamətdar mərasimlərindən olan Qurban bayramı özündə xeyirxahlığı, birlik və bərabərliyi, insanın ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq niyyətini əks etdirir.

Milli-mənəvi və dini dəyərlərinə həmişə sadiq olan Azərbaycan xalqı bütün dünya müsəlmanları ilə birlikdə Qurban bayramını qardaşlıq, humanizm və həmrəylik rəmzi kimi yüksək əhval-ruhiyyə ilə qeyd edir. Bu günlərdə həm Həcc ziyarətində, həm də ölkəmizin hər yerində dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Ümidvaram ki, bu mübarək bayram günlərində dua və diləkləriniz gerçəkləşəcək, Uca Yaradan mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!"

## "Qurtuluşumuzun Memarı" adlı kitab sərgisi

***BDU-nun Elmi Kitabxanası 15 İyun - Milli Qurtuluş Günü ilə bağlı "Qurtuluşumuzun Memarı" adlı kitab sərgisi təşkil edib.*** Sərgidə bu tarixi yaradan, Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, atdığı hər addımında daim xalqına arxalanan Ulu Öndər Heydər Əliyev və onun hərtərəfli fəaliyyəti haqqında Azərbaycan, rus və ingilis dillərində 100-dən çox kitab nümayiş olunur. Sərgidə nümayiş olunan "Azərbaycanın qurtuluş tarixi", "Qurtuluşdan tərəqqiyə" və s. kimi nəşrlər oxucular tərəfindən böyük marağa səbəb olub.



## BDU-da SABAH qrupları ilə bağlı görüş keçirilib

***İyunun 9-da BDU-nun rektoru Elçin Babayev Elm və Təhsil Nazirliyinin SABAH qruplarının İcra Komitəsinin rəhbəri Eldar Qocayev ilə görüşüb.***

Görüşdə bakalavriat və magistratura səviyyələrində SABAH qruplarının layihələrinin vahid layihə şəklində inteqrasiyasının vacibliyi vurğulanıb. 2023/2024-cü tədris ili üçün müvafiq ixisaslar üzrə təhsildə yüksək nəticələr göstərən tələbələrin SABAH qruplarına seçiminin başladığı bildirilib. Eyni zamanda məzmunca yeni tədris proqramlarının yaradılması və bununla əlaqədar müəllimlərin peşəkar səviyyələrinin və təhsildə keyfiyyətin yüksəldilməsinin zəruriliyi də qeyd olunub.

Həmçinin 2023/2024-cü tədris ilində BDU-nun SABAH qruplarında 9 yeni ixtisas və ixtisaslaşma açıldığı, bakalavriat səviyyəsində mövcud 9 ixtisasdan əlavə 3 yeni ixtisasa (Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, Biotexnologiya, Torpaqşünaslıq və aqrokimya) qəbulun elan olunması qeyd edilib.

## Çinin Azərbaycandakı səfiri BDU-da

***İyunun 9-da Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min BDU-da olub.***



Qonağı salamlayan rektor Elçin Babayev bildirib ki, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi BDU-nun İnkişaf Strategiyasının 5 ən vacib elementindən biridir. Bu baxımdan BDU Çinin ali məktəbləri ilə əlaqələri inkişaf etdirməkdə maraqlıdır. Rektor BDU-da çinli tələbələrin çoxluq təşkil etdiyini və onların problemləri, təhsilləri ilə daim maraqlandığını qeyd edib. Çinli tələbələr BDU-nun sosial-mədəni həyatında da yaxından iştirak edirlər. Hətta onlardan bəziləri Azərbaycan dilində danışa, mahnılar oxuya bilirlər. BDU-da həmçinin Konfutsi İnstitutu fəaliyyət göstərir. İnstitut Azərbaycanda Çin dilinin və mədəniyyətinin öyrənilməsində mühüm rol oynayır. Elçin Babayev BDU-nun Çinin bir neçə ali məktəbi ilə əlaqələrinin olduğunu, lakin bunun kifayət etmədiyini vurğulayıb. O, BDU-nun daha çox çinli tələbəni cəlb etməkdə, həmçinin Çinin ali məktəbləri ilə təkcə təhsil sahəsində deyil, elmi-tədqiqatlarla bağlı da əlaqələr yaratmaqda, ikili və ya üçlü diplomlar imzalamaqda maraqlı olduğunu deyib.

Səfir Qo Min isə Azərbaycanın ilk və ən böyük universiteti olan BDU-da olmaqdan məmnun olduğunu bildirib. O qeyd edib ki, Azərbaycanda təhsil alan çinli tələbələrin təxminən yarısı BDU-nun payına düşür. Təhsil sahəsində Azərbaycanla Çin arasında böyük perspektivlərin olduğunu deyən səfir çinli tələbələrə göstərilən qayğıya görə BDU rektoruna təşəkkür edib. O, BDU-nun nəzdində Konfutsi İnstitutunun Çin dilinin və mədəniyyətinin təbliğində vacib pəncərə olduğunu diqqətə çatdırıb. O, səfirliyin BDU ilə Çin ali məktəbləri arasında əlaqələr yaratmağa hazır olduğunu bildirib.

Səfir Qo Min BDU-nun nəzdində Konfutsi İnstitutunun fəaliyyəti və kollektivi ilə tanış olub. Daha sonra BDU-da təhsil alan çinli tələbələrlə görüşüb.

## BDU-da 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş tədbir



*(Əvvəli 1-si səhifədə)*

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, Milli Məclisin komitə sədri Zahid Oruc çıxışında Milli Qurtuluş Gününün tarixi əhəmiyyətini vurğulayıb. Azərbaycanın qazandığı bütün nailiyyətlərin əsasında qurtuluş məfkurəsi, Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasının dayandığını bildirib.

BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov, Azərbaycan tarixi kafedrasının müdiri Azad Rzayev çıxışlarında 15 iyunun Azərbaycan tarixinə qızıl hərflərlə yazıldığını və ölkənin iqtisadi, siyasi, hərbi inkişafının məhz bu möhtəşəm tarixdən başladığını qeyd ediblər.

Tədbir ədəbi-bədii hissə ilə davam edib.

## "Heydər Əliyev İli"nə həsr edilmiş kitab sərgisi

***İyunun 19-da İnformasiya və sənəd menecmenti fakültəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində kitab sərgisi təşkil edilib.***

Sərgidə müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən kitablar, 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərimizə həsr olunan nəşrlər, dahi liderin məzunu olduğu BDU ilə bağlı kitablar, eyni zamanda Azərbaycan Milli Kitabxanası tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası ilə buraxılan biblioqrafik göstəricilər nümayiş olunub. Kitab sərgisi professor-müəllim heyətinin və tələbələrin xüsusi marağına səbəb olub.

Sərginin nümayişi zamanı həmçinin İnformasiya və sənəd menecmenti fakültəsinin tələbələrinin ifasında Ulu Öndər Heydər Əliyevə, azad Qarabağımıza, 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərimizə həsr edilmiş şeir və musiqi nömrələri səsləndirilib.

# Milli qurtuluşumuzun 30 illiyi

*Milli qurtuluşumuzun 30-cu zirvəsindən keçdiyimiz tarixi yola nəzər saldıqca bir xalq olaraq bir daha təsdiqləyirik ki, müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin milli qurtuluşumuzun və nicatımızın davamlı və dayanıqlı inkişafına ən böyük töhfəsi özündən sonra İlham Əliyev kimi dünya siyasətinin fenomeni olan siyasi varisini yetişdirməsidir. Prezident İlham Əliyevin Ulu Öndərin siyasətini uğurla davam və inkişaf etdirməsi nəticəsində xalqımız və dövlətimiz inkişaf və tərəqqiyə nail oldu.*

***Otuz il əvvəl – 1993-cü ilin iyun ayında Azərbaycan xalqı tarixinin və taleyinin ən mürəkkəb, ən ziddiyyətli anlarını yaşayırdı. Ötən əsrin 80-ci illərinin sonundan başlayan siyasi, iqtisadi, mənəvi böhran 1993-cü ilin iyununda xarici və daxili düşmənlərimizin səyləri ilə özünün pik həddinə çatmışdı. Xalqımız illərlə arzusunda olduğu və yenicə bərpa etdiyi dövlət müstəqilliyini itirməyin bir addımlığına gətirilib çıxarılmışdı.***

Eyforiya dalğası ilə hakimiyyətə yiyələnmiş təcrübəsiz siyasətçilərin yanlış qərarları, yarıtmaz idarəçiliyi rəngləri daha da tündləşdirirdi. Yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan inkişaf və tərəqqi əvəzinə gündən-günə tənəzzülə uğrayır, torpaqlarımız bədnam qonşularımız tərəfindən ard-arda işğal olunur, öz taleyinin sahibi ola bilməyən xalqımız vətəndaş qarşıdurmasına yuvarlanırdı.

Ayrı-ayrı şəxslərin, siyasi qruplaşmaların tabeliyində olan qanunsuz silahlı dəstələr, aclıq, qıtlıq, səfalət, çörək növbələri, özbaşınalıq, siyasi qruplar arasındakı intriqalar, vəzifə hərisliyi, kürsünün Vətəndən üstün tutulması 1993-cü ilin iyununun acı, eyni zamanda gerçək tablosudur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin "Milli qurtuluşumuzun 30 illiyi" sərlövhəli məqaləsində yer alıb.

Məqalədə qeyd olunur ki, belə bir şəraitdə xarici və daxili düşmənlərimiz ölkə rəhbərliyinin siyasi səbatsızlığından, daxili və xarici siyasətdə buraxılan kobud səhvlərindən əlverişli fürsət kimi yararlanaraq Azərbaycanın müstəqilliyinə birdəfəlik son qoymaq üçün son hücuma hazır idilər.

Məqalədə vurğulanır ki, 1993-cü ilin iyunu dövlətçiliyimizin sonu olmadı, əksinə, xalqımızın və dövlətimizin taleyində yeni mərhələnin başlanğıcı oldu. XX əsrin 70-80-ci illərində ən ağır şərtlərə, təqiblərə mərdliklə, cəsarətlə və əlbəttə ki, müdrikliklə sinə gərərək respublikamızın hərtərəfli inkişafına nail olan, milli müstəqilliyimizə gedən tarixi yolun təməllərini yaradan xilaskar rəhbərimiz, qədirbilən xalqımızın haqlı olaraq Ümummilli Lider, Ulu Öndər adlandırdığı dühа - Heydər Əlirza oğlu Əliyev xalqın çağırışına səs verərək müqəddəs bir missiya ilə Naxçıvandan Bakıya gəldi. Bəli, məhz müqəddəs missiya ilə! Xilaskarlıq missiyasını həyata keçirən Ulu Öndər 1993-cü ilin iyununda ümidsizlik girdabında boğulan, müstəqilliyini itirməyin bir addımlığında olan xalqımızın nicatı, xilası missiyası ilə yenidən böyük siyasət meydanına qayıtdı.

Ümummilli Liderin siyasi hakimiyyətə gəlişi ilə bulanıq sularımız durulmağa, sabahlarımız aydınlaşmağa başladı. Ulu Öndər siyasi iradəsi, qətiyyəti, yüksək idarəçilik məharəti, ən əsası isə xalqına olan sonsuz sevgisi ilə bütün çətinlikləri arxada qoymağı, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmış ölkəmizi qüdrətli dövlətə çevirməyi bacardı. Bu dönüş, bu qayıdış böyük bir xalqın, eyni zamanda, yenicə müstəqilliyini bərpa etmiş bir dövlətin sözün bütün mənalarında milli qurtuluşu, milli nicatı idi. Ona görə də müdrik xalqımız Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildiyi 1993-cü il 15 iyun tarixini uzaqgörənliklə Milli Qurtuluş Günü adlandırdı.



15 İyun - Milli Qurtuluş Günü hər bir azərbaycanlıya yeni ruh, yeni ovqat, yaşamaq, qurub-yaratmaq əzmini bəxş etdi. Prezident İlham Əliyevin Azərbaycan tarixinin dönüş nöqtəsi adlandırdığı Milli Qurtuluş Günü bu gün xalq və dövlət olaraq əldə etdiyimiz bütün uğurların məhək daşıdır. Hər bir azərbaycanlı o məhək daşını göz bəbəyi kimi qorumalı, müstəqil dövlətimizin inkişafına öz töhfəsini verməlidir.

1997-ci ildən etibarən rəsmi dövlət bayramı kimi təsis edilən 15 iyun tarixi xalqımızın coşqu və həvəslə, eyni zamanda, Ulu Öndərə sonsuz sevgi və ehtiramla qeyd etdiyi böyük bir bayramdır.

Bu gün əminliklə söyləyirik ki, dövlətçiliyimizin inkişafının yeni mərhələsi məhz bu tarixi gündən – 1993-cü ilin 15 iyunundan başlayır. Həmin vaxtdan etibarən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkədə siyasi-iqtisadi islahatlara, peşəkar ordu quruculuğuna başlanıldı. Özbaşınalığın, xaosun hökm sürdüyü bir məmləkətdə əmin-amanlığa, sabitliyə, davamlı rifah və inkişafa nail olundu. Dövlətimizin siyasi və hüquqi təsisatları formalaşdırıldı. Bütün sahələr üzrə milli inkişaf strategiyamız, prioritetlərimiz müəyyənləşdirildi və əzmlə, siyasi iradə ilə həyata keçirildi. Azərbaycan vətəndaşında dövlətə inam formalaşdı. Təkcə bu amil xüsusilə həmin dövrdə hər bir azərbaycanlı üçün olduqca vacib idi.

Ulu Öndərin səyləri ilə nail olunmuş iqtisadi rifah, vətəndaş cəmiyyətinin, azad seçki mühitinin formalaşdırılması, ordu quruculuğundakı uğurlar, dünyadan təcrid edilmiş ölkəmizin dünya birliyinə sürətlə inteqrasiyası məhz 15 iyun 1993-cü ildən başlayan tarixi mərhələnin təməlləri üzərində yaranmış və günbəgün formalaşmış tarixi bir gerçəklik, real bir mənzərədir.

Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Gününün 30-cu ildönümünü xalqımız əlamətdar bir tarixlə – Ulu Öndərin 100 illik yubileyi ilə eyni ildə qeyd edir. Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü il Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilib. Xalqımız hər iki əlamətdar tarixi – Ulu Öndərimizin 100 illik yubileyini və Milli Qurtuluş Gününün 30-cu ildönümünü böyük coşqu, sevgi və minnətdarlıq hissləri ilə qeyd edir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz sərkərdəliyi ilə tarixi Zəfərlə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra, Türk dünyasının mədəniyyət paytaxtı elan edilmiş azad Şuşanın şərəfinə adlandırılmış "Şuşa İli"nin ardınca "Heydər Əliyev İli"nin elan olunması və məhz bu əlamətdar ildə milli qurtuluşumuzun 30-cu ildönümünün qeyd olunması hər bir azərbaycanlıya yüksək ovqat, sevinc və əlbəttə ki, qürur hissləri bəxş edir. Əminliklə və eyni zamanda şükranlıqla söyləyirik ki, bütün bunlar İlahi ədalətin təntənəsi, Ulu Öndər Heydər Əliyevin xalqına olan sonsuz sevgisinin, saf hisslərinin, müqəddəs və ülvi arzularının parlaq təcəssümüdür.

Milli qurtuluşumuzun 30-cu zirvəsindən keçdiyimiz tarixi yola nəzər saldıqca bir xalq olaraq bir daha təsdiqləyirik ki, müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin milli qurtuluşumuzun və nicatımızın davamlı və dayanıqlı inkişafına ən böyük töhfəsi özündən sonra İlham Əliyev kimi dünya siyasətinin fenomeni olan siyasi varisini yetişdirməsidir. Prezident İlham Əliyevin Ulu Öndərin siyasətini uğurla davam və inkişaf etdirməsi nəticəsində xalqımız və dövlətimiz inkişaf və tərəqqiyə nail oldu. 90-cı illərin ümidsiz, ruh düşkünlüyünə uğradılmış Azərbaycan xalqı bugünkü müzəffər xalqa, müstəqilliyini itirmək təhlükəsinin son addımlığında olan Azərbaycan dövləti bütün dünyanın hesablaşdığı, Qarabağını işğaldan azad etmiş qalib və qüdrətli dövlətə çevrildi.

Ulu Öndərin xilaskarlıq, milli qurtuluş missiyasını uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağımızın azadlığına, qurtuluşuna nail oldu. Müqəddəs ata vəsiyyətini, Ümummilli Liderimiz Heydər Əliyevin ən ülvi, ən müqəddəs arzusunu şərəflə yerinə yetirdi. Ulu Öndərin: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" – kəlamındakı müqəddəs arzular gerçəkləşdi. Bütün bunlar bugünkü xoşbəxt Azərbaycanın tablosu, Ulu Öndər Heydər Əliyevin həyata keçmiş arzularıdır.

Bu gün müzəffər Azərbaycan xalqına mənsubluğu ilə qürur duyan, Ulu Öndərin "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" – kəlamı ilə şöhrətini zirvələrə ucaltdığı, eyni zamanda, Azərbaycan xalqının milli sərvəti, milli iftixarı adlandırdığı Bakı Dövlət Universitetinin kollektivi də bütün xalqımız kimi "Heydər Əliyev İli"ni və milli qurtuluşumuzun 30-cu ildönümünü böyük hörmət və ehtiramla qeyd edir. Bakı Dövlət Universitetində bu əlamətdar, tarixi hadisələrlə bağlı elmi konfranslar, seminarlar, xüsusi mühazirələr, ustad dərsləri keçirilir, məqalə, esse, rəsm, bədii qiraət müsabiqələri, kitab və rəsm sərgiləri, bilik və idman yarışları, müxtəlif turnirlər, ağacəkmə aksiyaları, bölgələrə səfərlər, muzeylərə ekskursiyalar təşkil olunur, kitablar nəşrə hazırlanır.

Hər birimiz çox xoşbəxtik ki, bu gün Ulu Öndərimizin 100 illik şanlı yubileyini və milli qurtuluşumuzun şərəfli 30-cu ildönümünü qalib xalq kimi qarşılayırıq. Bu əlamətdar, tarixi günlər düşmənin zülmündən qurtulmuş müqəddəs yurd yerlərimizdə, azad Qarabağımızda, Zəngəzurda bayram ovqatı ilə, bu günlərdə Həkəri çayının üzərində düşmənlərimizə əbədilik göz dağı kimi ucaldılmış şanlı bayrağımızın cazibəsində müzəffər xalqımız tərəfindən üzüağ, alnıaçıq şəkildə qeyd edilir.

1993-cü ilin 15 iyunundan başlayan, 2020-ci ilin 27 sentyabrından yeni, parlaq səhifələri yazılan qurtuluş savaşımız və tarixi zəfərlərimiz isə Prezident İlham Əliyevin rəhbərliyi ilə siyasi müstəvidə bu gün də davam edir.

***Elçin Babayev***
*Bakı Dövlət Universitetinin rektoru*

*AZƏRTAC*
*15.05.2023*

# TÜBİTAK-ın prezidenti Hasan Mandalla görüş

***İyunun 6-da BDU-da Türkiyənin Elmi və Texnoloji Tədqiqat Şurasının prezidenti Hasan Mandalla görüş keçirilib.***

Qonağı BDU-da görməyin qürurverici olduğunu bildirən rektor Elçin Babayev qeyd edib ki, Türkiyə-Azərbaycan qardaşlığı “bir millət-iki dövlət-tək yumruq” formulu ilə daha da möhkəmlənir. Hər iki ölkə bu birliyi elm-təhsil sahəsində də uğurla davam etdirir. Rektor Azərbaycanın Elm və Təhsil Nazirliyi ilə TÜBİTAK arasında



elm, texnologiya sahələrində əməkdaşlığa dair niyyət məktubunun imzalanmasının önəmini vurğulayıb. Bildirib ki, TÜBİTAK-la əməkdaşlıq BDU-nun beynəlxalq layihələrdə iştirak səviyyəsini qaldıracaq. TÜBİTAK tərəfindən 20 prioritet istiqamət üzrə böyük layihələr həyata keçiriləcək. Elm və Təhsil Nazirliyinin dəstəyi ilə həmin layihələrdə Azərbaycanın ali məktəbləri, o cümlədən BDU-nun da iştirakı nəzərdə tutulur.

TÜBİTAK-ın prezidenti Hasan Mandal isə elm və təhsilin inkişafında ölkələrarası əməkdaşlığın böyük rola malik olduğunu, bu layihədən hər iki ölkənin faydalanacağını qeyd edib. O, iştirakçılara TÜBİTAK-ın həyata keçirəcəyi layihə və istiqamətlər barədə ətraflı məlumat verib.

# BDU Türkiyənin Üsküdar Universiteti ilə akademik əməkdaşlıq protokolu imzalayıb

***İyunun 7-də BDU ilə Türkiyənin Üsküdar Universiteti arasında elm və təhsil sahəsində akademik əməkdaşlıq protokolu imzalanıb.***

Əməkdaşlıq protokolunu BDU-nun rektoru Elçin Babayev və Üsküdar Universitetinin rektoru Nazife Güngör imzalayıblar.

Rektor Elçin Babayev BDU-nun Türkiyənin İzmir Yüksək Texnologiyalar İnstitutu, Bilkent Universiteti, Ankara Universiteti, İstanbul Texniki Universiteti və s. tanınmış universitetləri, həmçinin qardaş ölkənin Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) ilə yaxından əmək-



daşlıq etdiyini, birgə layihələr həyata keçirdiyini qeyd edib. O, Üsküdar Universiteti ilə də ölkələrimizə fayda verəcək və əməkdaşlığı daha da möhkəmləndirəcək layihələr icra ediləcəyinə əminliyini bildirib.

Üsküdar Universitetinin rektoru Nazife Güngör rektor kimi ilk səfərini BDU-ya etməkdən məmnun olduğunu bildirib. O qeyd edib ki, BDU və Üsküdar Universiteti jurnalistika, biologiya, psixologiya, qarşılıqlı maraq doğuran digər təhsil və elm sahələri üzrə tədqiqatlar aparacaq. Əməkdaşlıq protokolunda ikili diplom proqramları üzrə layihələrin həyata keçirilməsi, akademik heyətin və tələbələrin qarşılıqlı mübadiləsi də nəzərdə tutulur.

# Qırğızıstanın Azərbaycandakı səfiri BDU-da

***İyunun 7-də BDU-nun rektoru Elçin Babayev Qırğızıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmanaliyevlə görüşüb.***

Rektor Elçin Babayev səfirə BDU-nun tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri barədə məlumat verib. Qeyd edib ki, Azərbaycanın ən böyük və qədim universiteti olan BDU-da 24 mindən artıq tələbə təhsil alır. BDU-nun 16 fakültəsində elmin müxtəlif sahələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır. Rektor son illər BDU-nun beynəlxalq əlaqələrinin daha



da genişləndiyini, ikili diplom proqramlarının sayının 11-ə çatdığını, müxtəlif ölkələrin nüfuzlu universitetləri ilə əməkdaşlıq müqavilələrinin imzalandığını bildirib. Bu əməkdaşlıqda türkdilli dövlətlər xüsusi yer tutur. Elçin Babayev BDU-nun Qırğızıstan universitetləri ilə əməkdaşlıqda maraqlı olduğunu bildirib.

Səfir Kayrat Osmanaliyev isə qeyd edib ki, Azərbaycanla Qırğızıstan ortaq tarixə, mədəniyyətə, ənənələrə malik qardaş ölkələrdir. Bu baxımdan Azərbaycanın ali məktəbləri ilə əməkdaşlıq Qırğızıstan üçün prioritetdir. Səfir hər iki ölkənin flaqman universitetləri olan BDU və Qırğızıstan Milli Universiteti arasında əlaqələrin yaradılmasının vacib olduğunu vurğulayıb.

Görüşdə BDU ilə Qırğızıstan ali məktəbləri arasında əməkdaşlıq, maraq doğuran digər məsələlərlə bağlı müzakirələr aparılıb.

# “Code For Future” layihəsinin məzun günü

***İyunun 8-də BDU-da “Code For Future” layihəsinin məzun günü keçirilib.***

Mərasimdə elm və təhsil nazirinin müavini Həsən Həsənli, BDU-nun rektoru Elçin Babayev, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) İdarə Heyətinin sədri Ülkər Səttarova, Universitetin layihədə iştirak edən tələbələri, eləcə də digər qonaqlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, 2021-ci ildən uğurla icra olunan “Code For Future” layihəsi tələbələrin İT biliklərinin artırılmasında böyük rol oynayır. 2022-ci ildən etibarən isə “DevEducation” şirkəti də bu istiqamətdə fəaliyyət göstərir. Layihənin bugünkü məzunları müasir kompüterlərlə təchiz olunmuş auditoriyalarda 4 ay müddətində proqramlaşdırma, sistem administratorluğu və şəbəkə administratorluğu üzrə tədris alıblar: “Bu gün hamı üçün əlamətdar gündür. BDU öz ənənələrinə uyğun təhsil verməyə davam etsə də, tələbələri daha






yaxşı yetişdirmək üçün əlavə proqramlar mütləqdir. Qazanan Bakı Dövlət Universiteti və tələbələrdir. Bu gün əldə etdiklərinizin bəhrəsini gələcəkdə görəcəksiniz. Müasir çağırışlara cavab verən, yüksəkixtisaslı mütəxəssislərin yetişməsi zamanın tələbidir”.

Elm və təhsil nazirinin müavini Həsən Həsənli yaxın gələcəkdə öyrənməklə bağlı yanaşmanın dəyişəcəyini qeyd edib. Nazir müavini bildirib ki, layihədə əldə edilən bilik, bacarıqlar və təcrübə iştirakçıların gələcək həyatında böyük rol oynayacaq: “Gəlin razılaşaq ki, hər altı ayda təhsil həyatında və eyni zamanda tələblərdə dəyişikliklər baş verir. Əmək bazarı yeni təkliflərlə çıxış edir. “Code For Future” layihəsi tələbələrin məhz əmək bazarının tələblərinə uyğun yetişmələrinə imkan verir”.

TKTA-nın İdarə Heyətinin sədri Ülkər Səttarova layihənin əhəmiyyətini vurğulayıb, gəncləri bu imkandan maksimum bəhrələnməyə çağırıb.

“DevEducation” layihəsinin rəhbəri Yakov Livşits bu proqramda iştirakçıların qayğısına qalan xeyli sayda insan olduğunu vurğulayıb. Zəngin və uğurlu olmağın heç vaxt asan olmadığını deyən qonaq süni intellektin həyatımıza nüfuz etdiyini, sürətlə süni intellekt əsaslı proqramların istifadəyə verildiyini qeyd edib.

Tədbirdə həmçinin məlumat verilib ki, iyul ayının 3-dən avqustun 31-dək “DevEducation” şirkəti tərəfindən BDU-nun bütün fakültələrinin III-IV kurs tələbələri və magistrləri üçün yay məktəbi təşkil ediləcək.

Daha sonra layihə çərçivəsində tədrisi başa vuran BDU tələbələrinin hazırladıqları layihələrin təqdimatı keçirilib.

Tədbirin sonunda “Code For Future”nin məzunu olan BDU tələbələrinə sertifikatlar təqdim olunub.

# Azərbaycan dövlətçiliyinin xilas günü

## Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü xalqımızın və dövlətimizin tarixində müstəsna əhəmiyyətə malikdir

***Bəzi tarixi günlər xalqın gələcəyini müəyyən edən böyük başlanğıcların əsasını qoyur, onun taleyini tənəzzüldən tərəqqiyə və rifaha istiqamətləndirir. Həmin tarixi günlərin çəkisi, dəyəri, miqyası illər keçdikcə daha da böyüyür. Tarixi yaradan şəxsiyyətlərin ən çətin situasiyalardakı misilsiz rolları, qəbul etdikləri müdrik qərarların qüdrəti bir daha aydınlaşır.***

Azərbaycan tarixinin belə önəmli günlərindən biri 15 İyun - Milli Qurtuluş Günüdür. Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü xalqımızın və dövlətimizin tarixində müstəsna əhəmiyyətə malikdir.

1991-ci ildə xalqımız uzun illər arzusunda olduğu dövlət müstəqilliyini yenidən bərpa etsə də, təəssüf ki, qısa zaman kəsiyində müstəqilliyin itirilməsi sınağı ilə üz-üzə qaldı. Müstəqil Azərbaycan inkişaf və rifah əvəzinə günü-gündən tənəzzülə uğradı. Xalqımız vətəndaş qarşıdurmasına yuvarlandı. Ermənistanın Azərbaycana təcavüzü respublikada vəziyyəti daha da gərginləşdirdi. Belə bir dözülməz şəraitdə xalqımızı və ölkəmizi bu acınacaqlı vəziyyətdən yalnız fenomenal şəxsiyyət – Ulu Öndər Heydər Əliyev çıxara bilərdi. Qədirbilən xalqımız yad təsirlərin, siyasi oyunların yaratdığı ümidsizliyin girdabında boğulsa da, müdrik qərar verdi. Bu qərar dünyaya xilaskarlıq missiyası ilə gəlmiş Ümummilli Lider Heydər Əliyevin Naxçıvandan Bakıya – ölkənin siyasi mərkəzinə dəvət edilməsi idi.

1993-cü ilin 9 iyununda xalqının səsinə, harayına səs verərək və eyni zamanda həyatını böyük təhlükələrə ataraq Bakıya dönən Heydər Əliyev mahiyyətcə, məzmunca yeni və daha parlaq bir tarixin yaradıcısı oldu. Bu dönüş, bu qayıdış bütün mənalarda milli qurtuluşumuz, milli nicatımız idi. Bu mənada Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildiyi 1993-cü il 15 iyun tarixinin xalqımız tərəfindən Milli Qurtuluş Günü adlandırılması qədirbilən xalqımızın müdrik rəhbərinə verdiyi tarixi qiymət, öz sabahını müəyyənləşdirmək baxımından verdiyi böyük tarixi qərardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan tarixinin dönüş nöqtəsi" adlandırdığı Milli Qurtuluş Günü bu gün əldə etdiyimiz bütün uğurların təməli, məhək daşı oldu.

1997-ci ildən etibarən rəsmi olaraq dövlət bayramı kimi qeyd edilən bu tarix ilk növbədə XX əsrdə ikinci dəfə əldə etdiyimiz müstəqilliyimizin xilası kimi olduqca böyük əhəmiyyət daşıyır.

Məhz bu parlaq tarixdən sonra Ulu Öndərin yorulmaz səyləri nəticəsində dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas olan ölkəmiz ardıcıl rifah və tərəqqi yoluna qədəm qoydu. Ulu Öndərin rəhbərliyi ilə qısa zaman ərzində aparılan siyasi-iqtisadi islahatlar, peşəkar ordu quruculuğu, bütün bunların fonunda yaranmış əmin-amanlıq, sabitlik, rifah xalqımızın sabaha olan ümidlərini artırdı. Onu müdrik və cəsarətli rəhbərinin ətrafında yumruq kimi birləşməyə sövq etdi. Eyni zamanda xalqın inamından güc alan Ulu Öndər müstəqil Azərbaycan dövlətinin siyasi və hüquqi təsisatlarını, inkişaf strategiyasını müəyyənləşdirdi.

Ümummilli Lider Heydər Əliyev Tanrı tərəfindən üzərinə qoyulmuş qurtuluş missiyasını xalqın hərtərəfli dəstəyi, müdrik rəhbərə olan sonsuz inamı və etibarı sayəsində uğurla gerçəkləşdirdi. Ulu Öndər bu tarixi missiya ilə xalqımızı, dövlətimizi ən böyük bəlalardan xilas etdi.

Azərbaycan dövlətini məhv olmaqdan xilas edən, onun hərtərəfli rifahına nail olan Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu, həyata keçirmək istədiyi daha bir tarixi missiya 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində ölkəmizdə yaranmış özbaşınalıq şəraitində işğal olunmuş tarixi torpaqlarımızın azad edilməsi idi. 2003-cü ildə xalqın yüksək etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Ulu Öndərimizin xilaskarlıq, qurtuluş, tərəqqi və rifah missiyasını uğurla davam etdirdi. Ölkəmiz daha da qüdrətləndi. Əsası Ulu Öndər tərəfindən qoyulan siyasi idarəçilik sistemi inkişaf etdirildi. Azərbaycanı günbəgün qüdrətləndirən Prezidentimiz İlham Əliyev 2020-ci ilin 27 sentyabrında başlayan və tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsi ilə layiqli davamçısı olduğu Ümummilli Liderin ən böyük arzusunu gerçəkləşdirdi. Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda başlatdığı milli qurtuluş savaşı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Qarabağın işğaldan qurtulması ilə özünün zirvəsinə çatdı. Hazırda azad Qarabağımız müstəqil dövlətimizin gücü və potensialı ilə yenidən cənnətə çevrilir, doğma Vətənimiz günbəgün inkişaf edir. Bunun üçün 1993-cü ilin 15 iyunundan başlayan qurtuluş yoluna minnətdarıq!

# BDU-nun kafedra müdiri Qazaxıstanda Ümummilli Lider Heydər Əliyevin irsi ilə bağlı məruzə edib

***İyunun 7-də Qazaxıstanın Kostanay şəhərində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə və Azərbaycan Mədəniyyət Günlərinə həsr olunmuş silsilə tədbirlər keçirilib.***

Kostanay vilayətində "Birlik" Azərbaycanlıların Etnomədəni İctimai Birliyinin təşkilatçılığı ilə baş tutan tədbirlər silsiləsi A.Baytursınov adına Kostanay Regional Universitetində və Çelyabinsk Dövlət Universitetinin Kostanay şəhərindəki filialında elmi-praktik konfransın keçirilməsi ilə başlayıb.

"Etniklərarası münasibətlər. Müxtəlif ölkələrdə problemli məsələlərin həlli" mövzusunda təşkil edilən tədbirdə Kostanay vilayətinin icra hakimiyyətinin, Azərbaycanın Qazaxıstandakı səfirliyinin, Diasporla İş üzrə Dövlət Komitəsinin, yerli ictimaiyyətin nümayəndələri, professor-müəllim heyəti və Azərbaycandan olan qonaqlar iştirak ediblər.

BDU-nun Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müdiri Saleh Nağıyev tədbirdə məruzə ilə çıxış edib. Natiq qeyd edib ki, Azərbaycanın müasir tarixinin bütöv bir dövrü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. O, təkcə lider deyil, həm də müasir müstəqil Azərbaycan dövlətinin memarı və yaradıcısı idi. Məhz buna görə də bu dövr Azərbaycanın inkişafında ən parlaq səhifələrdən biridir. Ulu Öndər doğma xalqın ən ağır günlərində özünəməxsus qətiyyət və dözümlülük nümayiş etdirərək Azərbaycanın müstəqilliyini, milli dövlətçiliyi qoruyub saxlayıb, xalqın ümid və güvən yerinə çevrilib.

Məruzədə Azərbaycan və Qazaxıstan arasında strateji tərəfdaşlıq, Xəzəryanı dostluq məsələləri, Türk Dövlətləri Təşkilatında iki qardaş ölkənin nümunəvi işbirliyi, Ulu Öndər Heydər Əliyevin Qazaxıstanın görkəmli siyasi xadimləri ilə dostluq əlaqələri, eləcə də dahi rəhbərin diasporun yaranması və inkişafında rolu barədə ətraflı söz açılıb. Saleh Nağıyev Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə və Azərbaycan Mədəniyyət Günlərinə həsr olunmuş silsilə tədbirlərdə fəallığına görə Qazaxıstanda Azərbaycanlıların Etnomədəni İctimai Birliyi və Xalq Assambleyası Kostanay vilayəti şöbəsinin xüsusi təşəkkürnaməsinə layiq görülüb.

# Tanınmış ictimai-siyasi xadim Lidiya Rəsulovaya həsr olunmuş "Tarixə yazılmış ömür" kitabının təqdimatı olub

***İyunun 8-də BDU-da tanınmış ictimai-siyasi xadim Lidiya Rəsulovaya həsr olunmuş "Tarixə yazılmış ömür" kitabının təqdimatı keçirilib.***






Mərasimdə çıxış edən elm və təhsil nazirinin müavini Firidun Qurbanov qeyd edib ki, Lidiya Rəsulova işlədiyi bütün vəzifələrdə məsuliyyətlə çalışan, Vətənini, dövlətini sevən, yüksək mənəviyyata malik insan olub. Buna görə də Lidiya Rəsulovanın xidmətləri bu gün də hörmətlə yad edilir. O, 1981-1988-ci illərdə Həmkarlar İttifaqları Şurasının sədri olarkən Azərbaycanda istirahət, idman mərkəzlərinin yaradılmasına xüsusi diqqət yetirib. 1993-1997-ci illərdə təhsil naziri vəzifəsində işləyərkən Təhsil Nazirliyinin yeni strukturu formalaşıb, ciddi islahatlar aparılıb. O, prinsipial, təmiz, düzgün qərarlar qəbul etmək bacarığına malik dövlət xadimi idi.

Milli Məclisin komitə sədri Hicran Hüseynova bildirib ki, Lidiya Rəsulova qeyri-adi idarəçilik bacarığına malik, obyektiv insan kimi həm sovet dövründə, həm müstəqillik illərində müxtəlif vəzifələrdə çalışıb. O, Ümummilli Lider Heydər Əliyev məktəbinin ən parlaq nümayəndəsi idi. Ömrünün sonuna qədər Ulu Öndərin siyasətinə sadiq qalan Lidiya Rəsulova eyni zamanda Azərbaycanda qadın hərəkatının öncüllərindən olub.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin vitse-prezidenti Xaliq Məmmədov da Lidiya Rəsulovanın ictimai-siyasi fəaliyyəti, xidmətləri ilə bağlı fikirlərini bildirib, onun əziz xatirəsinin həmişə yaddaşlarda yaşayacağını qeyd edib.

Daha sonra kitabın müəllifi, jurnalist Dilarə Rüstəm, Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov, Xalq artisti Könül Xasıyeva, vəkil Aslan İsmayılov, Lidiya Rəsulovanın ailəsinin üzvü Emin Rəhimov çıxış ediblər. Çıxışlarda Lidiya Rəsulovanın Azərbaycan dövlətçiliyi qarşısında xidmətləri vurğulanıb, onunla bağlı xatirələr səsləndirilib.

Tədbirin sonunda "Mədəniyyət" TV-nin Lidiya Rəsulovanın xatirəsinə həsr etdiyi "Tarixə yazılmış ömür" filmi nümayiş olunub.

# İnsan hüquqları elminin və tədrisinin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu

***Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan günlərdən biri və ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun – Milli Qurtuluş Günüdür. Bu əlamətdar gündən ötən 30 il Azərbaycanın qurtuluş və zəfər dövrüdür.*** 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi böhrandan xilas oldu, davamlı inkişafın təməlləri qoyuldu. “Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır”, – deyən Ümummilli Lider problemlərin həlli üçün ilk növbədə bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu. Ulu Öndərin rəhbərliyi ilə ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət quruculuğuna başlanması, dövlət siyasətində insan hüquq və azadlıqlarının qorunmasına xüsusi önəm verilməsi və bu sahədə aparılmış əsaslı hüquqi islahatlar bütövlükdə cəmiyyətin və dövlətin inkişafında əvəzsiz rol oynamaqla yanaşı, hüquq elminin müasir tələblərə uyğun təkamülündə də mühüm əhəmiyyət kəsb edib. Belə ki, milli insan hüquqları standartlarının beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə görülən bütün tədbirlər, qəbul edilmiş normativ-hüquqi aktlar, verilmiş fərman və sərəncamlar mərhələli şəkildə demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan üç pilləli məhkəmə sisteminin, konstitusiya nəzarətinin və s. bu kimi yeni təsisatların yaradılması ilə nəticələnib, dövlət orqanlarının fəaliyyətinin demokratizm, humanizm və insan hüquqlarına hörmət prinsiplərinə uyğun formada təşkilinə istiqamət verib.

İnsan hüquqları elminin formalaşması insan hüquqları sahəsində qanunvericilik bazasının yaradılması və inkişafından xeyli dərəcədə asılıdır. Beynəlxalq hüquq normalarında təsbit olunsa da, məhz milli səviyyədə hüquq və azadlıqların tanınması və onların müdafiəsi mexanizmlərinin işlənib hazırlanması insan hüquqları elminin inkişaf istiqamətlərini müəyyənləşdirir. Beynəlxalq konvensiyalara qoşulmaq, daha sonra isə həmin konvensiyalar əsasında müasir milli-hüquqi normalar işləyib hazırlamaq, mövcud normaları beynəlxalq sənədlər əsasında təkmilləşdirmək Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifələr idi. Yaradılan qanunvericilik bazası elmi araşdırmalar və ümumiləşdirmələr aparmağa, onun daha da təkmilləşdirilməsi üçün müvafiq tövsiyələr hazırlamağa, respublikamızda insan hüquqları üzrə məhkəmə təcrübəsini ümumiləşdirməyə və xarici məhkəmə təcrübəsi ilə müqayisə etməyə imkan yaratdı. Bütün bunlar da müasir insan hüquqları elminin dinamik inkişafını şərtləndirdi.



1995-ci ildə Konstitusiyanın qəbulu insan hüquq və azadlıqlarına yeni yanaşmanı təqdim etdi. Konstitusiyanın qəbul edməsi, xalqımızın həyatında və dövlətçiliyimizin qurulmasında yeni bir mərhələnin başlanğıcını qoydu, respublikada dövlət quruculuğu sahəsində yeni imkanlar açdı. Bu mühüm sənədin ən üstün və fərqli cəhətlərindən biri onun müddəalarında insanlara dövlət və cəmiyyət tərəfindən verilmiş və verilməli olan, habelə cəmiyyət üzvləri tərəfindən etibar edilən və etibar edilməsi mümkün sayılan bütün hüquq, azadlıq və vəzifələrin bütöv və vəhdət halında öz əksini taparaq bir-birini tamamlamasıdır.

Lakin Ulu Öndərin uzaqgörən siyasəti hüquq və azadlıqların yalnız bəyan olunması ilə kifayətlənməyib, onların təminat və müdafiə mexanizmlərinin işlənməsində ifadə olunub. Bununla bağlı Ümummilli Liderin “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” 22 fevral 1998-ci tarixli Fərmanı və “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında” 18 iyun 1998-ci il tarixli Sərəncamı xüsusi qeyd olunmalıdır. Belə ki, Fərmanda müvafiq qurumlara verilən tapşırıqlar sırasında aşağıdakı istiqamətlər insan hüquqları elminin inkişafına təkan verdi:

- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə tapşırıldı ki, insan hüquqlarına dair beynəlxalq aktların öyrənilməsi məqsədilə respublikanın ali, orta ixtisas və orta məktəbləri üçün insan hüquq və azadlıqlarına dair dərsliklərin hazırlanmasını təmin etsin;

- Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırıldı ki, əlaqədar dövlət orqanları ilə birlikdə insan hüquqları üzrə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə müvafiq tədqiqat və təhsil proqramlarının öyrənilməsi üçün mütəxəssislərin iştirakını təmin etsinlər.

Qeyd olunan istiqamətlər üzrə tədbirlər planı İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramında öz əksini tapıb.

Ulu Öndərin qabaqcıl dövlət siyasəti insan hüquqları elminin müasir inkişaf perspektivlərini aşağıdakı kimi müəyyən edib:

Birincisi, bu sahədə tədqiqatlar aparan tədqiqatçı və alimlər üçün sərbəst araşdırma aparmaq üçün şərait yaradılması nəticəsində xarici dövlətlərin təcrübəsi və beynəlxalq normalar müfəssəl təhlil olundu, insan hüquq və azadlıqları ilə bağlı milli normalara dəyişikliklərlə bağlı təkliflər işlənib hazırlandı.

İkincisi, insan hüquqları ilə bağlı müxtəlif təsisatların yaradılması və onların elmi-tədqiqat sahəsində əməkdaşlığı insan hüquqları elminin müasir əsaslarla yenidən formalaşdırılmasını şərtləndirdi.

Üçüncüsü, insan hüquqları ilə bağlı müxtəlif fənlərin ali təhsil müəssisələrində tədrisi istiqamətində köklü dəyişikliklərin edilməsi Azərbaycan hüquq elmində müasir insan hüquqları elminin inkişafına təkan verdi.

İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramında insan hüquq və azadlıqları problemlərinə dair elmi-tədqiqat işlərinin mütəmadi aparılması Elm və Təhsil Nazirliyinə və Azərbaycan Milli Elmlər Akademiyasına tapşırılıb. Bütün bunlar ölkəmizdə müasir hüquq məktəbinin əsasını qoydu və insan hüquqları elminin inkişafında dönüş nöqtəsi yaratdı.

Ulu Öndərin müasir insan hüquqları siyasətini yeni mərhələdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Konstitusiyanın əsas hüquqi mənbə olaraq, demokratik əsaslara söykənməsini başlıca inkişaf istiqaməti kimi götürüb. Belə ki, 2016-cı ildə keçirilmiş ümumxalq səsverməsi nəticəsində insan ləyaqətinin qorunması və ona hörmət edilməsi konstitusion qaydada bəyan olundu.

Qeyd olunduğu kimi, Ulu Öndər siyasətində insan hüquqları ilə bağlı müxtəlif təsisatların yaradılması və onların elmi-tədqiqat sahəsində əməkdaşlığı insan hüquqları elminin inkişafının ikinci istiqamətini təşkil edib. Ulu Öndər Heydər Əliyevin 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramında insan hüquqları üzrə elmi-tədqiqat institutunun yaradılması, eləcə də insan hüquqları üzrə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə, digər təsisatlarda müvafiq tədqiqat, təhsil və təcrübə proqramlarının öyrənilməsi üçün mütəxəssislərin iştirakının təmin edilməsi müvafiq dövlət orqanlarına həvalə olunub. Bütün bu tədbirlər insan hüquqları üzrə elmi biliklərin mübadiləsində mühüm əhəmiyyət kəsb edir.

Ümummilli Liderin insan hüquqları yönümlü siyasətinin başlıca istiqamətlərindən biri kimi Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının kütləvi şəkildə pozulması faktının dünya ictimaiyyətinə çatdırılması və onlara dəymiş zərərin Ermənistan dövləti tərəfindən ödənilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi olub. Bu məqsədlə Dövlət Proqramında insan hüquqlarının kütləvi şəkildə pozulması hadisəsi kimi azərbaycanlıların repressiyası, soyqırımı və deportasiyası haqqında sənədli, bədii filmlərin çəkilişi və digər sənət əsərlərinin, o cümlədən monumental əsərlərin yaradılması əsas tədbirlər sırasında öz əksini tapıb. Bu işdə milli hüquq elminin də payına çoxsaylı elmi tədqiqatların aparılması, alimlər tərəfindən Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işi düşür. Bu sahədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirakını, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini xüsusi qeyd etmək lazımdır. Belə fəaliyyətin nəticəsidir ki, artıq Azərbaycan dünyada nəinki coğrafi mövqeyinə, həmçinin mədəni irsinə, elminə, tarixi abidələrinə, zəngin dövlətçilik, multikulturalizm və tolerantlıq ənənələrinə görə tanınır.

Yeni formalaşan informasiya cəmiyyətində Fondun konstitusion niyyətlərin reallaşmasına xidmət edən bir çox məqsədləri vətəndaş cəmiyyəti institutlarının inkişafında, hüquqi dövlət və sosial dövlət modellərinin tətbiqində, habelə müxtəlif insan hüquq və azadlıqlarının həyata keçirilməsində əvəzedilməz rola malikdir.

Növbəti mühüm istiqamət Ümummilli Lider Heydər Əliyevin qabaqcıl elm və təhsil siyasətinin nəticəsi olaraq, insan hüquqları ilə bağlı tədris sistemində köklü dəyişikliklərin edilməsində ifadə olunub. Bu istiqaməti Hüquq fakültəsinin timsalında şərh etmək olar. Ulu Öndərin və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mütərəqqi siyasətinə sadiq qalan fakültəmizin insan hüquqları elmi sahəsində həyata keçirdiyi fəaliyyət hər zaman respublikamızda qəbul edilmiş milli hüquq normalarını, dövlət proqramlarını rəhbər tutub. Belə ki, Ulu Öndərin Sərəncamı ilə təsdiq olunmuş İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramında əsası qoyulmuş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən və 28 dekabr 2006-cı il, 27 dekabr 2011-ci il tarixli Sərəncamlarla təsdiq olunmuş Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı və Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında “insan hüquqları sahəsində tədris, maarifləndirmə, elmi-analitik və əməkdaşlıq tədbirləri” prioritet istiqamətlər sırasında mühüm yer almaqdadır. Bu istiqamət üzrə planlaşdırılan və icra olunan bir çox tədbirlərin həyata keçirilməsində aktiv iştirak etmək fakültəmizin də payına düşüb. Belə ki, həm Dövlət Proqramında, həm də Milli Fəaliyyət Planı və Proqramında aşağıdakı tədbirlərin hər bir zaman mütəmadi icrası nəzərdə tutulub:

- insan hüquqları və azadlıqları problemləri üzrə ixtisaslaşan mütəxəssislərin hazırlanması;
- ali məktəblər üçün insan hüquq və azadlıqlarına dair mövzuların öyrənilməsi üçün tədris yükünün müəyyən edilməsi, tədris vəsaitlərinin nəşri, tədris proqramlarının təkmilləşdirilməsi;
- insan hüquqları ilə bağlı dərs vəsaitlərinin və ədəbiyyatların hazırlanması və nəşri;
- insan hüquqlarına dair tələbələr üçün olimpiadaların, müsabiqələrin keçirilməsi, insan hüquqlarının tətbiqinə dair bədii sərgilərin, festivalların və digər tədbirlərin keçirilməsi;
- insan hüquqları üzrə ixtisaslaşan dövlət qurumlarının əməkdaşlarının mütəmadi olaraq bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi prosesinə cəlb edilməsi və mənimsənilmiş müsbət təcrübənin yayılması;
- hüquqi maarifləndirmə məqsədilə müxtəlif çap məhsullarının – kitabların, bukletlərin, bülletenlərin hazırlanması və əhali arasında yayılması işinin təşkili.

Hüquq fakültəsi elm və təhsil siyasətimizdə vacib sayılan yuxarıdakı istiqamətlər üzrə daimi və dinamik şəkildə fəaliyyət göstərir. Fakültəmiz insan hüquqları üzrə təhsil siyasətində 2011-ci ildə qəbul edilmiş Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Təhsil və Təlim Bəyannaməsinin aşağıdakı müddəasını rəhbər tutur ki, bu müddəa Ulu Öndərin təhsil siyasətinin hər zaman əsas qayəsini təşkil edib: "İnsan hüquqları üzrə təhsil və təlim insan hüquqlarının universallığı, bölünməzliyi və qarşılıqlı asılılığı prinsiplərinə uyğun olaraq, hər kəs üçün insan hüquqlarına və əsas azadlıqlara hörmət və onlara riayət edilməsinin təbliği üçün vacibdir".

İnsan hüquqları üzrə təhsil insan hüquqlarının hər bir cəmiyyətdə reallığa çevrilməsinin hamının ortaq məsuliyyəti olduğu anlayışını formalaşdırdığı üçün davamlı təkmilləşdirilməli olan tədris prosesini əhatə etməlidir. Bu baxımdan Hüquqşünaslıq ixtisasında insan hüquqları sahəsində biliklərin geniş tədris edilməsinə, bu sahədə ixtisaslaşmış kadrların hazırlanmasına tələbat günbəgün artır. Hüquq fakültəsində artıq illərdir ki, bakalavriat səviyyəsində "İnsan hüquqları" fənni tədris olunur. Həmçinin magistratura səviyyəsində Azərbaycan və ingilis dillərində tədrisi aparılan "İnsan hüquqları" ixtisaslaşmasında bu sahədə kadr hazırlığı həyata keçirilir.

Dövlət başçısının insan hüquqları yönümlü siyasətində əsas tədbirlərdən biri də insan hüquqları üzrə ixtisaslaşan dövlət qurumlarının əməkdaşlarının mütəmadi olaraq bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi prosesinə cəlb edilməsi və mənimsənilmiş müsbət təcrübənin yayılmasından ibarətdir. Fakültəmiz professor-müəllim heyətinin, tələbələrimizin insan hüquqları üzrə beynəlxalq təcrübənin öyrənilməsi prosesinə cəlb edilməsi və mənimsənilmiş müsbət təcrübənin yayılması məqsədilə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. BMT ilə, xüsusilə də BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı ilə sıx əməkdaşlığımız mövcuddur. Bu əməkdaşlığın nəticəsidir ki, ötən ilin dekabrın 9-da Ali Komissarlıqla birgə Beynəlxalq insan hüquqları gününə həsr edilmiş beynəlxalq konfrans keçirdik. İlk dəfə olaraq fakültəmizin tələbələri tərəfindən insan hüquqları gününə həsr edilmiş videoçarx hazırlandı və nümayiş etdirildi. Bununla yanaşı, ilk dəfə olaraq Hüquq fakültəsinin tələbələri, o cümlədən fakültənin SABAH qrupunun tələbələri tərəfindən hazırlanmış insan hüquqları mövzusunda sosial teatr tamaşası təqdim olundu. Fakültənin 15 tələbəsinin iştirakı ilə təqdim edilən tamaşada insan hüquqları sahəsində ayrıseçkiliyin yolverilməzliyi, qadın hüquqları, gender bərabərliyi ilə bağlı maarifləndirici xarakterli məsələlər işıqlandırılıb. Tamaşanın əsas süjet xəttinin mahiyyəti ondan ibarətdir ki, bir qız uşağının təhsildən məqsədli şəkildə məhrum edilməsi ilk növbədə onun iradəsinə qarşı edilən qanunsuz aktdır və bu qanunsuz hərəkətlər şəxsin cəmiyyətdə mövqe tutmasına maneçilik törədir.

Bundan başqa, fakültənin tarixində ilk dəfə olaraq "Tələbə tərəfindən tələbə üçün" layihəsinin icrasına başlanılıb. Layihənin əsas məqsədi təlimçi tələbənin öz biliklərini tələbə yoldaşları ilə bölüşmək və qarşılıqlı şəkildə öyrənməkdir. Bu günədək keçirilmiş təlimlərin mövzularına diqqət yetirsək, hamısı insan hüquqlarına həsr olunub: "Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə giriş"; "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və Azərbaycan Respublikasının Konstitusiyası: müqayisəli təhlil"; "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları" və s.

UNESCO-nun təhsilin gələcəyi təşəbbüsü üzrə hesabatlarında qeyd olunur ki, ali təhsil əxlaqı təşviq etməli, tələbələrə öz vətəndaşlıq və ətraf mühitlə bağlı məsuliyyətlərini daha yaxşı dərk edən bacarıqlı vətəndaşlar olmağa kömək etməlidir. Ali təhsil həm də sosial-mədəni baxımdan aktual olmalıdır. Mədəni müxtəlifliyin qiymətləndirilməsi, insan hüquqlarının müdafiəsinə sadiqlik və bütün formalarda ayrıseçkiliyə dözümsüzlük əsas təhsil məqsədləri olmalıdır. Bu cür dəyərləri və prinsipləri inkişaf etdirən ali təhsil mühazirə zalları və virtual məkanların hüdudlarından kənara çıxır və daim inkişaf edir. Belə istiqamətləri rəhbər tutan Hüquq fakültəsinin əsas missiyalarından biri də vətənpərvər, hüquqi dövlət quruculuğuna və hüquqi islahatlara töhfə verə biləcək mütəxəssislərin hazırlanmasından ibarətdir. Bu baxımdan rəqəmsal cəmiyyətin formalaşdığı bir dövrdə tələbələrin dünyada və respublikamızda baş verən hadisələrlə bağlı düzgün məlumatlandırılması fakültənin bilik mübadiləsində aktiv iştirakını təmin edir.

Bununla belə, insan hüquqları sahəsində biliklərin, tədrisin daim yenilənməsinə və inkişafına ciddi ehtiyac duyulur. Bu məqsədlə fakültəmizdə hər il insan hüquqları sahəsində yeni dərslik, dərs vəsaiti və proqramların yazılmasına dəstək göstərilir, mövcud vəsaitlər daim yenilənir. Bununla bağlı BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı ilə "İnsan hüquqları" magistratura ixtisaslaşması üçün yeni tədris planı və proqramının hazırlanması xüsusi qeyd olunmalıdır. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının dəstəyi ilə Hüquq fakültəsinin ekspertləri tərəfindən "İnsan hüquqları" magistratura ixtisaslaşmasının tədris planı tamamilə yenidən işlənib, Azərbaycan və ingilis dillərində vahid bir külliyyat şəklində çap edilib. Ekspertlər yeni tədris proqramının hazırlanması zamanı insan hüquqları üzrə təhsil sahəsində beynəlxalq təcrübəni geniş tətbiq ediblər.

İnsan hüquqları və azadlıqları problemləri üzrə ixtisaslaşan mütəxəssislərin hazırlanması məqsədilə Hüquq fakültəsi savadlı və ixtisaslaşmış kadrların yetişdirilməsində beynəlxalq təşkilatların təcrübi biliklərii ilə yanaşı, dövlət orqanlarının bu sahədə fəaliyyəti üzrə məlumatların da tələbələrə çatdırılmasını başlıca məqsəd kimi seçib. Bu sahədə hüquqşünas kadrların təcrübi biliklərinin inkişaf etdirilməsi ilə bağlı Ədliyyə Nazirliyinin Hüquq fakültəsinə göstərdiyi dəstək xüsusilə qeyd edilməlidir. Hüquq fakültəsi ilə Ədliyyə Nazirliyi arasında razılaşmaya əsasən, hüquqşünas tələbələr müntəzəm olaraq Nazirliyin tabeliyində fəaliyyət göstərən qurumların, o cümlədən məhkəmələrin işi ilə yerində tanış olur, ədliyyə orqanları işçilərinin praktiki mühazirələrini dinləyirlər. Bundan əlavə, Ədliyyə Nazirliyi ilə razılıq əsasında "Heydər Əliyev İli" çərçivəsində əməkdaşlıq davam etdirilir. Bütün bunlar məhz hüquq elminin və təhsilinin müasir standartlara uyğun təşkilinə xidmət edərək, təcrübi biliklərin əldə olunmasına, gənclərimizin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsinə xidmət göstərir.

Belə təcrübənin müxtəlif dövlət orqanları ilə əməkdaşlıq çərçivəsində həyata keçirilməsi planlaşdırılır. Bütün bunlar insan hüquqları yönümlü hüquqşünas kadrların yetişdirilməsinə xidmət edir.

Artıq üçüncü ildir ki, Azərbaycan xalqı Qurtuluş Gününü fərqli əhval-ruhiyyə ilə qeyd edir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad etdi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Ulu Öndər Heydər Əliyevin arzuları illər sonra reallaşdı, Prezident İlham Əliyev ata vəsiyyətini uğurla yerinə yetirdi. Bu gün qədim yurdumuz Qarabağda üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi və zənginləşdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər də bu uğurların məntiqi nəticəsidir. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə azad edilmiş torpaqlarda infrastruktur layihələrinin təməlini qoyur və artıq icra edilmiş layihələrin açılışlarını edirlər. Əminik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha uca zirvələr fəth ediləcək, bir vaxtlar düşmənin yerlə-yeksan etdiyi Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcəkdir.

***Zaur Əliyev,***
*Hüquq fakültəsinin dekanı,*
*hüquq üzrə fəlsəfə doktoru, dosent*

# BDU-nun həmtəşkilatçılığı ilə "Heydər Əliyev və insan hüquqları: Qurtuluşdan başlanan inkişaf yolu" adlı Beynəlxalq elmi-praktiki konfrans



***İyunun 19-da Hüquq fakültəsinin Ədliyyə Nazirliyi ilə birgə Fəaliyyət Planına uyğun olaraq "Heydər Əliyev İli" çərçivəsində "Heydər Əliyev və insan hüquqları: Qurtuluşdan başlanan inkişaf yolu" mövzusunda Beynəlxalq elmi-praktiki konfrans keçirilib.***

Hüquq fakültəsinin dekanı Zaur Əliyevin və Ədliyyə Nazirliyi İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitovanın moderatorluğu ilə keçirilən konfransda Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, millət vəkilləri, hakimlər, ədliyyə orqanlarının əməkdaşları, vətəndaş cəmiyyəti nümayəndələri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Milli Məclisin İnsan hüquqları Komitəsinin sədri Zahid Oruc, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Ədliyyə Nazirliyi İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitova Ümummilli Lider Heydər Əliyevin insan hüquq və azadlıqlarının səmərəli və etibarlı müdafiəsi, cəmiyyətdə hüquq düşüncəsinin, hüquq mədəniyyətinin yüksəldilməsi, şəffaflıq, insan hüquqlarına hörmət prinsiplərinin təmin edilməsi, vətəndaş cəmiyyətinin bərqərar olması sahəsində müstəsna xidmətlərindən söz açıblar.

Daha sonra Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasına həsr edilən film nümayiş olunub.

"İnsan hüquqları elminin və tədrisinin inkişafında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri" mövzusunda çıxış edən Hüquq fakültəsinin dekanı Zaur Əliyev Azərbaycan xalqının taleyində dönüş nöqtəsi yaradan və tariximizə qızıl hərflərlə yazılan 15 İyun – Milli Qurtuluş Gününün müstəsna tarixi əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Azərbaycanın çətin vaxtında xilaskarlıq missiyasını və məsuliyyətini öz üzərinə götürən Ümummilli Lider Heydər Əliyev ölkəni ictimai-siyasi böhrandan qurtarıb, vətəndaş həmrəyliyinin və sabitliyin təmin olunmasına, demokratik, hüquqi və dünyəvi dövlət yaradılmasına nail olub. İnsan hüquqları elminin formalaşmasının insan hüquqları sahəsində qanunvericilik bazasının yaradılması və inkişafından xeyli dərəcədə asılı olduğunu qeyd edən Zaur Əliyev Azərbaycan Respublikasının insan hüquqlarının müdafiəsi mexanizmlərini nəzərdə tutan beynəlxalq konvensiyaları ratifikasiya etməsinin, həmin konvensiyalar əsasında müasir milli-hüquqi normaların işlənib hazırlanması və təkmilləşdirilməsinin Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifələrdən biri olduğunu bildirib. O diqqətə çatdırıb ki, Hüquq fakültəsinin bakalavriat səviyyəsində "İnsan hüquqları" fənni tədris olunur və magistratura səviyyəsində müvafiq ixtisaslaşma üzrə kadr hazırlığı aparılır. Dekan Hüquq fakültəsinin insan hüquqları sahəsində maarifləndirici, yeniliklərin təbliğinə yönələn, müxtəlif əməkdaşlıqlara açıq, vətənpərvər, hüquqi dövlət quruculuğuna və hüquqi islahatlara töhfə verə biləcək mütəxəssislərin hazırlanmasından ibarət fəaliyyətindən geniş söhbət açıb.

Konfransda Türkiyənin Balıkesir Universitetinin rektoru, hüquq elmləri doktoru, professor Yücel Oğurlu, Ankara Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor Muharrem Özen, həmin fakültənin professoru, hüquq elmləri doktoru Cavid Abdullazadə, Kazan Federal Universitetinin Beynəlxalq hüquq və Avropa hüququ kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Adel Abdullin, Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi, hüquq elmləri doktoru, professor Lətif Hüseynov, İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının professoru, hüquq elmləri doktoru Əmir Əliyev məruzələrlə çıxış ediblər.

Beynəlxalq elmi-praktiki konfrans müzakirələrlə öz işini yekunlaşdırıb.

# BDU-da “Code Academy” layihəsinin məzun günü

***İyunun 12-də BDU-nun “Code For Future” layihəsi çərçivəsində icra olunan “Code Academy” layihəsinin növbəti məzun günü keçirilib.***

Məzunları təbrik edən rektor Elçin Babayev bildirib ki, BDU-nun 5 əsas prioritetindən biri kompüter elmləri və riyaziyyatdır. Bunun bir neçə səbəbi var. BDU-nun çox güclü riyaziyyat məktəbi, tətbiqi riyaziyyat və kibernetika istiqamətində böyük uğurları var. Digər tərəfdən kompüter elmlərinin öyrənilməsi günün tələbidir. Lahiyədə iştirak məzunlara əmək bazarının tələblərinə uyğun mütəxəssis kimi yetişmək, uğurlu karyera qurmaq imkanı verəcək.



“Code Academy”nin təsisçisi və direktoru Ülvi Aslanov Elm və Təhsil, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərinin dəstək verdiyi layihənin bir neçə universitetdə icra olunduğunu bldirib. O qeyd edib ki, indiyədək BDU-da 276 tələbə layihədən məzun olub. Onlardan 40-ı şəbəkə administratorluğu, 189-u proqramlaşdırma, 40-ı sistem administratorluğu, 7-si oyun proqramları üzrə biliklərə yiyələnib. 2022-2023-cü tədris ilinin payız semestrində isə 100 tələbə layihə üzrə məzun olub.

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin sədr müavini Kamran Rəsulov isə məzunları təbrik edib, layihənin üstünlüklərindən danışıb. O, informasiya texnologiyaları sahəsində bilik və bacarıqların artırılmasının əmək bazarının tələbi olduğunu qeyd edib.

Daha sonra layihə çərçivəsində tədrisi başa vuran BDU tələbələrinin hazırladıqları layihələrin təqdimatı keçirilib.

Tədbirin sonunda “Code Academy” layihəsinin məzunu olan BDU tələbələrinə sertifikatlar təqdim olunub.

# “Pillə 2” festivalında iştirak edən tələbələr sertifikata layiq görülüblər

***İyunun 12-də BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin “Yarımçıq qalmış” tamaşası “Pillə 2” tələbə tamaşaları festivalında iştirak edib.*** Mədəniyyət-yaradıcılıq Mərkəzinin əməkdaşı Vahid Orucoğlunun quruluşçu rejissorluğu, BDU tələbələrinin iştirakı ilə səhnələşdirilən tamaşa peşəkar teatrşünaslar, tənqidçilərin iştirakı və münsifliyi ilə qiymətləndirilib. Tamaşanı ifa edən tələbələr festivalda iştiraklarına görə sertifikatlarla təltif olunublar.




Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev “Pillə 2” tələbə tamaşaları festivalında iştirak etmiş tələbələrlə görüşüb, onlara yaradıcılıq uğurları arzulayıb.

# Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə IELTS imtahanında uğur qazanmış BDU tələbələrinin təltifolunma mərasimi

***İyunun 13-də BDU-nun Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə IELTS imtahanında uğur qazanmış tələbələrin təltifolunma mərasimi keçirilib.***

Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Təhsilin İnkişafı Fondunun yaradılması ali təhsil müəssisələrinin inkişafı üçün böyük fürsətdir. Ali məktəblər Fondun yaratdığı bütün imkanlardan yararlanmalıdır. Rektor bildirib ki, xarici dillərin, o cümlədən elm, inkişaf dili sayılan ingilis dilinin öyrənilməsi günün tələbidir. Bunu nəzərə alaraq BDU-da dövlət-özəl əməkdaşlığı formatında “You will speak” Dil Mərkəzi yaradılıb.

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) İdarə Heyətinin sədri Ülkər Səttarova imtahanda uğur qazanan tələbələri təbrik edib, onlara uğurlar arzulayıb. O qeyd edib ki, elmi-pedaqoji heyətin və təhsilalanların dil biliklərinin yüksək olması ali təhsil müəssisələrinin illik fəaliyyət planlarının tərkib hissəsidir. Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov isə əvvəlcə rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri və həyata keçirdiyi layihələrlə bağlı təqdimat edib. O bildirib ki, universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanların IELTS imtahanına təşviq edilməsini hədəfləyən layihənin icrasına 2022-ci ilin oktyabr ayından başlanılıb. Təhsilin İnkişafı Fondu və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin birgə icra etdiyi layihənin tərəfdaşları Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetidir. Artıq Bakı Slavyan Universiteti də layihəyə qoşulub. Layihə çərçivəsində IELTS imtahanında iştirak edən və yüksək bal toplayan 300-dək akademik heyət üzvü və tələbənin bu imtahan üzrə ödənişləri Təhsilin İnkişafı Fondu tərəfindən qarşılanır.



Sonda BDU-nun IELTS imtahanında uğurlu nəticə göstərən 18 tələbəsinə müvafiq sertifikatlar təqdim olunub.

# BDU İspaniyanın Donostia Beynəlxalq Fizika Mərkəzi ilə əməkdaşlıq müqaviləsi imzalayıb

*Müqavilə çərçivəsində həmçinin birgə konfransların, sərgilərin, seminarların, simpoziumların, qısa kursların, təlimlərin təşkili və qarşılıqlı maraq doğuran digər sahələr üzrə əməkdaşlıq edilməsi də nəzərdə tutulur.*

***Bakı Dövlət Universiteti dünyanın nüfuzlu elm və təhsil müəssisələri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə, qarşılıqlı elm, təhsil mübadiləsinin təmin edilməsinə, beynəlxalq əlaqələrin inkişaf etdirilməsinə daim xüsusi diqqət yetirir.*** Bu istiqamət Universitetin İnkişaf Startegiyasında prioritet məsələ hesab olunur. Bu məqsədlə də BDU ilə İspaniyanın Donostia Beynəlxalq Fizika Mərkəzi arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Əməkdaşlıq müqaviləsində magistratura və doktorantura səviyyələrində tələbə, tədqiqatçı, akademik və inzibati heyətin mübadiləsi, onlar üçün birgə təlim proqramlarının təşkili, qarşılıqlı maraq doğuran mövzular üzrə ortaq elmi layihə və tədqiqatların həyata keçirilməsi, elmi jurnallarda birgə nəşrlərin verilməsi kimi mühim məsələlər öz əksini tapıb. Həyata keçirilən əməkdaşlığın əsas məqsədi BDU-nun müvafiq Mərkəzlə əlaqələrinin təkmilləşdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Donostia Beynəlxalq Fizika Mərkəzinin Prezidenti Pedro Miguel Echenique Landiribar imzalayıb. Müqavilə çərçivəsində həmçinin birgə konfransların, sərgilərin, seminarların, simpoziumların, qısa kursların, təlimlərin təşkili və qarşılıqlı maraq doğuran digər sahələr üzrə əməkdaşlıq edilməsi də nəzərdə tutulur. Bu isə öz növbəsində gələcəkdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsini təmin edəcək.

Məlumat üçün bildiririk ki, 2000-ci ildə fəaliyyətə başlayan Donostia Beynəlxalq Fizika Mərkəzi fizika və əlaqəli fənlər üzrə qabaqcıl tədqiqatları inkişaf etdirən tədqiqat mərkəzidir. Mərkəzdə əsasən kondensasiya olunmuş maddə fizikası, materialşünaslıq, nanoelm, kimyəvi fizika, kosmologiya, hissəciklər fizikası və digər mövzular istiqamətində tədqiqatlar aparılır. Tədqiqat istiqamətinə kimya və bioelmlər üzrə tədqiqatlar da daxildir. Mərkəz inkişaf etmiş cəmiyyətin qabaqcıl elmi tədqiqatlara ehtiyacı olması fikri əsasında yaradılıb. Hər il Mərkəzin tədqiqatçıları tərəfindən 400-dən çox elmi əsər nəşr olunur və müxtəlif sayda qrant layihələri icra edilir.

# BDU-nun həmtəşkilatçılığı ilə Beynəlxalq Arbitraj Yay Məktəbi başlayıb



***İyunun 26-da BDU, Türkiyənin İbn Haldun Universiteti və Türk Arbitraj Akademiyası tərəfindən Türk Dövlətləri Təşkilatının (TDT) dəstəyi ilə Beynəlxalq Arbitraj Yay Məktəbi öz işinə başlayıb.***

Açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Azərbaycanda hüquqi dövlət quruculuğu və müasir hüquq sisteminin yaradılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Hüquq sahəsində islahatlar, dünya hüquq sisteminə inteqrasiya baxımından ölkəmizdə önəmli tədbirlər həyata keçirilib. Rektor beynəlxalq arbitraj sahəsində təhsil və kadr hazırlığı məsələsinin əhəmiyyətinə toxunub: "Arbitraj hüququ mübahisələrin daha səmərəli həlli üçün əsas addımlardan biridir. Beynəlxalq Arbitraj Yay Məktəbi bu istiqamətdə mövcud olan problemlərin həlli üçün mühüm addım olacaq. Türk Dövlətləri Təşkilatı və akademik dairələrin birgə əməkdaşlığı ilə beynəlxalq hüquq, beynəlxalq kommersiya hüququ, beynəlxalq arbitraj hüququ, mülki və prosessual hüquq sahələri üzrə gənc hüquqşünas kadrların hazırlanması çox faydalıdır".

Türkiyənin İbn Haldun Universitetinin prorektoru Ali Yeşilırmak layihənin iştirakçılarına uğurlar arzulayıb, təşkilatçılara minnətdarlığını bildirib. O qeyd edib ki, Beynəlxalq Arbitraj Yay Məktəbinin məqsədi sözügedən sahədə gənc hüquqşünaslar hazırlamaq, o cümlədən ayrı-ayrı şəxslər, biznes strukturları və təşkilatların iştirak etdiyi Alternativ Mübahisələrin Həlli Platforması yaratmaq üçün türk dövlətlərindən olan alimləri və praktik hüquqşünasları bir araya gətirməkdir.

TDT-nin baş katibinin müavini Sədi Cəfərov türkdilli dövlətlərin müxtəlif sahələr üzrə əməkdaşlığını yüksək qiymətləndirib və bu əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Sədi Cəfərov TDT-nin akademik əməkdaşlıq, türk dövlətləri universitetləri arasında əlaqələrin genişləndirilməsi, mübadilə proqramlarının yaradılması, elmi tədqiqatların aparılması və məhkəmə-hüquq sahəsində mütəxəssislərin hazırlanması məsələlərinə sadiqliyini də qeyd edib. Azərbaycan Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilov tədbirin əhəmiyyətinə toxunaraq, BDU-nun rəhbərliyi ilə türkdilli dövlətlərin arbitr üzrə təlim-tədris mərkəzinin yaradılmasını təklif edib.

O qeyd edib ki, belə proqramların həyata keçirilməsi mübahisələrin həllinin alternativ üsullarının inkişafına töhfə verə, bu da məhkəmə orqanlarının işini azalda bilər.

Milli Məclisin üzvləri Nizami Səfərov, Ramin Məmmədov, BDU-nun Hüquq fakültəsinin dekanı Zaur Əliyev çıxışlarında beynəlxalq kommersiya və investisiya mübahisələrinin həllində arbitrajın mühüm rolunu vurğulayıb, Beynəlxalq Arbitraj Yay Məktəbinin keçirilməsini türkdilli dövlətlər arasında əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi kimi qiymətləndiriblər.

Beynəlxalq Arbitraj Yay Məktəbi iyunun 30-dək davam edəcək.

# Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşaviri ilə görüş



***İyunun 8-də BDU-nun rektoru Elçin Babayev Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşaviri Nurullah Feyzi Yazıcı ilə görüşüb.***

Rektor Elçin Babayev qonağa BDU-nun əcnəbi tələbələrinin arasında Türkiyədən olan tələbələrin üstünlük təşkil etdiyini və onların daim qayğı ilə əhatə olunduğunu bildirib. O qeyd edib ki, türkiyəli tələbələr daha çox sosiologiya, psixologiya və hüquq ixtisaslarını seçirlər. Rektor BDU-da təhsil alan türkiyəli tələbələrin sayının daha da artırılması üçün birlikdə çalışmağın zəruriliyini vurğulayıb.

Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşaviri Nurullah Feyzi Yazıcı isə qeyd edib ki, təhsil Türkiyə-Azərbaycan qardaşlığında önəmli nöqtədir. O, Azərbaycanın ali məktəblərində təhsil alan türkiyəli tələbələrlə vaxtaşırı görüşlər keçirildiyini, bu tələbələrə dair elektron portalın yaradılacağını bildirib.

Görüşdə BDU-nun türkiyəli tələbələrinin təhsilləri, maraq doğuran digər məsələlərlə bağlı müzakirələr aparılıb.

# BDU tələbələri Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalında qalib gəliblər



***İyunun 25-də Ali təhsil müəssisələrinin tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalının nəticələri açıqlanıb.*** BDU-nun tələbələri müsabiqə-festivalda bədii qiraət, xor ifaçılığı və milli rəqs janrları üzrə təmsil olunublar.

Şərqşünaslıq fakültəsinin III kurs tələbəsi Eltac Abbasov, İnformasiya və sənəd menecmenti fakültəsinin III kurs tələbəsi Nilufər Qəhrəmanova bədii qiraət üzrə, BDU-nun Qazax filialı, Pedaqoji fakültəsinin tələbəsi Bəsti Alıcanova xalq mahnısı ifaçılığı üzrə I, qızlardan və oğlanlardan ibarət rəqs kollektivi milli rəqs üzrə II, xor kollektivi isə III yerə layiq görülüb. Qaliblər diplom və hədiyyələrlə təltif olunublar.

Bundan əlavə, Universitetin bir qrup tələbəsi müsabiqə-festivalda fəal iştirakına görə diplomlarla təltif ediliblər.

BDU-nun Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev festival-müsabiqədə qalib olan tələbələri təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

# Qurban bayramınız mübarək!

***İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Qurban bayramı Azərbaycanda dövlət səviyyəsində bayram edilir.***

Dini qurban kəsmə mərasimi İslamdan əvvəl də mövcud olub, lakin o vaxtlar günahdan təmizlənmək və sair üçün edilib. Hicrinin (Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə köçməsi) ikinci ilindən sonra qurban kəsmənin İslam aləmində başqa məqsədləri və səbəbləri yaranıb. Belə ki, dini qurban kəsmə İslam aləmində böyük ruh yüksəkliyi, dindarlıq, xeyriyyəçilik, başqalarına kömək etmək kimi əlamətlərə yiyələnib. Dini qurban kəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranıb.

İnsanları humanizmə, mərhəmətə və vəhdətə dəvət edən Qurban bayramında müsəlmanlar Haqq yolunda, nəcib amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, Ulu Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinin möhtəşəm mərhələsini təşkil edən İslam sivilizasiyası xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynayıb, mütərəqqi İslam adət-ənənələri və mənəvi-əxlaqi dəyərləri Azərbaycanda hər zaman uca tutulub. İslam dünyasının tarixi-mədəni mərkəzlərindən biri kimi Azərbaycan dünya mədəniyyətinə və elmi-fəlsəfi fikrinin inkişafına misilsiz töhfələr bəxş edib. Ölkəmizin rifahı, firavanlığı üçün edilən dualar, Qələbə ovqatı və Allaha şükranlıq hissi ilə kəsilən qurbanlar cəmiyyətimizdə milli-mənəvi həmrəylik ruhunu daha da gücləndirir.

# BDU-da fitopatogenlərlə mübarizə tədbirlərinə dair regional elmi-praktik konfrans keçirilir



***İyunun 16-da BDU, “SARA INVEST” Holdinq və “Agro” Bitki Klinikasının təşkilatçılığı ilə dövlət-özəl əməkdaşlığı çərçivəsində ””Tomato Brown rugose fruit” virusu” və onunla mübarizə tədbirləri” mövzusunda regional elmi-praktik konfrans keçirilir.***

Konfransın açılış mərasimində çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, dövlət-özəl tərəfdaşlığı çərçivəsində təşkil olunan regional konfransda fitopatogenlərlə mübarizə tədbirləri müzakirə edilir. Bu, təsadüfi deyil. Təbiət elmləri sahəsində BDU-nun 5 elmi prioritetindən biri məhz biologiya və həyat haqqında elmlərdir. BDU İsrailin, Türkiyənin aparıcı universitetləri ilə müxtəlif layihələr, proqramlar reallaşdırır: “Ərzaq təhlükəsizliyinin, eyni zamanda biotəhlükəsizliyin təmin edilməsində patogen mikroorqanizmlərlə mübarizə böyük əhəmiyyət daşıyır. Bitkiçilik məhsullarına təsir edən patogen mikroorqanizmlər insan sağlamlığı üçün bilavasitə təhlükə törətməsə də, hər il milyonlarla dollar dəyərində məhsulun məhvinə səbəb olur. Dünyada ərzaq təhlükəsizliyinin təmin edilməsində ciddi problemlər yaranıb və bir çox ölkə kənd təsərrüfatı məhsullarının tədarükündə bu faktorlardan asılı vəziyyətdədir. Ölkəmizdə kənd təsərrüfatı sahəsində aparılan məqsədyönlü və ciddi islahatlar nəticəsində bu sahə qeyri-neft sektorunun lokomotivinə çevrilməkdədir. Hər il müxtəlif növ zərərverici və patogen mikroorqanizmlərlə yoluxma hallarının qarşısı effektiv şəkildə alınarsa və ya bu tip hallarda düzgün laboratoriya diaqnozları qoyulub müvafiq mübarizə metodları tətbiq edilərsə, iqtisadi itkilərin miqdarı nəzərə çarpacaq səviyyədə azalar. “Tomato Rugose Brown Virus” və ya “Pomidorun Qonur Qırışıqlıq Virusu” dünyada geniş yayılıb və bu virusun səbəb olduğu iqtisadi zərər olduqca böyükdür. Elmi-praktik əsaslara dayanan həll metodlarının inkişaf etdirilməsində universitet və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarlıq strukturlarının işbirliyi vacibdir.

Rektor diqqətə çatdırıb ki, “universitet - özəl sektor işbirliyi”nin başlanğıcı sayılan bu konfrans böyük əhəmiyyət kəsb edir. Konfrans çərçivəsində bu sahədə qardaş Türkiyənin zəngin praktikası da müzakirə ediləcək. Bununla yanaşı, BDU və “SARA INVEST” birgə elmi-praktik layihələrin icrasına da başlayacaq.

“SARA INVEST” Holdinqin direktoru Baba Qurbanov isə qeyd edib ki, adıçəkilən virusla mübarizə bütün dünya ölkələri üçün həlli vacib olan problemlərdən biridir. Pomidor və bibər bitkilərini yoluxduran virus ərazi radiusundakı bütün birkiləri məhv edir. Ona görə də ölkələrin istehsal və ixrac potensialını kəskin şəkildə aşağı salan virusla bağlı araşdırmalar aparmaq, onun təsirinin minimuma endirilməsi gərəkdir. O, konfransın problemdən çıxış yollarının tapılmasına töhfə verəcəyinə əminliyini bildirib.

BDU rektorunun strateji inkişaf və əlaqələr üzrə müşaviri Xalid Bayramlı diqqətə çatdırıb ki, Azərbaycan universitetləri arasında ilk dəfə olaraq Bakı Dövlət Universiteti özəl sektorla birlikdə layihələr icra etməyə başlayıb: “İsrail, Türkiyə, Özbəkistan, Avropanın əksər ölkələrində geniş yayılmış bu virus olduqca dayanıqlıdır, onunla mübarizə çətindir. BDU-nun elmi potensialından istifadə etməklə problemin risk qiymətləndirməsini aparmaq və həlli yollarını araşdırmaq nəzərdə tutulur”.

“Toxumçuluq və Tingçilik” MMC-nin direktoru Xəqani Məmmədov da ərzaq təhlükəsizliyi baxımından dünya ölkələrinin qarşısında duran əsas vəzifənin məhsul istehsalını artırmaq və mövcud problemləri aradan qaldırmaq olduğunu vurğulayıb. O, konfransda aparılan müzakirələrin qida təhlükəsizliyi sahəsində problemlərin həllinə yardım edəcəyini bildirib.

# BDU-da gənclərdə depressiyanın aradan qaldırılması yolları araşdırılıb

***İyunun 22-də BDU-da Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “Gənclərdə depressiyanın yaranması səbəbləri və aradan qaldırılması yolları” adlı elmi-praktik seminar keçirilib.***



Sosial elmlər və psixologiya fakultəsinin Psixologiya kafedrasının müdiri, dosent Səxavət Əliyeva bildirib ki, elmi-praktik seminar Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Tədbirlər Planı çərçivəsində keçirilir: “Ulu Öndər Heydər Əliyev millətin inkişafını təhsildə görürdü. Məhz bunun üçün dövlət təhsil siyasətini prioritet məsələ kimi daim diqqət mərkəzində saxlayıb”.

Seminarın məruzəçisi - BDU-nun Psixologiya kafedrasının baş müəllimi, doktorantı, psixologiya üzrə fəlsəfə doktoru Kamilə Kazımova qeyd edib ki, depressiya insanın mənfi əhval-ruhiyyədə olması, həyəcan, halsızlıq, yuxusuzluq, psixomotor ləngimə, narahatlıq, həmçinin müxtəlif somatik simptom və şikayətlərlə müşayiət olunan, təkrar yaşanma ehtimalı olan, insanı həyatdan zövq almaqdan məhrum edən, özünəqəsd və s. halların yaşandığı psixi pozuntudur. Yüngül, orta və ağır variantlarda təsadüf edilən pozuntu zamanı xəstələr əsas etibarilə əhval-ruhiyyənin davamlı aşağı enməsi, maraq və zövqün yoxluğu, enerjilərinin olduqca zəifləməsindən şikayət edirlər. Ümumi yorğunluğun və fəallığın xeyli enməsi xəstənin az hərəkətli və ya hərəkətsiz vəziyyətdə qalmasına səbəb olur. Bu vəziyyət özünüqiymətləndirmənin aşağı düşməsi, həyatın mənasını itirməklə müşayiət olunur.

Psixi və Davranış Pozuntularının Beynəlxalq Təsnifatına (XBT-10) uyğun şəkildə depressiv pozuntu diaqnozunun qoyulması üçün əlamətlər 2 həftədən az olmayaraq müşahidə edilməlidir.

Azərbaycan Psixiatriya Assosiasiyasının prezidenti, professor Nadir İsmayılov, BDU-nun Psixologiya kafedrasının professoru Elnarə Şəfiyeva, Fəlsəfə kafedrasının müdiri, dosent Kəmalə Pənahova, Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov, Mərkəzin Doktorantura şöbəsinin müdiri, dosent Mirnamik Bəşirov, Fəlsəfə tarixi və mədəniyyənşünaslıq kafedrasının müəllimi Sevinc Mislixanova elmi-praktik seminarın əhəmiyyətindən söz açaraq, depressiyanın genetik, bioloji, psixososial, sosial, psixoloji və s. aspektlərini təhlil ediblər.

Eyni zamanda gənclərdə depressiyanı aradan qaldırmaq üçün istifadə olunan psixoterapiya metodları müzakirə edilib. Həmçinin Hamilton və Bek testlərindən istifadə edilərək tələbələrdə depressiyanın praktik təyini aparılıb.

Sonda seminar iştirakçıları sertifikatla təltif olunub.

# 26 iyun – Azərbaycan Respublikasının Silahli Qüvvələri Günü qeyd olunub

***İyunun 25-də Tarix fakültəsinin təşkilatçılığı ilə 26 iyun – Azərbaycan Respublikasının Silahli Qüvvələri Gününə həsr olunmuş elmi tədbir keçirilib.***

Tarix fakültəsinin dekanı İbrahim Zeynalov bildirib ki, Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Əlahiddə Azərbaycan Korpusunun, yəni Milli Ordunun yarandığı gün – 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olunub. Həmin gündən hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir. Azərbaycana birinci rəhbərliyi dövründə milli hərbi təhsil sisteminin əsasını qoyan Ümummilli Lider Heydər Əliyev onun daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzalayıb.

Ulu Öndərin 20 avqust 2001-ci il tarixli Fərmanı əsasında isə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılıb. Hazırda Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu, təkmilləşdirilməsi və inkişafı prosesi Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz onun dövründə həyata keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində Azərbaycan Ordusu daha da təkmilləşərək yüksək səviyyəyə çatdırılıb. İbrahim Zeynalov qeyd edib ki, 44 günlük Vətən müharibəsində Azərbaycan ordusu Ali Baş Komandanın rəhbərliyi ilə düşmən üzərində tarixi zəfər çaldı, işğal olunmuş ərazilərimizi düşməndən azad etdi. Büdcə vəsaiti ildənilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin hərbi imkanları daha da genişlənir. Fəxrimiz olan Ordumuz hazırda dünyanın 50 ən güclü ordusu sırasında yer alır.

Tarix fakültəsinin dekan müavini Kəmalə Nəcəfovanın moderatorluğu ilə keçirilən tədbirdə Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, akademik Yaqub Mahmudov, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri, dosent Mehman Abdullayev, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri, dosent Azad Rzayev, Avropa və Amerika ölkələrinin yeni və müsir tarixi kafedrasının doktorantı Cavid Məmmədli çıxış ediblər. Məruzəçilər Azərbaycanda milli ordu quruculuğunun mərhələləri barədə sənəd və mənbələri diqqətə çatdırıb, Qarabağın 30 illik işğaldan azad olunmasının, 44 günlük Vətən müharibəsində əldə olunan qələbənin tarixi əhəmiyyətini vurğulayıblar.



# Elm və təhsil naziri BDU-nun Qazax filialında olub

***İyunun 19-da Elm və təhsil naziri Emin Əmrullayev BDU-nun Qazax filialında olub.***

Nazir filialın binası, auditoriya və laboratoriyaları, maddi-texniki bazası ilə yaxından tanış olub, professor-müəllim heyəti ilə görüşüb. Filialın direktoru Arif Rüstəmov elm və təhsil nazirinə filialda tədris prosesi, təhsilin keyfiyyətinin daha da yüksəldilməsi sahəsində görülən işlər barədə məlumat verib, qarşıya qoyulan vəzifələrdən danışıb. Elm və təhsil naziri Emin Əmrullayev BDU-nun Qazax filialının kollektivinə öz tövsiyələrini verib, uğurlar arzulayıb.

# BDU-nun Qazax filialında Məzun Günü

***İyunun 19-da BDU-nun Qazax filialında Məzun Günü keçirilib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Torpaqlarımızın müdafiəsi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Filialın direktoru Arif Rüstəmov əlamətdar gün münasibətilə məzunları, onların valideynlərini təbrik edib, ölkəmizdə təhsilə göstərilən dövlət qayğısından, filialın əldə etdiyi nailiyyətlərdən danışıb. Filialı bakalavriat səviyyəsi üzrə 371, magistratura səviyyəsi üzrə isə 8 tələbənin bitirdiyini qeyd edən Arif Rüstəmov məzunların gələcəkdə bacarıqlı mütəxəssis kimi ölkəmizin tərəqqisində, cəmiyyətin inkişafında mühüm rol oynayacaqlarına əmin olduğunu bildirib.

Filialın Tədris və elmi işlər üzrə direktor müavini Məmməd Yusifov, Pedaqoji fakültənin dekanı Hamlet İlyasov çıxışlarında məzunlara uğurlar arzulayıblar. Tələbələrdən Mədinə Mustafayeva məzunlar adından danışaraq onlara bəslənən ümidləri öz əməli işləri ilə doğruldacaqlarını söyləyib, onlara yaradılan yüksək şəraitə görə minnətdarlığını bildirib.




Tədbirdə filialın ictimai-mədəni, kütləvi tədbirlərində, eləcə də təhsildə fərqlənən bir qrup məzuna mükafatlar verilib.

Məzun Günü konsert proqramı ilə davam edib.

# "Nigar Rəfibəyli-110" adlı kitab sərgisi



***Bakı Dövlət Universitetinin Elmi Kitabxanası Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, tərcüməçi, Əməkdar mədəniyyət işçisi, Xalq şairi Nigar Rəfibəylinin anadan olmasının 110 illiyinə həsr edilən kitab sərgisi təşkil edib. Sərgidə şairənin Azərbaycan və xarici dillərdə nəşr edilmiş kitabları, tərcümə və tərtib etdiyi, redaktoru olduğu kitablar, sözlərinə yazılmış mahnıların yer aldığı nəşrlər, haqqında yazılan kitablar nümayiş olunub.***

Nümayiş olunan kitablar sırasında onun hələ həyatdaykən işıq üzü görən "Dənizin səsi gəlir" (1964), "Ana səsi" (1969) və s. kimi şerlər kitabları da yer alıb.

# Görkəmli alim Şirməmməd Hüseynovun anım günüdür



***24 İyun Görkəmli alim, Əməkdar jurnalist, mətbuat tariximizin və Xalq Cümhuriyyətinin ən mahir araşdırıcısı Şirməmməd Hüseynovun vəfatının ildönümüdür.***

Şirməmməd Hüseynov 1924-cü il dekabrın 17-də Şəki şəhərində anadan olub. 1940-cı ildə Şəki şəhəri Mirzə Fətəli Axundov adına 2 saylı orta məktəbi bitirib, 1940-1942-ci illərdə Şəki ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində oxuyub. O, 1945-1950-ci illərdə indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Jurnalistika şöbəsində ali təhsil alıb.

Universiteti fərqlənmə diplomu ilə başa vuran Şirməmməd Hüseynov Mixail Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsinin aspiranturasına daxil olub, 1954-cü ildə təhsilini tamamlayıb dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi alıb.

1954-cü ildən indiki Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Jurnalistika kafedrasında elmi-pedaqoji fəaliyyətə başlayan Şirməmməd Hüseynov həyatını universitetə bağlayaraq ömrünün sonunadək burada baş müəllim, dosent, 1962-1969-cu illərdə Filologiya fakültəsinin dekan müavini, 1970-1976-cı illərdə Jurnalistika fakültəsinin dekanı, 1976-1988-ci illərdə Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri olub, 1988-ci ildən ömrünün sonunadək həmin kafedranın professoru vəzifəsində çalışıb.

Elmi fəaliyyətini, əsasən, Azərbaycan jurnalistikası tarixinin öyrənilməsinə həsr edən Şirməmməd Hüseynov mətbuatşünaslığa dair 30-dan çox kitab və monoqrafiyanın, 800-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifidir.

Şirməmməd Hüseynov bir alim və pedaqoq kimi Azərbaycan klassik jurnalistikasının görkəmli simaları Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əhməd Ağaoğlu, Cəlil Məmmədquluzadə irsini hərtərəfli araşdıraraq yetişməkdə olan nəslə çatdırılmasında təqdirəlayiq xidmətlər göstərib. Alimin Azərbaycan Xalq Cümhuriyyəti qurucularının fəaliyyətinə dair araşdırmalarının Azərbaycan tarixinin öyrənilməsində xüsusi əhəmiyyəti var. Şirməmməd Hüseynov Azərbaycan klassik publisistika məktəbi ənənələrini müstəqillik dövründə yeni bir məktəb səviyyəsinə yüksəldib. Yüzlərlə jurnalistin ustadı kimi şöhrət qazanmış alimin elmi kadrların yetişdirilməsində də böyük əməyi olub. Azərbaycançılıq ideologiyasının təbliğində, gənc nəsil jurnalistlərin milli təəssübkeşlik, vətəndaşlıq ləyaqəti, obyektivlik ruhunda tərbiyə olunmasında Şirməmməd Hüseynovun xidmətləri əvəzsizdir. Bu gün də onun tələbələri Bakı Dövlət Universitetində, eləcə də digər elm və təhsil müəssisələrində, kütləvi informasiya vasitələrində öz müəllimlərinin yolunu uğurla davam etdirirlər.

Şirməmməd Hüseynovun Azərbaycan jurnalistikasının inkişafında uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilib. O, bir sıra mükafatlara layiq görülüb, Azərbaycan Respublikasının "Şərəf" ordeni ilə təltif olunub.

Görkəmli alim 2019-cu il iyunun 24-də ömrünün 95-ci ilində vəfat edib.

Unudulmaz pedaqoq və publisist, əsl ziyalı Şirməmməd Ağaməmməd oğlu Hüseynovun əziz xatirəsi Azətbaycan xalqının qəlbində daim yaşayacaq.

# BDU və Qazax Milli Tədqiqat Texniki Universiteti arasında ikili diplom proqramının məzunları dissertasiya işlərini müdafiə ediblər

***Bakı Dövlət Universiteti və Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti (QMTTU) arasında Neft kimyası ixtisaslaşması üzrə ikili diplom proqramında təhsil alan magistrantların dissertasiya işlərinin müdafiəsi keçirilib.***

İkili diplom proqramı üzrə təhsil alan Zülfiyə Hüseynli "Texniki pambıq yağı biodizel istehsalında xammal kimi", Yerasıl Kamşıger "İon mayelərin avtomobil əlavələri kimi tətbiqi" mövzularında yerinə yetirdikləri dissertasiyalarını müdafiə ediblər.

Kimya fakültəsinin dekanı Fuad Kərimli, müdafiə komissiyanın sədrləri İbrahim Məmmədov və Aygül Amitova iki universitet arasında qarşılıqlı əməkdaşlıq əlaqələrindən bəhs edib, magistrantlara uğurlar arzulayıblar.

Çıxışlardan sonra magistrantlar komissiya üzvlərinin suallarını cavablandırıblar.

Qeyd edək ki, BDU və QMTTU arasında Neft kimyası ixtisaslaşması üzrə ikili diplom proqramının məqsədi neft-qaz kimyası, yanacaqlar, təbii karbohidrogen ehtiyatları əsasında texniki əhəmiyyətli maddələrin alınması sahəsində hərtərəfli biliyi olan, müasir düşüncəyə sahib, problemlərin həllini bilən, eləcə də onları real olaraq tətbiq etmək bacarığına malik mütəxəssislərin hazırlanmasıdır. İkili diplom layihəsində təhsil alanlar neft kimyası, kimya mühəndisliyi elmlərinin fundamental və tətbiqi metodlarından istifadə edərək öz peşə fəaliyyətlərində praktik problemləri effektiv təsnif və həll etmək bacarıqları qazanacaqlar.

# “Gənc istedadlar” liseyinin Sinqapurda təhsil alan məzunu: “Dərman sintezlərini süni intellektə daşıyaraq Nobel mükafatı almaq istəyirəm”

*Sadə, səmimi, ötkəm görkəmi var. İddiaları da öz yerində. Ən böyük iddiası isə ölkəmizə Kimya üzrə Nobel mükafatı qazandırmaqdır. Bu, bizim Nəriman Şirinlidir. BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin ötənilki məzunu, hazırda Sinqapur Milli Universitetində (National University of Singapore – NUS) Kimya mühəndisliyi ixtisası üzrə təhsil alan, beynəlxalq və yerli olimpiadalar qalibi Nəriman Şirinli...*

Bakıya gəlişində ilk işlərindən biri doğma universitetə və liseyə baş çəkmək olub.

Gəlin, onunla yaxından tanış olaq.

***- Nəriman, özün barədə bir qədər ətraflı məlumat verə bilərsənmi?***

- V sinifdən “Gənc istedadlar” liseyinə qəbul olunmuşam. VII sinifdən liseydə xüsusi kimya dərsləri almağa başladım və Respublika Fənn Olimpiadasına (RFO) qatılaraq, gümüş medalla təltif edildim. VIII sinifdə RFO-da gümüş medala layiq görüldüm. Sonra beynəlxalq olimpiadalara hazırlaşmağa başladım. IX sinifdə RFO-da qızıl, X sinifdə ilk beynəlxalq olimpiadamdan bürünc medal əldə etdim. X sinifdə Azərbaycanın da qatıldığı üç beynəlxalq olimpiadanın hər birində bürünc medal qazandım. XI sinifdə isə onların hər birindən gümüş medal aldım. X sinifdə RFO-dan qızıl, “Sabahın alimləri” Respublika Olimpiadasından qızıl, XI sinifdə də RFO-dan qızıl və “Birincilərin birincisi” nominasiyası üzrə mükafat qazandım.

***- Gələcək karyeranı necə təsəvvür edirdin? Sinqapurda təhsil almaq ideyası hardan meydana gəldi?***

- Uşaq vaxtlarımdan ən böyük hədəfim və anamın da istəyi mənim Nobel mükafatı almağımdı. Hətta bəzən anam zarafatla deyir ki, mənə Nobel alanda zəng edərsən (gülür). Onun üçün də düşündüm ki, xarici universitetlərə sənəd vermək bir qədər doğru olar. Bu yolla xarici universitetlərdəki Nobel mükafatçılarından da dərs ala bilərəm. X sinfin sonlarında xarici universitetlərə sənəd vermək üçün lazım olan sertifikatları əldə etməyə başladım. Bura SAT, IELTS və s. daxildir. IELTS-dən 8 bal aldıqdan sonra



universitetlərə qəbul üçün müraciət etdim. Sənəd verdiyim universitetlər arasında Amerika, Sinqapur və Türkiyə universitetləri vardı. Qəbul olduğum universitetlər Koreyanın KAIST, Türkiyənin Koç, Sinqapur Milli Universiteti oldu. Sənəd verdiyim universitetlər arasında ən gözləmədiyim NUS idi. Çünki NUS dünya universitetləri siyahısında kimya sahəsi üzrə üçüncüdür. Xarici tələbələr üçün də çox limitli bir universitetdir. KAIST-ə getməyə hazırlaşdığım anda NUS-dan qəbul gəldi və mən orda təhsilimi davam etdirməyə qərar verdim.

***- Nədən Nobel mükafatı? Bu mükafat nə üçün qazanmaq istəyirsən?***

- Əslində əsas məqsədim hansısa elmi araşdırmamın və ya elmi məqaləmin olması deyil, bu elmi araşdırmamın insanlara töhfə verməsidir. Məncə, Kimya elminin önəmini “COVİD-19” pandemiyası dövründə peyvəndlərin hazırlanmasında bir daha anladıq. Mən də bu tip bir layihə hazırlamaq istəyirəm ki, insanlara töhfə versin. Bunun nəticəsində Nobel mükafatı almaq istəyirəm.

***- Sinqapur təhsili necədir? Hansı özəllikləri var?***

- Hər bir xarici universitetdə olduğu kimi, Sinqapur universitetində də təhsildə müəyyən fərqliliklər var. Məsələn, dərslərin keçirilmə stili fərqlidir. Elə dərslər var ki, 30 nəfər, elə dərslər də var ki, 5-6 min nəfər götürülür. Bu da bir çox mühazirələrin onlayn formada keçirilməsinə səbəb olur. Müəllimlər, professorlar bu dərsləri ya “Zoom” platforması üzərindən keçir, ya da video formatda mövzunu izah edirlər. Canlı dərslər isə 30 nəfərlik qruplar şəklində professor və ya professor köməkçisi tərəfindən keçirilir. Bir çox dərslərdə qayıb limiti məsələsi də yoxdur. Bu, mənim üçün çox əlverişlidir. Çünki mənim olimpiadalara hazırlıq mərhələlərindən qalma bir vərdişim var. Mövzuları özüm internetdən öyrənirəm. Mən istəyirəm ki, müəllimin yönləndirməsi ilə deyil, özüm öyrənim. Bilmirəm nə qədər düzdü, amma məncə, müəllimin yönləndirməsi ilə bir şeyi öyrəndikdə o zaman biliyin ancaq o müəllimin bildikləri qədər olur. Qiymətləndirmə sistemində də fərqliliklər var. Orada olimpiadada olduğu kimi, medal, rəqabət sistemidi. Yəni, mən 90 faiz yığsam da, 95 faiz yığan adam çox olduqda mən yenə “B” alıram. Əslində mənim üçün Sinqapur təhsilini maraqlı edən cəhətlərdən biri də budu. Bakalavr olmağıma baxmayaraq, araşdırmalara qatıla, bir çox laboratoriya işlərinə qoşulub, hətta elmi məqalələr də çıxara bilirəm.

***- Hazırda hansı sahədə araşdırmalar aparırsan?***

- Hazırda material mühəndisliyi, ümumi fiberlər sahəsində araşdırmalar aparıram. İndi öyrənmə mərhələsindəyəm. Bu araşdırmaya qoşulmaqda əsas məqsədim yeni bilikləri əldə etməkdir. Çünki mənə tədris edilən bir çox biliklər olimpiadalara hazırlıq dövründə öyrəndiklərimlə eynilik təşkil edir. Təzə şeylər öyrənmək istəyirəm. Buna görə də araşdırmalara qoşuluram. Bu araşdırmalar bakalavr səviyyəsini deyil, doktorantura səviyyəsini əhatə edir.

***- Hansı qlobal problemin həllini istəyərdin?***

- Dərman sintezlərini süni intellektə daşımaq istəyirəm. Bu sahədə hazırda işlər gedir. Amma mən bunu daha da inkişaf etdirərək, bu tip məsələlər üzərində çalışmaq istəyərəm.

***- Kimyanın daha çox hansı sahəsinə marağın var?***

- Hazırda kimya mühəndisliyi oxuduğumdan indidən dəqiq nəsə söyləmək düzgün olmaz. Amma olimpiadalara hazırlıq mərhələsindən üzvi kimyaya daha çox marağım var. Buna da səbəb üzvi kimyanın həyatın əsasını təşkil etməsidir.

***- Təqaüd əsasında təhsil alırsan?***

- Dövlət proqramına əsasən təhsil alıram. Dövlət proqramı mənim illik yaşayış xərclərimi, universitetin xərclərini ödəyir.

***- Azərbaycandan gedən 17 yaşlı bir gənc üçün Sinqapurda yaşamaq çətindir?***

- Mənim üçün əsas çətinlik ünsiyyət qurmaq oldu. Çünki Sinqapurda məktəb və universitet arasında politeknik dediyimiz bir qurum var ki, onlar artıq orda ixtisasları üzrə oxuyurlar. Mənim bütün qrup yoldaşlarım NUS-a gəlməzdən əvvəl bir-birilərini tanıyırdılar. Mən gəldikdə artıq 180 nəfər kimya mühəndisliyi oxuyan dostlar arasında tək idim. Yalnız bu – onlarla ünsiyyət yaratmaq mənim üçün bir qədər çətin oldu. Həmçinin ölkədəki yeməklərə adaptasiya olmaq çətin idi. Amma ümumi olaraq Sinqapurdan çox razıyam, xüsusilə ölkənin təbiəti, təhsili məni ora bağlayır.

***- Azərbaycanlılar varmı orada? Ümumiyyətlə, daha çox kimlərlə ünsiyyət yaradırsan?***

- Oxuduğum universitetdə məndən savayı yalnız bir azərbaycanlı təhsil alır. Ümumiyyətlə, NUS 2022-ci ilə qədər xarici tələbələr üçün ayrılan kvotada azərbaycanlılara yer verməyib. Ötən il mən və doktoranturadan bir tələbə qəbul olduq. Ən çox onunla əlaqədə idim. Sinqapurun Nanyang Texniki Universitetində də əvvəlcədən dövlət proqramı əsasında 10-dan artıq tələbə oxuyur. Hazırda onlar Sinqapurda işləyirlər. Bundan əlavə, mənim qəbul olduğum il Nanyang Texniki Universitetinə 2 nəfər azərbaycanlı getdi, onlarla da əlaqəm var. Hazırda isə oxuduğum universitetə xalam qızı və Riyaziyyat olimpiadasının qalibi olan tanışım da qəbul alıb. Məncə, gələn il daha da maraqlı olacaq.

***- Sinqapurda asudə vaxtını necə keçirirsən?***

- Düzü, asudə vaxtım çox qalmır. Vaxtım olanda dərslərdən əlavə proqramlaşdırma öyrənməyə çalışıram. Bir də türk doktorantlarla, ən çox da Uğur adlı bir dostumla şahmat, stolüstü tennis oynamağı sevirəm.

***- Mətbəx problemlərini necə həll edirsən?***

- Hamının bildiyi kimi, Asiyada yemək məsələsi çətindir. Amma bir müddət keçəndən sonra öyrəşməyə başlayırsan.

***- “Gənc istedadlar” liseyindəki sinif yoldaşlarınla əlaqən var?***

- Mən bir az uzaqda olduğum üçün əlaqə nisbətən zəifdi. Amma təzəlikcə iki dəfə onlarla görüşmüşəm. Liseydəki “Son zəng”ə də getmişdik. Nə qədər uzaqda olsam da, onlarla əlaqəm hər zaman davam edəcək.

***- Həyatının sonrakı mərhələsini, Sinqapur təhsilindən sonranı necə düşünürsən?***

- Universiteti bitirdikdən sonra iş həyatına atılmağı düşünmürəm. Akademiyada qalmaq istəyirəm. Amma bu, çox uzun perioddur, indidən nəsə demək, proqnoz söyləmək çox tezdi. Qabaqda üç il var.

***Nurlan Cəbrayılzadə***
*Jurnalistika fakültəsinin*
*I kurs tələbəsi*

# Şərqi Zəngəzur iqtisadi rayonunda tədqiqat aparılıb

***İyunun 13-də Ekologiya və torpaqşünaslıq fakültəsinin Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva və kafedra əməkdaşları Aytən Səmədova, Nailə Cəfərova “Qarabağ ərazisində çayların çirklənmə səviyyəsinin tədqiqi və aradan qaldırılması yollarının işlənməsi” qrant layihəsi çərçivəsində Şərqi Zəngəzur iqtisadi rayonunda tədqiqat apardılar.***

Tədqiqat ərazisində Oxçuçay üzrə müxtəlif məntəqələrdən (Sayıflı, Bürünü və Cahangirbəyli), həmçinin Həkəri və Bəsitçaydan nümunələr götürülüb.

Aparılan analizlərin nəticələrinə əsasən, çay sularının zəhərli maddələrdən təmizlənməsi üçün ekoloji səmərəli təkliflərin irəli sürülməsi nəzərdə tutulub. Qeyd edək ki, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları, BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva və kafedra əməkdaşları Aytən Səmədova, Nailə Cəfərova “Qarabağ ərazisində çayların çirklənmə səviyyəsinin tədqiqi və aradan qaldırılması yollarının işlənməsi” layihəsi ilə Azərbaycan Elm Fondunun 2022-2024-cü illərdə “Qarabağ Azərbaycandır!” məqsədli qrant müsabiqəsinin qalibi olub. Layihənin məqsədi transsərhəd çaylarından su və dib çöküntüsü nümunələrinin götürülərək çirklənmə dərəcəsinin təyin edilməsidir.



# BDU-nun nəzdində “Gənc istedadlar” liseyində “Son zəng”

***İyunun 14-də BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "Son zəng" tədbiri keçirilib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Vətənimizin azadlığı uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.





Tədbirdə çıxış edən BDU-nun Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov məzunları və onların valideynlərini təbrik edib. Liseyin fəaliyyətindən söz açan prorektor bu illər ərzində qazanılan nailiyyətlərdən danışıb, lisey şagirdlərinin respublika və beynəlxalq olimpiadalarda, müxtəlif bilik və idman yarışlarında qazandıqları uğurlara toxunub. Liseyin direktoru Arif Bağırov da məzunları təbrik edib, onlara gələcək həyatlarında uğurlar arzulayıb. Direktor bildirib ki, bu il liseyi 65 məzun bitirir. Onlardan 9-u medala, 9-u isə fərqlənmə attestatına namizəddir. Həmçinin bu il "Sabahın alimləri" müsabiqəsində liseyin iki layihəsi I, bir layihəsi II, iki layihəsi III yerə layiq görülüb və bu nəticə ölkə üzrə birincidir. I yeri tutan iki layihə 4 şagirdlə ölkəmizi ABŞ-da keçirilən ISEF beynəlxalq müsabiqəsində təmsil edib. Liseyin şagirdləri Beynəlxalq “Kenquru” Riyaziyyat, Türkiyədə təşkil edilmiş Beynəlxalq Riyaziyyat, Lütfi-Zadə adına məntiq və Respublika fənn olimpiadalarında önəmli yerlər tutublar.

Liseyin məzunlarının sinif rəhbərləri Kifayət Şamilova, Samirə Babayeva, Mehparə İbadova, Yeganə Qarayeva və Məmməd Cabbarov çıxışlarında məzunları təbrik edib, onlara tezliklə tələbə adı qazanmağı və ölkəmizin adını daim ucaltmağı arzulayıblar. Tədbir şagirdlərin hazırladıqları ədəbi-bədii kompozisiya ilə davam edib.

# Tələbəmiz DAAD təqaüdünün hüquqşünaslıq ixtisası üzrə yeganə qalibi olub

***BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisasının IV kurs tələbəsi Rəhim Abasov DAAD beynəlxalq təqaüdünün hüquqşünaslıq ixtisası üzrə ölkədə yeganə qalibi olub.***

Rəhim Abasov təhsil aldığı müddətdə bir çox rəqabətli beynəlxalq və yerli təqaüd proqramlarının qalibi seçilib. 2022-ci ildə ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi “SUSI” təqaüd proqramının 1000-ə yaxın müraciətçi arasından qalibi olaraq Pensilvaniya ştatında, Shippensburg Universitetində mübadilə təhsili alıb. “Erasmus+TC”, “European Young Leaders Forum”da tam təqaüdlə iştirak edib.



Rəhim Abasov müxtəlif vaxtlarda beynəlxalq gənclər təşkilatı olan Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA Azərbaycan) vitse-prezidenti və prezidenti kimi fəaliyyət göstərib. ELSA-nın Maltada keçirilən 83-cü Beynəlxalq şura toplantısında və Vyanada keçirilən “Rule of Law” konfransında iştirak edib, Avropa Şərq Tərəfdaşlığı çərçivəsində Azərbaycanın “Gənc Avropa Səfiri” kimi fəaliyyət göstərib.

Rəhim Abasov “Paşa Holdinq” tərəfindən təşkil olunan “Əlaçı” təqaüdünün 3000 müraciətçi arasından qalibi olub. Təhsil aldığı müddət ərzində “SABAH” qrupları təqaüdü və dövlət təqaüdü alıb.

Hazırda Rəhim Abasov 600-ə yaxın müraciətçi arasından Almaniyanın DAAD təqaüdünün ölkədə hüquqşünaslıq ixtisası üzrə yeganə qalibidir və təhsilini Almaniyada tam təqaüdlə davam etdirəcək.

Məzunumuza gələcək fəaliyyətində uğurlar arzu edirik!

# BDU-da olimpiada hərəkatı genişlənir

***BDU-da olimpiada hərəkatı genişlənir. BDU Elmi Şurasının iyunun 25-də keçirilən iclasında bununla bağlı qərar qəbul edilib.***

Rektor Elçin Babayev qeyd edib ki, bu məqsədlə BDU-da ənənəvi olaraq müxtəlif səviyyəli olimpiadaların keçirilməsi, tələbə və şagirdlər arasında olimpiada və digər beynəlxalq müsabiqələrin təşviqi nəzərdə tutulub. Eyni zamanda tələbə və şagirdlərin olimpiadalara hazırlanması məqsədilə xüsusi məşğələlər keçiriləcək. Həmçinin olimpiadalara hazırlıq səviyyəsində məşğələ aparan müəllim və olimpiada rəhbərlərinin mükafatlandırılması da nəzərdə tutulub.

Elmi Şurada Respublika və beynəlxalq fənn olimpiada qaliblərinin müsabiqədənkənar BDU-nun nəzdində “Gənc istedadlar” liseyinə qəbul olunması da qərara alınıb.

## BDU rektoru “Gənc istedadlar” liseyinin məzunu, Sinqapur Milli Universitetində təhsil alan Nəriman Şirinli ilə görüşüb



***İyunun 19-da BDU-nun rektoru Elçin Babayev BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin məzunu, hazırda Sinqapur Milli Univeristetində (National University of Singapore - NUS) kimya mühəndisliyi ixtisası üzrə təhsil alan Nəriman Şirinli ilə görüşüb.***

Rektor qeyd edib ki, BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin məzunlarının demək olar hamısı dünyanın və ölkənin aparıcı universitetlərinə qəbul olurlar. Kimya üzrə yerli və beynəlxalq olimpiadaların qalibi Nəriman Şirinli də “Gənc istedadlar” liseyinin fəxri məzunlarındandır.

Rektor Nəriman Şirinlinin təhsili, tələbə həyatı, planları ilə maraqlanıb, ona uğurlar arzulayıb.

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin V siniflərinə qəbul imtahanı keçirilib



***İyunun 17-də BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin V siniflərinə qəbul imtahanı keçirilib.***

Liseyə qəbul olmaq üçün 1918 nəfər müraciət edib. Onlardan 1338 nəfəri Azərbaycan, 580 nəfəri rus bölməsi üzrədir.

2023/2024-cü tədris ilində BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin qəbul planı Azərbaycan bölməsi üzrə 75, rus bölməsi üzrə 25 nəfər təşkil edir.

İmtahan prosesi mütəşəkkil qaydada keçirilib, şagirdlərin öz bilik və bacarıqlarını göstərə bilmələri üçün bütün şərait yaradılıb. İmtahanın nəticələrinin yaxın günlərdə açıqlanacağı gözlənilir.

## Yay fəsli Azərbaycana iyunun 21-i saat 18:57:47-də daxil olacaq

***Yay fəsli (Yay Günəş duruşu) Azərbaycana iyunun 21-i saat 18:57:47-də daxil olacaq.*** Fizika fakültəsinin Astrofizika kafedrasından verilən məlumata görə, bu zaman Yerin fırlanma oxu Günəş şüalarının düşmə istiqaməti ilə ən kiçik bucaq əmələ gətirir və ya Günəş həmin gün günorta vaxtı üfüqdən maksimum hündürlükdə olur. Həmin gün ən uzun gündüz (gündüzün uzunluğu 15 saat 3 dəqiqə 24 saniyə) və ən qısa gecə (gecənin uzunluğu 8 saat 56 dəqiqə 36 saniyə) olur. Yay fəslinin uzunluğu 93 gün 15 saat 52 dəqiqə 11 saniyə olacaq.

# BDU-nun əcnəbi tələbəsi: “Azərbaycanda təhsil almaq çox sərfəlidir” - MÜSAHİBƏ

## Musa K.Ceesay beynəlxalq münasibətlər ixtisası üzrə 4-cü kursda ingilis dilində təhsil alır

***Xarici tələbələrlə söhbətləşməkdə əsas məqsəd, onların ölkəmizdəki təhsili necə dəyərləndirdiklərini, Azərbaycan barədə təəssüratlarını, əcnəbi gənclər üçün yaradılan şəraitdən məmnun qalıb-qalmadıqlarını, problemlərini öyrənməkdir.***

Saytımızın "Xarici tələbə" rubrikasındakı növbəti müsahibimiz Afrika qitəsinin ən kiçik ölkələrindən olan Qambiyadandır. Hazırda Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisası üzrə 4-cü kursda ingilis dilində təhsil alan 27 yaşlı Musa K.Ceesay ilə söhbəti təqdim edirik.

Arayış: Qambiya Respublikası uzunluğu 350 km, eni 80 km-ə qədər zolaq şəklində Atlantik okeanından qitənin daxilinə doğru uzanır. Qambiya eyniadlı çayın sahillərində yerləşir və üç tərəfdən Seneqal dövləti ilə əhatə olunub.

Sahəsi 10689 kv.km, əhalisi: 2 milyon 200 min nəfərə yaxındır. Ölkədə əsas danışıq dili ingilis, malenke, fula (fulani) dilləridir. Əhalinin 90%-i İslam dininə sitayiş edir. Ölkəni prezident idarə edir.

Qambiya 1965-ci ildə Böyük Britaniya müstəmləkəsindən azad olub. Paytaxt Bancul eyni adlı adada, Afrikanın qərb sahillərində ən mənzərəli yerdə, təbii və dərin buxtada salınmış şəhərdir. Müstəqillik Parkı şəhəri materiklə birləşdirir. Ölkədə iqlim şəraiti istidir (orta illik temperatur 26°C), yay (iyun-oktyabr) rütubətli və qış (noyabr-may) quraq keçir. Ərazisinin çox hissəsini savannalar tutur.

Ölkəyə əsas valyuta gətirən (təxminən 50%) və ixrac olunan yeganə bitki araxisdir. Əsas ərzaq bitkisi isə çəltik, darı, qarğıdalıdır. Sənaye əkinçilik məhsullarının emalı və toxuculuq ilə təmsil olunur.

Qambiya əhalisinin etnik tərkibi müxtəlifdir. Kənd əhalisinin çoxu işləmək üçün şəhərə gedir, burada onlar xidmət sahələrində və turizm sənayesində çalışır. Hər il ölkəyə 100 min nəfər turist gəlir. Bu sahə dövlət büdcəsinin ən gəlirli sahəsinə çevrilməklə yanaşı, kustar sənayenin də inkişafına imkan verir.

Qeyd edək ki, Musa Azərbaycan dilində sadə cümlələr qura bilir, müsahibə ingilis dilində alınıb.

***- Musa, təhsil üçün Azərbaycanı seçməyinin səbəbi nədir?***

- Deməli, mənim bura - Azərbaycana gəlib oxumağımın səbəblərini belə izah edə bilərəm:

Öncə Azərbaycanı seçməyimin səbəbi Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) nəzdində təqaüdümün olmasıdır. Bundan başqa, o vaxt mövcud olan imkanlar arasında Azərbaycanı seçdim, çünki mənim üçün tanış olmayan bir ölkə idi, əvvəllər buradan heç kimi tanımırdım, amma səyahət etmək, qalmaq və oxumaq istəyirdim.

BDU-nun Beynəlxalq münasibətlər fakültəsinin tələbəsi kimi inanıram ki, vətəndən uzaqda olan ölkədə təhsil almaq, yaşamaq və öyrənmək insanın biliyinə əlavə dəyər qatacaq. Ona görə də mən Azərbaycanı son beş ildə çox şey öyrənə biləcəyim bir ölkə kimi görürdüm.

Əcnəbi tələbə kimi Azərbaycanda olmağımın digər səbəbi təkcə Azərbaycanın deyil, bütün regionun mədəniyyətini, dillərini, təhsil sistemini, coğrafi mövqeyini və geosiyasi vəziyyəti, hətta illər əvvəl Qafqaz regionunda və ətrafında baş verən siyasi hadisələri öyrənməkdir. Ümid edirəm ki, burada təhsil almaq beynəlxalq münasibətlər ixtisasının tələbəsi kimi gələcəkdə mənim üçün böyük üstünlük ola bilər.

***- Maraqlıdır, xaricdə təhsil almağa necə qərar verdin?***

- Mən həmişə daha çox bilik əldə etmək üçün bakalavr, magistr və PhD təhsili almaq istəyirdim. Yalnız eyni ölkədə təhsil almaq məncə, darıxdırıcıdır və müxtəlif ölkələrdə təhsil almaqla müqayisədə məhdud bilik verir.

***- Bakıda tək yaşayırsan?***

- Xeyr, bir otaq yoldaşım var. O da mənimlə eyni ölkədən – Qambiyadandır. Ümumi olaraq, yaxşı yola gedirik. Bəzən sözümüz çəp gəlir, amma mən mübahisə etməyi sevmirəm. Beləliklə, çox yaxşı anlaşırıq.

***- Burada sosial həyatın necədir?***

- Sosial həyatım normaldır. Universitetdə, şəhərdə və yaşadığım yataqxanada dostlarım var. Dostlarım arasında azərbaycanlılar da mövcuddur.

***- Boş vaxtlarında nə edirsən, işləyirsənmi?***

- Xeyr, işləmirəm. Boş vaxtımı telefonumla sosial mediada, ailəm və dostlarımla yazışmaq və ya söhbət etməklə, ya da bəzən film izləməklə keçirirəm. Yaradıcılıqdan, xüsusən də şeirdən zövq alıram, özüm də şeirlər yazıram. Yemək üçün restoranlara getməyi sevmədiyim üçün çox vaxt evdə özüm xörək hazırlayıram. Bu da sevdiyim məşğuliyyətlərdən biridir. Azərbaycan mətbəxi çox ləzzətlidir, xüsusən də kabab və plov əvəzolunmazdır, bəzən dönər də yeyirəm.

***- Bəs xərclərini necə qarşılayırsan?***

- Evimizin kirayə pulunu və gündəlik ev xərclərini dostlumla ortaq bölürük.

Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi tərəfindən mənə aylıq 800 manat təqaüd verilir. Tələbə həyatı məlumunuzdur... Bəzən xərclərim çox olanda ailəm də kömək göstərir.

***- Azərbaycan dilini hansı səviyyədə bilirsən?***

- Mənim Azərbaycan dilindən elə də çox biliyim yoxdur, yalnız gündəlik danışıqdan bir neçə cümlə öyrənə bilmişəm.

***- Ailə və dostlarını Azərbaycana dəvət etmək haqda düşünmüsən?***

- Ailəm üçün çox darıxıram və onlarla vaxt keçirməyi sevirəm. Xeyr, mən onları heç vaxt buraya dəvət etməmişəm, amma hər iyulda onlara baş çəkirəm və sentyabra qədər onlarla oluram.

***- Azərbaycanın təhsil sistemi haqda nə deyə bilərsən? Səncə, Azərbaycanda təhsil almağın üstünlükləri nələrdir?***

- Azərbaycanın təhsil sistemi haqda müsbət fikir söyləyə bilərəm. Ən çox seminarlardan və təqdimatlardan zövq alıram. Mənim mövzular haqqında anlayışım burada özünü göstərir.

Xarici ölkədə təhsil almaq çox sərfəlidir, Azərbaycan da bu baxımdan istisna deyil. Mən burada çoxlu yeni şeylər öyrənirəm. Yeni tədris və öyrənmə üsulları ilə bacarıqların artması karyeramı qurmaqda və müxtəlif yollarla biliklərimi genişləndirməkdə mənə kömək edir. Mən yüksək səslə və fəxrlə deyə bilərəm ki, Azərbaycanın təhsil sistemindən çox razıyam.

***- Azərbaycanın hansı bölgələrində olmusan?***

- Əslində müxtəlif bölgələrdə olmuşam, amma təəssüf ki, hamısının adını xatırlaya bilmirəm. 2018-ci ildən bu günə kimi, adətən fevral ayında ilk semestr imtahanlarımdan sonra səyahət etmək fürsətindən yararlanıram. Getdiyim yerlərdən bir neçəsini sadalaya bilərəm: İsmayıllı, Qəbələ, Şahdağ və s.

***- Bura gələndən sonra maraqlı hadisələrlə qarşılaşmısan?***

- 2019-cu ildə universitet bağlandıqdan sonra baş verən bir hadisəni xatırlayıram: qrup yoldaşlarımla evimə gedirdim ki, sərxoş bir kişi mənə tərəf gəldi. Qrup yoldaşlarım dərhal məni mühasirəyə aldılar, məni qorudular. Dostlarımın bu qədər qayğıkeş, məni sevən və mənə dəstək olduğunu bildiyim üçün bu, emosional bir hadisə idi. Mən o anı heç vaxt unutmayacağam və həmişə yanımda olan dostlarımı əzizləyəcəyəm, xatırlayacağam və qiymətləndirməyə davam edəcəyəm.

***- Yəqin ki, tələbə həyatında hansısa çətinliklərlə də üzləşirsən...***

- 6 noyabr 2018-ci ildə gəldiyim gündən indiyə kimi tələbə olaraq üzləşdiyim çətinliklərin əksəriyyəti akademik problemlərlə bağlı deyil, cəmiyyətlə bağlı problemlərdir. Gülüş, məsxərə, lağ etmək obyekti olmaq..., hətta uşaqların yaxınlaşarkən baxıb gülmələri məni üzür. Bu hallar ləyaqət və yüksək əxlaqa malik bir insan kimi məni sıxır. Belə vəziyyətlərin öhdəsindən gəlmək olduqca çətindir. Hətta qeyd etdiyim bu xoşagəlməz hallar bəzən yaxşı dostlarım tərəfindən dəvət olunduğum görüşlərə də qatılmağıma mane olur. Bunları dediyimə görə üzr istəyirəm, lakin suallarınıza verdiyim cavablarda faktiki və səmimi olmalıyam.

***- Xaricdə təhsil alan bir çox tələbələr oxuduqları ölkələrdə qalmağı seçir və geri qayıtmaq istəmirlər. Universitet təhsilini başa vurduqdan sonra geri qayıtmaq istəyirsən?***

- Bəli, proqramım bitdikdən sonra evimə qayıtmaq istəyirəm. Mənim burada təhsili davam etdirmək, daimi yaşamaq və ya ailə həyatı qurmaq planım yoxdur. Bilik, təcrübə və bacarıqlarımda kifayət qədər təkmilləşdiyimi düşünürəm. Mən vətənimə qayıdıb ölkəmin və regionun inkişafına öz töhfəmi vermək istəyirəm.

Eyni zamanda, məni ailəm gözləyir, 2 ay öncə evlənmişəm. İslama görə, harada olursan ol, evlənmək məqbuldur. Demək istədiyim odur ki, ayrı bir ölkədə olsan da, yenə də evlənə bilərsən. Əsas odur ki, həm kişi, həm də qadının ailələri bir araya gəlsin, insanlar nikah şahidi olsunlar, dua etsinlər, bu qədər...

Geri döndüyüm zaman gözəl bir toy etməyi düşünürəm.

*Mənbə: azedu.az*
*Tarix: 19.05.2023*

# Əməkdar mədəniyyət işçisi, şair Qəşəm Nəcəfzadə ilə görüş

***İnformasiya və sənəd menecmenti fakültəsinin təşkilatçılığı ilə Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Televiziyasının “Mədəniyyət” kanalının əməkdaşı, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, tanınmış şair Qəşəm Nəcəfzadə ilə görüş keçirilib.***

BDU-nun redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan tədbir barədə məlumat verərək bildirib ki, bu cür görüşlərin keçirilməsi tələbələrin vətənpərvərlik ruhunun, mütaliə mədəniyyətinin, estetik zövqünün formalaşmasında və



eləcə də onların sosial fəallıqlarının artmasında mühüm rol oynayır. Knyaz Aslan tanınmış şair Qəşəm Nəcəfzadənin çağdaş ədəbiyyatımızdakı rolundan bəhs edib. Bildirib ki, Qəşəm Nəcəfzadə ədəbiyyatımızda istedadlı şair, publisist kimi imzasını təsdiqləyib: “Qəşəm Nəcəfzadə, eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin Uşaq ədəbiyyatı bölməsinin rəhbəri və “Azərbaycan” jurnalının poeziya şöbəsinin müdiri kimi də səmərəli fəaliyyət göstərir. O, həmçinin Azərbaycan ədəbiyyatını beynəlxalq poeziya festivallarında layiqincə təmsil edir”.

Diskussiya şəraitində keçirilən görüşdə müəllifin və tələbələrin ifasında şeirlər səsləndirilib, qonağa çoxsaylı suallar ünvanlanıb. Görüşün təşkilinə görə BDU rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirən Qəşəm Nəcəfzadə vurğulayıb ki, o qalib ölkənin yazarı olduğu üçün bu günlər xüsusilə qürurludur: “Vaxtilə torpaqlarımız işğal olunanda ağrı-acı dolu şeirlər yazmışdım. Şükürlər olsun ki, Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı, cənab Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Qarabağımız işğaldan azad olundu və mən gedib Şuşada qələbə şeirimi oxudum”.

İştirakçıların böyük marağına səbəb olan görüşün sonunda şair Qəşəm Nəcəfzadə imzalı kitablarını tələbələrə hədiyyə edib.

# İnformasiya və sənəd menecmenti fakültəsində özbəkistanlı alimlərlə görüş



***İyunun 9-da Özbəkistanın Səmərqənd Dövlət Universiteti, Termez Dövlət Universiteti, Özbəkistan Jurnalistika və Kütləvi Kommunikasiyalar Universitetinin bir qrup professor-müəllim heyəti İnformasiya və sənəd menecmenti fakültəsində olublar.***

Görüş zamanı fakültə rəhbərliyi tərəfindən dost və qardaş ölkədən gələn qonaqlara ölkəmizdəki təhsil mühiti, Azərbaycanın ilk universiteti olan BDU-nun tarixi və bu günü, eyni zamanda İnformasiya və sənəd menecmenti fakültəsi barədə geniş məlumat verilib.

Görüşdə çıxış edən Səmərqənd Dövlət Universitetinin professoru Əzimidin Nəsirov "Heydər Əliyev İli"ndə Azərbaycanda və Ümummilli Liderin məzunu olduğu BDU-da olmaqlarından məmnunluğunu ifadə edib. O, eyni soya, ortaq tarixə və mədəniyyətə malik xalqlarımızın dostluq və qardaşlıq münasibətlərindən bəhs edərək özbəklərin hər zaman Azərbaycan ədəbiyyatına, mədəniyyətinə böyük maraq göstərdiyini vurğulayıb. Qardaş ölkələr arasında əlaqələrin möhkəmlənməsində Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərini diqqətə çatdıran natiq hazırda Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin səyləri ilə dövlətlərarası münasibətlərin ən yüksək səviyyəyə çatdığını bildirib.

Son illər Azərbaycanla Özbəkistan arasında elmi əlaqələrin gücləndiyini, xüsusilə BDU ilə Özbəkistan universitetləri arasında əməkdaşlıq haqqında müqavilələrin imzalandığını qeyd edən professor Əzimidin Nəsirov birgə elmi konfransların təşkili, müəllim-tələbə mübadiləsi və bu kimi digər məsələlərlə bağlı əməkdaşlığı yüksək qiymətləndirib.

Sonra Termez Dövlət Universitetinin dosentləri Normat Yuldaşev, Maksuda Berdimuradova, Batır Akbotayev, Gözəl Hümmətova, Hüriyyət Mühiddinova, baş müəllim Yulduz Haitova və Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiyalar Universitetinin müəllimi Gülnaz Çurakulova məruzələrlə çıxış ediblər. Qonaqlar həmçinin fakültənin professor-müəllim heyəti və tələbələri ilə müxtəlif mövzularda diskussiya aparıblar.

# Azərbaycanın İsraildəki səfiri Muxtar Məmmədov Holon Texnologiya İnstitutunda təhsil alan BDU tələbələri ilə görüşüb



***İyunun 7-də Azərbaycanın İsraildəki səfiri Muxtar Məmmədov Holon Texnologiya İnstitutunda olub. Səfir burada kompüter elmləri üzrə ikili diplom proqramına əsasən təhsil alan BDU tələbələri ilə görüşüb.***

Səfir Muxtar Məmmədov İsrailin Holon Texnologiya İnstitutu ilə əməkdaşlığın son dərəcə uğurlu olduğunu vurğulayıb. Qeyd edib ki, bununla İsraillə Azərbaycan arasında geniş akademik əməkdaşlığa qapı açılıb.

Holon Texnologiya İnstitutunun prezidenti, professor Eduard Yakubov da Azərbaycan-İsrail əlaqələrinin yüksək səviyyədə olduğunu bildirib. O bildirib ki, bu əməkdaşlığa Holon Texnologiya İnstitutu da öz töhfəsini verir.

Səfir Muxtar Məmmədov BDU tələbələrinin təhsilləri ilə maraqlanıb, onlara uğurlar arzulayıb.

Qeyd edək ki, Holon Texnologiya İnstitutu ilə BDU arasında kompüter elmləri üzrə ikili diplom proqramı həyata keçirilir. Proqramın əsas məqsədi kompüter elmləri sahəsində effektiv alqoritmlərin qurulması və təhlilinin müasir metodlarını, texnologiyalarını real sənaye məsələlərinin həllində tətbiq etmək bacarığına malik mütəxəssislər hazırlamaqdır. İkili diplom proqramı üzrə 15 tələbə təhsil alır. Bu il aprelin 28-də proqramın ilk 5 məzununun buraxılış mərasimi keçirilib. Mərasimdə Holon Texnologiya İnstitutunun prezidenti, professor Eduard Yakubovun rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edib. Qalan 10 tələbə isə hazırda Holon Texnologiya İnstitutunda təhsilini davam etdirir.

BDU ilə Holon Texnologiya İnstitutu digər sahələrdə, o cümlədən müasir dövrün tələblərinə cavab verən SABAH magistr proqramının hazırlanmasında da əmək-

# BDU əməkdaşları "ERASMUS K171" layihəsi çərçivəsində Türkiyəyə səfər ediblər



***İyunun 13-də BDU-nun əməkdaşları "ERASMUS K171" layihəsi çərçivəsində Türkiyənin Adana şəhərində Alparslan Türkeş Elm və Texnologiya və Çukurova universitetlərində olublar.***

Alparslan Türkeş Elm və Texnologiya Universitetində "Erasmus həftəsi" çərçivəsində tədbirə qatılan digər ölkələrin nümayəndələri üçün BDU-nun fəaliyyətini əks etdirən videomaterial, təqdimatlar nümayiş etdirilib.

Alparslan Türkeş Elm və Texnologiya Universitetinin prorektoru Hasan Kurtaran və Universitetinin beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları ilə keçirilən görüşdə BDU ilə əməkdaşlıq əlaqələri müzakirə edilib.

"Erasmus həftəsi" çərçivəsində digər ali təhsil müəssisələri və elmi-tədqiqat mərkəzləri öz fəaliyyətləri, o cümlədən BDU ilə birgə fəaliyyət istiqamətləri, universitetlər arasında təbiət və humanitar elm sahələri üzrə beynəlxalq əməkdaşlıq, ortaq layihələrin işlənməsi üçün platformaların yaradılması imkanları barədə məlumat veriblər.

Səfər çərçivəsində Çukurova Universitetində keçirilən görüşdə universitetlər arasında əməkdaşlıq məsələləri, ikili diplom proqramları, "Erasmus" tələbə-müəllim mübadiləsi, əcnəbi tələbə qəbulu istiqamətində fikir mübadiləsi aparılıb. Eyni zamanda, Çukurova Texnoparkı əməkdaşları ilə müasir texnologiyalar və onların tətbiq imkanları müzakirə olunub. Teknoparkın rezidentləri olan bir sıra cari layihələr əyani olaraq BDU əməkdaşlarına nümayiş etdirilib. Çukurova Universitetin Mərkəzi tədqiqat laboratoriyasının elmi-texniki bazasına da səfər edilib. Bu tipli mərkəzlərin sənaye yönümlü layihələrə cəlb olunması barədə fikir mübadiləsi aparılıb.

# Baş prokurorun sədrliyi ilə Hüquq fakültəsi tələbələrinin buraxılış işlərinin müdafiəsi keçirilib

***İyunun 25-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə Hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasının tələbələrinin buraxılış işlərinin müdafiəsi keçirilib. Müdafiə prosesində BDU rektoru Elçin Babayev də iştirak edib.***

Hüquq fakültəsinin Yekun Dövlət Attestasiya Komissiyasının sədri Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri, hüquq üzrə fəlsəfə doktoru Kamran Əliyev, sədr müavini Hüquq fakültəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev, üzvləri isə kafedra müdirləri və Hüquq klinikasının rəhbəridir.

Baş prokuror Kamran Əliyevin Komissiyaya sədrlik etməsi hüquqşünas tələbələrdə prokurorluq orqanlarında çalışmağa həvəs yaratmaqla yanaşı, onların peşəkar hüquqşünas kimi formalaşmasında mühüm rol oynayır.

Müdafiə prosesi Baş prokurorluqda 5 gün ərzində keçirilib. Təqdim edilmiş buraxılış işlərinin əksəriyyəti yüksək qiymətləndirilib və tələbələrin müdafiəsi müvəffəqiyyətlə başa çatıb.

# BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin "Yarımçıq qalmış" tamaşası "Landau School"da nümayiş olunub

***İyunun 24-də BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin Aprel döyüşlərinin yeddinci ildönümünə həsr etdiyi "Yarımçıq qalmış" tamaşası "Landau School" Təhsil Kompleksində nümayiş olunub.***

Müəllim-şagird kollektivi tərəfindən maraqla qarşılanan tamaşanın aktyor heyəti, səs rejissoru və rejissoru təşəkkürnamə ilə təltif edilib.

Xatırladaq ki, "Yarımçıq qalmış" tamaşası Mədəniyyət-yaradıcılıq Mərkəzinin əməkdaşı Vahid Orucoğlunun quruluşçu rejissorluğu ilə Universitet tələbələrinin ifasında səhnələşdirilib. Tamaşa Yefim Abramov və Leyla Bəyimin Aprel şəhidlərinin xatirəsinə həsr olunmuş "Xəyalpərvər oğlanlar" əsəri əsasında səhnələşdirilib.

# Geodeziya və Kartoqrafiya Agentliyinin əməkdaşlarının BDU-da ustad dərsi

*İyunun 7-də Coğrafiya fakültəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geodeziya və Kartoqrafiya Agentliyinin İdarə Heyətinin sədrinin birinci müavini İlqar Əmirovun rəhbərliyi ilə mütəxəssislər qrupu tərəfindən ustad dərsi keçirilib.* Dərsin məqsədi Geomatika və geodeziya mühəndisliyi ixtisası üzrə kadr hazırlığı işinin müasir tələblərə uyğun səviyyədə aparılmasına dəstək olmaqdır.



İlqar Əmirov Geodeziya və Kartoqrafiya Agentliyinin strukturu, fəaliyyəti, yerinə yetirdiyi layihələr haqqında ümumi məlumat verib. Sonra Agentliyin geodeziyaçıları Cəlil Gəncəmaliyev və Rauf Əliheydərli, kartoqrafı Aqidə Əliyeva müasir geodeziya, geomatika və kartoqrafik işlərin yerinə yetirilmə texnologiyaları, peyk müşahidələri əsasında alınan təsvirlərdən istifadə etməklə ərazinin plan və xəritələrinin tərtib edilməsi, GPS peyk mövqetəyinetmə sistemləri, pilotsuz uçuş aparatları (PUA), dataların emal proqramları ilə bağlı məruzələr ediblər.

Ustad dərsin ikinci hissəsi praktiki təlimlərlə davam etdirilib. Bu mərhələdə Agenliyin mütəxəssisləri tərəfindən müasir geodeziya cihaz və alətlərinin iş prinsipləri, onlarla ölçmə qaydaları əyani şəkildə tələbələrə göstərilib. Eyni zamanda tələbələr tərəfindən bir sıra ölçmələr də həyata keçirilib.

# Malinin Faya və Azərbaycanın Acınohur arid seyrək meşələrinin ekoloji vəziyyəti müqayisəli təhlil olunub

*İyunun 14-də Ekologiya və torpaqşünaslıq fakültəsində növbəti elmi seminar keçirilib.* Seminarda Bioekologiya kafedrasının doktorantı Adama Togolanın "Mali Respublikası Faya meşələrinin və Azərbaycanın Acınohurarid seyrək meşələrinin dayanıqlı idarə olunması" mövzusunda məruzəsi dinlənilib.

Adama Togola çöl və kameral tədqiqatlar əsasında Azərbaycanın Acınohur arid seyrək meşələrinin və Mali Respublikası Faya meşələrinin əsas təbii-ekoloji xüsusiyyətlərinin (relyefi, iqlimi, hidroqrafiyası, torpaq və bitki örtüyü, landşaftları, canlı aləmi) səciyyəsi haqqında məlumat verib. Qeyd edib ki, ilk dəfə olaraq Acınohur və Faya meşələrinin 30 il müddəti əhatə edən dövr ərzində (1990-2020-ci illər) vəziyyətinin monitorinqi aparılıb, bu meşələrin deqradasiyasına təsir edən əsas təbii və antropogen amillər müəyyən edilib. Acınohur meşələri və Malinin Faya meşələrindən istifadənin əsas istiqamətləri kimi kənd təsərrüfatının inkişaf etdirilməsi, mal-qaranın otarılması, oduncaq, qida məhsulları, yanacaq və ağac lifi, qeyri-oduncaq məmulatları və s. tədarükü üçün meşələrin qırılması olduğu müəyyən edilib.

Məruzədə sahil ölkəsi olan Malidə yerləşən Faya meşəsi ilə Azərbaycan Respublikasının quraqlıq zonasında yerləşən Acınohur arid seyrək meşələrinin ekoloji vəziyyətinin müqayisəli təhlili verilib. Tədqiqat zamanı araşdırılıb ki, tədqiq olunan ərazilər iki müxtəlif qitədə coğrafi cəhətdən uzaq yerləşməsinə baxmayaraq, bu meşələr coğrafi areallarının quraqlığı, bəzi iqlim elementləri, relyef və meşə ehtiyatlarına antropogen təsirin növlərinə görə oxşar xüsusiyyətlərə malikdir. Lakin həmin meşələr bitki örtüyünün növ tərkibi və landşaftın strukturu, torpaq örtüyü, iqlimi, meşə ehtiyatlarından istifadə üsulları, antropogen təzyiqin səviyyəsinə görə fərqlənir.

Tədqiqatların yekunu olaraq Adama Togola Malinin Faya meşələri və Azərbaycanın Acınohur arid seyrək meşələrinin resurslarının dayanıqlı idarə olunması sistemi haqqında məlumat verib. O, meşələrin dayanıqlı idarə edilməsi sisteminin 7 tematik element (meşə ehtiyatları və müxtəlifliyi, meşənin sağlamlığı və həyat qabiliyyəti, meşə ehtiyatlarının məhsuldarlıq və mühafizə funksiyaları, sosial-iqtisadi funksiyalar, hüquqi, siyasi və institusional çərçivələr), 8 meyar və 56 göstəricidən ibarət olduğunu qeyd edib.

Sonda məruzəçi iştirakçıların suallarını cavablandırıb.

# "Turizm fəaliyyətinin informasiya təminatı"

*İyunun 22-də İnformasiya və sənəd menecmenti fakültəsində "Turizm fəaliyyətinin informasiya təminatı" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının doktorantı Hacı Qasımlı mövzu ilə bağlı məruzə edib.* O bildirib ki, turizm məlumatlarla zəngin bir fəaliyyət olduğu üçün bu sahədə prosesin daha effektiv idarə edilməsi baxımından informasiya təminatı yüksək səviyyədə qurulmalıdır.

Tədqiqatda turizmin inkişaf etdiyi dünya ölkələrində və eyni zamanda Azərbaycanda turizm fəaliyyətinin informasiya təminatı araşdırılıb, bir sıra müqayisəli təhlillər aparılıb. Bu sahənin inkişaf modelinin hazırlanmasında informasiya təminatının rolu izah olunub. Vurğulanıb ki, turizm sahəsinə dair sənəd-informasiya resurslarından səmərəli istifadə turizm obyektləri arasında informasiya mübadiləsində xüsusi əhəmiyyət daşıyır, eyni zamanda rəqabət mühiti yaradır və inkişafa səbəb olur: "Bu mühitin



yaradılmasında informasiya təminatının peşəkar şəkildə qurulması, onun davamlı olaraq təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir". Tədqiqatda işğaldan azad edilmiş ərazilərimizin turizm potensialından da bəhs olunub. Qarabağda yaradılacaq turizm sənayesinin informasiya təminatının xüsusilə mühüm əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb.

Məruzədə həmçinin Azərbaycan Milli Kitabxanasında turizmə dair ədəbiyyatın ümumi statistik göstəriciləri təhlil olunub.

Elmi seminar müzakirələrlə davam etdirilib.

# BDU əməkdaşı Estoniyada keçirilən beynəlxalq seminarda məruzə edib

*İyunun 21-də BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçisi Lalə Qəhrəmanlı Estoniyanın Tallin şəhərində keçirilən "Fotovoltaika üçün qeyri-üzvi halkogenidlər" adlı I Beynəlxalq seminarda (1st International Workshop on Emerging Inorganic Chalcogenides Photovoltaics) "Yeni tipli Ag-Ag2S-CdS xalkogenid nanotellərinin asan sintezi və onların fiziki xassələri" mövzusunda məruzə ilə iştirak edib.*

Seminarda dünyanın aparıcı universitetlərindən dəvət olunmuş məruzəçilər fotovoltaik materiallar, günəş batareyaları haqqında ən müasir tədqiqat işlərindən bəhs edən mühazirələr oxuyub və qarşılıqlı müzakirələr aparıblar.

# BDU tələbələri üçün ödənişsiz Mobil Development kursları təşkil ediləcək

*BDU-nun tələbələri üçün "Code For Future" layihəsi çərçivəsində "DevEducation" İT kolleci tərəfindən yay kursları keçiriləcək.*

Kurslarda BDU-nun bütün fakültələri üzrə III-IV kurs tələbələri və magistrləri iştirak edə bilərlər.

Kurslarda iştirak edən tələbələr müasir informasiya texnologiyaları sənayesində ən çox tələb olunan sahəyə çevrilən Frontend Development və ya Mobil Development ixtisasları üzrə biliklərə yiyələnəcəklər.

Kurslar 2023-cü ilin 3 iyul tarixində başlayacaq.

"Code For Future" layihəsi çərçivəsində keçirilən kurslar ödənişsizdir.

# Nanomaterialların sintezi və tətbiqi üzrə tədqiqatlar davam edir

*Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının əməkdaşları Mustafa Muradov, Sevinc Mammadyarova, Qönçə Eyvazova, Ofeliya Balayeva, İlahə Hasanova, Günel Əliyeva, Sevinc Məlikova (Radiasiya Problemləri İnstitutu), Məhəmmədəli Abdullayevin (Geologiya və Geofizika İnstitutu) "Sonokimyəvi metodla sintez olunmuş Co3O4 nanohissəciklərinin Cu ilə aşqarlanmasının onların struktur, optiki və fotokatalitik xassələrinə təsiri" ("The effect of Cu doping on structural, optical properties and photocatalytic activity of Co3O4 nanoparticles synthesized by sonochemical method") adlı məqaləsi "Scopus" bazasına daxil olan Q2 kvartilli "Optical Materials" (İF: 3.754) jurnalında dərc olunub.*

Məqalədə sonokimyəvi metodla sintez olunmuş təmiz və müxtəlif qatılıqlı Cu ilə aşqarlanmış Co3O4 nanohissəciklərinin rentgen difraksiya (XRD), ultrabənövşəyi spektroskopiya, infraqırmızı spektroskopiya, keçirici elektron mikroskopu və enerji dispersiv rentgen spektroskopiya üsulları öyrənilməsinin nəticələri təqdim olunub. Nəticələrin təhlilinə əsasən, CuxCo3-xO4 nanohissəciklərinin ölçüsü, qadağan olunmuş zonanın eni və fotokatalitik aktivliyi aşqar kimi istifadə olunan misin miqdarı ilə tənzimlənə bilər. Görünən işıq altında metilen göy boyaq maddəsi üçün ən yüksək deqradasiya effektivliyi, 500°C-də termiki emal olunmuş 2% Cu ilə aşqarlanmış Co3O4 nanohissəciklərin iştirakında müşahidə edilib və effektivliyin 87.51% olması aşkar olunub.

# "İnformasiya cəmiyyəti və kitabxanalar" mövzusunda müzakirələr aparılıb

***İyunun 7-də İnformasiya və sənəd menecmenti fakültəsində "İnformasiya cəmiyyəti və kitabxanalar" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Kitabxanaşünaslıq kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Eldəniz Məmmədov mövzu ilə bağlı məruzə edib.***

Məruzədə əvvəlcə "infomasiya", "informasiya cəmiyyəti" anlayışları şərh olunub. Tarixi xronologiyaya əsaslanmaqla informasiya inqilabları, informasiya cəmiyyəti quruculuğu və bütün bu proseslərdə kitabxanaların rolu izah edilib. İnformasiya cəmiyyətinin reallığı kimi meydana çıxan rəqəmsal, virtual, elektron və ağıllı (smart) kitabxanalar haqqında elmi təhlillər aparılıb. Məruzəçi bildirib ki, ənənəvi kitabxana mühitindən rəqəmsal kitabxanaya gedən inkişaf yolu sənəd-informasiya resursları ilə informasiya-kommunikasiya texnologiyalarının qarşılıqlı əlaqəsinin intensiv yüksəlişinin təzahürüdür. Ona görə də informasiya cəmiyyətində kitabxanaların qarşısında duran əsas vəzifə kitabxana xidmətini müasir tələblərə uyğunlaşdırmaq, ənənəvi kitabxana xidmətini elektron xidmətlə əvəz etməkdir: "Bu, ənənəvi kitabxana xidmətindən tamamilə imtina etmək deyil. Bu addım informasiya cəmiyyətinin tələblərinə uyğunlaşmaq, informasiyanın təhlükəsizliyi və əlyetərliliyi baxımından olduqca vacibdir".




Məruzədə həmçinin informasiya cəmiyyətinin kitabxanaları üçün peşəkar kadr hazırlığının tələbləri barədə məlumat verilib, bu istiqamətdə innovativ elmi paradiqmalar diqqətə çatdırılıb. Qlobal informasiya mühitinin formalaşması şəraitində sahə üzrə kadr hazırlığına verilən tələblər, əmək bazarının rəqabətədavamlı mütəxəssislərlə təminatı sahəsində qarşıda duran vəzifələr konseptual şəkildə izah olunub.

Eldəniz Məmmədov BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin bu prosesdəki tarixi təcrübəsi və ənənələrini xüsusi vurğulayıb. Tədqiqatda eyni zamanda beynəlxalq təcrübəyə əsaslanmaqla informasiya cəmiyyəti quruculuğunda kitabxanaların aparıcı rolu ilə bağlı müqayisəli təhlillər aparılıb, sahənin inkişafı ilə bağlı prioritetlər şərh olunub.

Elmi seminar müzakirələrlə davam etdirilib.

# BDU məzunları əmək bazarında ən çox iş tapan universitetlərdəndir

***İyunun 9-da "Məktəb guşəsi" təhsil portalının məzunların əmək bazarında məşğulluğunun təmin edilməsi ilə bağlı sorğusunun yekunlarına dair görüş keçirilib.***

"Məktəb guşəsi" jurnalının və saytının baş redaktoru Məzahir Məmmədli bildirb ki, virtual sorğuda ümumilikdə 3709 nəfər iştirak edib. Nəticələrə əsasən, Bakı Dövlət Universiteti (BDU), Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU), Azərbaycan Texniki Universiteti (AzTU), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) və Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) yüksək göstəricilər əldə ediblər. Vurğulanıb ki, sorğunun keçirilməsində məqsəd universitetlərin məzunlarının sonrakı taleyi ilə bağlı nəticələrini bilmələrinə müəyyən qədər yardımçı olmaqdır.



Daha sonra millət vəkilləri Arzu Nağıyev, Ceyhun Məmmədov, Fazil Mustafa, ekspert Nadir İsrafilov, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Pərvanə Məmmədova, UNEC-in prorektoru Raqif Qasımov və digərləri təhsil sahəsində aparılan islahatlar, məzunların məşğulluq vəziyyəti, ucqar bölgələrdə müəllim kadrları ilə təminat məsələləri və s. haqqında öz fikirlərini bölüşüb, ətraflı fikir mübadiləsi aparıblar. Bildirilib ki, bu gün ali təhsil müəssisələri qəbul planlarını təsdiq edərkən tələbyönümlü davranmalıdır. Universitetlərin ən önəmli reytinq göstəricilərindən biri də onun məzunlarının ixtisas üzrə əmək bazarında özlərinə iş tapması və ya universitetin özünün məzunlarını iş imkanları ilə təmin etməsidir. Digər vacib məsələ isə universitetlərin əlçatanlığıdır ki, burada qurumun ictimaiyyətlə əlaqələrinin təşkili, universitet alimlərinin abituriyentlərlə görüşləri və s. çox önəmlidir.

Sonda sorğuda fərqləndiklərinə görə BDU, ADPU, UNEC, AzTU və ADNSU-ya müvafiq diplomlar təqdim olunub.

# BDU-da orta məktəblərin Azərbaycan dili və ədəbiyyat dərsliklərinin dil-üslub problemləri araşdırılıb

***İyunun 12-də Filologiya fakültəsinin Azərbaycan dilçiliyi kafedrasının nəzdində "Azərbaycan dilinin tətbiqi məsələləri" elmi-tədqiqat laboratoriyasında "Orta məktəblərin Azərbaycan dili və ədəbiyyat dərsliklərində dil-üslub problemləri" mövzusunda elmi seminar keçirilib.*** Tədbirdə "Dədə Qorqud", "Türkoloji araşdırmalar", "Azərbaycan dilinin tətbiqi məsələləri" elmi-tədqiqat laboratoriyalarının, həmçinin Azərbaycan dilçiliyi və Azərbaycan ədəbiyyatı tarixi kafedrasının əməkdaşları iştirak ediblər.

Laboratoriyanın böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Xatirə Vəliyeva iştirakçılara orta məktəb dərsliklərində Azərbaycan dili ilə bağlı problemlər haqqında məlumat verib. Qeyd edib ki, dərsliklər tərtib olunan zaman ədəbi dil normalarına diqqət yetirmək ən vacib məsələlərdən biridir.

Mövzu ilə bağlı məruzə edən "Azərbaycan dilinin tətbiqi məsələləri" ETL-in kiçik elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Zeynəb Cəfərova orta məktəblərin Azərbaycan dili və ədəbiyyat dərsliklərindəki problemli məqamları dil faktları əsasında təhlil edib. Bildirib ki, dərsliklər tərtib olunan zaman ədəbi dilin normalarından əlavə, dilə estetik baxımdan da diqqətlə yanaşılmalı, suallar aydın olmalı, fikir dolaşıqlığı yaradılmamalı, ədəbiyyat dərsliklərində bədii üslub saxlanmaqla yanaşı, müəllifin nitqi ədəbi dilin orfoqrafik normasına uyğun olmalıdır.

Məruzədə həmçinin o da qeyd olunub ki, Azərbaycan dili və ədəbiyyat dərsliklərində çoxlu dil-üslub nöqsanlarına rast gəlinib. Bunlar daha çox fonetik, leksik, qrammatik, üslubi normaların pozulması, fikir mücərrədliyi ilə bağlıdır. Buna görə də dərsliklərdə dil problemlərinin yaranmaması üçün ədəbi dil normalarına, üslubi normalara, əsasən də elmi üsluba diqqət yetirilməlidir.

Seminar müzakirələrlə yekunlaşıb.

# BDU-da 2023/2024-cü tədris ili üzrə yeni ixtisas və ixtisaslaşmalar açılacaq

***BDU-da 2023/2024-cü tədris ili üzrə bakalavriat və magistratura səviyyələrində yeni ixtisas və ixtisaslaşmalar açılacaq.*** BDU-da əmək bazarının tələbləri nəzərə alınaraq ali təhsilin bütün səviyyələri (bakalavriat, magistratura, doktorantura) üzrə təhsil proqramları sənaye-biznes müəssisələrinin mütəxəssisləri ilə birgə hazırlanır və yenilənir.

BDU-nun bakalavriat səviyyəsində 2023/2024-cü tədris ili üzrə "Statistika", "Meliorasiya mühəndisliyi", "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisasları açılacaq.

"Statistika" ixtisası Beynəlxalq münasibətlər və iqtisadiyyat, "Meliorasiya mühəndisliyi" ixtisası Geologiya, "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisası isə İnformasiya və sənəd menecmenti fakültələrində tədris olunacaq.

Magistratura səviyyəsində isə "Tərcümə (ərəb dili üzrə)", "Davamlı inkişafda təbii ehtiyatların idarə edilməsi" və "Gömrük ekspertizası" ixtisaslaşmaları açılacaq.

"Tərcümə (ərəb dili üzrə)" ixtisaslaşması Şərqşünaslıq, "Davamlı inkişafda təbii ehtiyatların idarə edilməsi" ixtisaslaşması Coğrafiya, "Gömrük ekspertizası" ixtisaslaşması isə Kimya fakültələrində tədris ediləcək.

Qeyd edək ki, 2023/2024-cü tədris ilindən BDU-nun SABAH qruplarında da 9 yeni ixtisas və ixtisaslaşma açılacaq. SABAH qruplarında bakalavriat səviyyəsində mövcud 9 ixtisasdan əlavə 3 yeni ixtisas əlavə edilib.

SABAH qruplarında magistratura səviyyəsi üzrə 2023-2024-cü tədris ilindən 6 yeni ixtisaslaşmaya ("Ehtimal nəzəriyyəsi və statistika", "Əməliyyatlar tədqiqi və sistemli təhlil", "Optimallaşdırma və optimal idarəetmə", "Nanohissəciklər fizikası", "Kimyəvi kinetika və kataliz", "Molekulyar biologiya") qəbul elan olunub.

# Okean yer qabığının formalaşmasında tendensiyalara dair elmi seminar

***İyunun 16-da Geologiya fakültəsində elmi seminar keçirilib. Seminarda Amerika Birləşmiş Ştatlarının (ABŞ) Mayami Universitetinin Geologiya, Ətraf Mühit və Yer Elmləri Departamentinin professoru Yıldırım Dilek "Ofiolitlər və qlobal tektonika: zamanla okean yer qabığının formalaşmasında tendensiyalar" mövzusunda məruzə edib.***

Yıldırım Dilek bildirib ki, ofiolitlər müxtəlif tərkibli maqmatik süxurların assosiasiyasıdır. Alim bu sahədə aparılan tədqiqatlar barədə məlumat verib. Bildirib ki, bu assosiasiya ultraəsasi və əsasi maqmanın qırışıqlıq zonalarının orogendən əvvəlki mərhələsində yer qabığının yuxarı təbəqələrinə daxil olması nəticəsində yaranıb. Ofiolitlər müxtəlif geodinamik şəraitdə - okeanların aralıq sıra dağları istisna olmaqla, adalar qövsündə, qitəkənarı hövzələrdə, subduksiya zonalarında da yarana bilər.

Sonda mövzu ətrafında fikir mübadiləsi aparılıb, mövzu üzrə akademik Vasif Babazadə, professor Nazim İmamverdiyev və digərləri çıxış ediblər.

# Xərçəngin genomu və diaqnostikasına dair elmi seminar

*İyunun 2-də Biologiya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə “Xərçəng: genomu, diaqnostikası, terapiya metodları” mövzusunda elmi seminar keçirilib.*



Elmi seminarda çıxış edən TEC-in Biologiya fakültəsi üzrə elmi rəhbəri, Molekulyar biologiya və biotexnologiyalar kafedrasının müəllimi Nurlan Əmrahov bildirib ki, sağlam hüceyrələr bölünmə, ölü hüceyrələri əvəz etmə və toxuma zədələnməsini bərpa etmə qabiliyyəti ilə yenilənir. Bu bölünmə və çoxalma DNT tərəfindən idarə olunur və müəyyən nizama malikdir. Ancaq DNT-nin bir qədər zədələnməsi nəticəsində bəzi hüceyrələr idarə olunmadan bölünür və çoxalır. Bu hüceyrələr birləşərək şişlər əmələ gətirir. Bədənimizin müxtəlif toxuma və orqanlarında yarana bilən şişlər xoşxassəli və bədxassəli formalara bölünür. Bədxassəli şişlər böyüdükcə normal toxumaları zədələyir və xərçəng dediyimiz xəstəlik yaranır. Bəzən xərçəng hüceyrələri qan və limfa dövranı ilə əmələ gəldiyi toxumadan başqa toxumalara çataraq xəstəliyin bədənin digər hissələrinə keçməsinə səbəb olur. Xərçəng dünyada ürək-damar xəstəliklərindən sonra ən çox can itkisinə səbəb olan xəstəlikdir.

III kurs tələbələri Əfsanə Baxışzadə, Sona Dünyamalıyeva, Ləman Ağayeva və Gülənbər Əhmədova xərçəng xəstəliyi, terapiya metodları, bu sahədə əldə edilmiş elmi nailiyyətlər və hazırda xərçəng xəstəliyində yeni tətbiq olunan müalicə üsulu - immunoterapiya, CAR-T və CRISPR-Cas9 haqqında auditoriyaya geniş məlumat veriblər.

Sonda fakültə dekanı Afət Məmmədova belə seminarların keçirilməsinin, xərçənglə bağlı maarifləndirmənin əhəmiyyətini qeyd edib.

# “Abşeron şəraitində Şərqi Asiya mənşəli ağac və kol bitkilərinin introduksiyasının elmi əsasları”

*İyunun 13-də Ekologiya və torpaqşünaslıq fakültəsində növbəti elmi seminar keçirilib. Seminarda Bioekologiya kafedrasının doktorantı Şəfəq Bağırovanın “Abşeron şəraitində Şərqi Asiya mənşəli ağac və kol bitkilərinin introduksiyasının elmi əsasları” mövzusunda məruzəsi dinlənilib.*

Məruzəçi qeyd edib ki, yarımsəhra zonasında yerləşən Abşeron yarımadası çirklənmiş ətraf mühitə malikdir. Buna görə də mövcud təbii bitki örtüyü atmosferin təmizlənməsində və bölgənin ekoloji tarazlığının qorunub saxlanılmasında əhəmiyyətli rol oynaya bilmir. Ətraf mühitin tənzimlənməsi üçün Abşerona yeni, dekorativ xüsusiyyətlərə malik, adaptasiya prosesi geniş olan bitki növlərinin gətirilməsi böyük əhəmiyyətə malikdir. Bakı şəhərinin dekorativ, adaptasiya imkanları geniş olan yeni növlərlə zənginləşdirilməsi, ekoloji şəraitin daha da yaxşılaşdırılması tədqiqatçıların qarşısında duran ən aktual məsələlərdən biridir.

Bu baxımdan Abşeron şəraitində Şərqi Asiya florasına aid bəzi ağac və kol növlərinin bioekoloji xüsusiyyətlərinin tədqiqi, introduksiya imkanlarının və dekorativ əlamətlərinin aşkarlanması, yaşıllaşdırma, eləcə də sənayenin digər sahələrində istifadə perspektivliliyinin müəyyən edilməsi vacibdir: “Rusiya Elmlər Akademiyasının Baş Botanika Bağından toxum yolu ilə ilk dəfə olaraq Azərbaycana Şərqi Asiya florasına aid 17 yeni növ (Hydrangea bretschneideri Dippel, Abies sachalinensis F.Schmidt, Picea jezoensis (Siebold &Zucc) Carr., Buddleja japonica Hemsley, Picea gemmata Rehder & E.H.Wilson, Maackia amurensis Rupr., Tetradium daniellii (Benn.) T.G.Hartley, Abies koreana E.H.Wilson., Padus maackii (Rupr.) Komarov., Thujopsis dolobrata (Thunb.ex L.f.), Microbiota decussata Kom., Clematis fusca Turcz., Clerodendrum trichotomum Thunb., Stranvaesia davidiana Decne., Chamaecyparis pisifera (Siebold & Zucc.), Taxus cuspidata (Siebold & Zucc.), Thelycrania alba (L.) Pojark. ) gətirilib və Mərkəzi Nəbatat Bağının təcrübə sahəsində qapalı məkanda əkilib. Hazırda həmin bitki növləri Mərkəzi Nəbatat Bağında xüsusi ayrılmış açıq sahəyə köçürülüb. Tədqiqatın materialları, şəraiti və metodikası tədqiq edilib. Həmçinin eksperimental işlərin yerinə yetirilməsi üçün müasir metodlar araşdırılaraq istifadə olunub”.

Sonra seminar iştirakçılarının çoxsaylı sualları cavablandırılıb.

# “Sosial media və nəşriyyatlar”

*İyunun 14-də İnformasiya və sənəd menecmenti fakültəsində “Sosial media və nəşriyyatlar” mövzusunda elmi seminar keçirilib.* Elmi seminarda BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Leyla Abasova mövzu ilə bağlı məruzə edib.



Məruzədə qlobal informasiya mühitinin öz şərtlərini diktə etdiyi şəraitdə nəşriyyatların sosial media ilə əlaqələri təhlil olunub. Nəşriyyatların imicinin müəyyənləşdirilməsində, çap məhsullarının təbliğində, oxucu-müəllif, oxucu-nəşriyyat münasibətlərinin formalaşmasında sosial media fenomeninin yeri və rolu izah edilib. Qeyd olunub ki, çağdaş dövrümüzdə sosial media sürətlə inkişaf edərək çoxsaylı sənaye sahələrinə, o cümlədən kitab sənayesinə əhəmiyyətli təsir imkanları əldə edib. Çap məhsullarının və müəlliflərin tanıdılması məqsədilə nəşriyyatlar davamlı olaraq bu platformadan istifadə edirlər. Bu üsul nəşriyyatlara bir çox ənənəvi marketinq vasitələrinin gətirə bilmədiyi uğuru qazandırır. Ona görə də müasir dövrdə uğurlu nəşriyyat dedikdə ənənəvi iş üsulları ilə yanaşı, sosial media ilə işini düzgün qura bilən nəşriyyat nəzərdə tutulur. Məruzədə bu sahədə dünya praktikasından nümunələr göstərilib, “YouTube”, “Instagram”, “Facebook” və s. kimi sosial media platformalarının imkanlarından davamlı şəkildə bəhrələnmənin nəşriyyatların inkişafında oynadığı rol vurğulanıb. Bildirilib ki, bu kimi platformalara çıxış nəşriyyatların nüfuz dairəsini və oxucu auditoriyasını davamlı olaraq artırır.

Məruzədə həmçinin ölkə nəşriyyatlarının bu istiqamətdəki fəaliyyəti tədqiqata cəlb edilib, müxtəlif nəşriyyatların fəaliyyətini əks etdirən nümunələr nümayiş etdirilib, sahənin inkişafı ilə bağlı innovativ təkliflər irəli sürülüb.

Elmi seminar müzakirələrlə davam edib.

# BDU-da elmi seminar: “Kür çayının aşağı axınında yerləşən şəhərlərin demoqrafik göstəriciləri və ekoloji problemləri”

***İyunun 1-də Ekologiya və torpaqşünaslıq fakültəsində növbəti elmi seminar keçirilib.*** Seminarda Coğrafi ekologiya kafedrasının doktorantı Elnur Nağıyevin “Kür çayının aşağı axınında yerləşən şəhərlərin demoqrafik göstəriciləri və ekoloji problemləri” mövzusunda məruzəsi dinlənilib.

Qeyd olunub ki, Kürün aşağı axınında yerləşən və əhalinin ən çox məskunlaşdığı 7 şəhərin (Mingəçevir, Yevlax, Zərdab, Sabirabad, Salyan, Şirvan, Neftçala) demoqrafik vəziyyətinin dinamikası araşdırılıb. Təhlil üçün məlumat bazası kimi 1989-2021-ci illəri əhatə edən əhalinin siyahıya alınması məlumatları və statistik demoqrafik göstəricilər götürülüb. Müəyyən edilib ki, Kürün aşağı axınında yerləşən şəhərlərin inzibati ərazi vahidlərinin ərazisi, əhalisinin sayı və sıxlığında əvvəlki illərlə müqayisədə artım olub. Ən çox təbii artım Sabirabad (165,12%) və Zərdab (153,84%) şəhərlərində müşahidə edilib. Bunun səbəbi həmin şəhərlərdə əhalinin əsasən kənd təsərrüfatının müxtəlif sahələri (taxılçılıq, bostançılıq, üzümçülük, pambıqçılıq) ilə məşğul olmasıdır. Belə ki, əhalisi daha çox sənaye sahələri (neft və qazçıxarma, elektroenergetika, kimya, tikinti materialları istehsalı və s.) ilə məşğul olan şəhərlərdə təbii artımın nisbətən aşağı olduğu (Mingəçevir (129,52%)) müşahidə edilib.

Nəticə olaraq Kürün aşağı axınında yerləşən şəhərlərdə demoqrafik inkişaf problemlərinin nizamlanması üçün məşğulluq, sosial müdafiə, tibb və digər sahələrdə davamlı tədbirlərin həyata keçirilməsi, Mingəçevir, Şirvan şəhərlərində yeni sənaye parklarının açılması, şəhər ərazilərinin yeni şəhərsalma infrastrukturuna uyğun genişləndirilməsi, Yevlax, Zərdab, Sabirabad, Salyan, Neftçala şəhərlərində yeni sənaye məhəllələrinin yaradılması, rekreasiya, aqrosənaye, şəhəryanı təsərrüfatların, emal sənayesinin inkişaf etdirilməsi zəruri hesab edilir.

# Sintetik üzvi boyaların maqnit nanohissəciklərin iştirakı ilə deqradasiyasına dair elmi seminar

*İyunun 13-də BDU Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında növbəti elmi seminar keçirilib.*



Seminarda laboratoriyanın böyük elmi işçisi, kimya elmləri doktoru, dosent Flora Hacıyeva “Sintetik üzvi boyaların maqnit nanohissəciklərin iştirakı ilə hidrogen peroksidlərlə katalitik deqradasiyası” adlı məruzə ilə çıxış edib.

Flora Hacıyeva sintetik üzvi boyaların deqradasiya üsulları, maqnit nanohissəciklərin iştirakı ilə fenoton reaksiyalarla qabaqcıl oksidləşmə metodlarının müqayisəli təhlilini və üstün xüsusiyyətlərini göstərib. Məruzəçi müxtəlif sintetik boyaların (Coomassie Brilliant Mavi, Metilen Mavi, Tartrazin, Orange II) maqnetit ($Fe_3O_4$) nanohissəciklərin iştirakı ilə hidrogen peroksidlərlə deqradasiyasına dair apardığı ekperimental nəticələri təqdim edib, deqradasiyanın mexanizmləri haqqında təsəvvürləri seminar iştirakçılarının nəzərinə çatdırıb.

O, sintetik boyaların deqradasiyasına mühitin pH-nın, hidrogen peroksidin və maqnetit nanohissəciklərin qatılığının, müddətin və sair texnoloji parametrlərin təsirinə dair təcrübi nəticələri nümayiş etdirib. Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında bu istiqamətdə işlərin davam etdirildiyini vurğulayan məruzəçi daha sonra seminar iştirakçılarının suallarını cavablandırıb.

# BDU-da fosfor tərkibli maqnit adsorbentlərin sintezi və tətbiqi üzrə tədqiqatlar davam edir

***Kimya fakültəsinin Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının müdiri, professor Rasim Alosmanovun həmmüəllifi olduğu "Qurğuşunun su, siqaret və torpaqdan vortekslə bərk fazadan ekstraksiyası üçün poli(N-izopropilakrilamid) ilə modifikasiya edilmiş maqnit adsorbenti yüksək ayırdetməyə malik alovlu atom-absorbsiya spektroskopiyasında" (Magnetic Adsorbent Decorated with Poly(N-Isopropylacrylamide) (PNIPAM) Brushes for the Vortex-Assisted Solid Phase Extraction (VASPE) of Lead in Water, Cigarettes and Soil with High-Resolution Continuum Source Flame Atomic Absorption Spectrometry (HR-CS FAAS) Detection) adlı məqalə "Web of Science" bazasında Q2 kvartilli jurnallar siyahısına daxil olan "Analytical letters" (IF: 2.267) jurnalında dərc olunub.***

Məqalədə poli(N-izopropilakrilamid) fırçaları ilə modifikasiya edilmiş fosfor tərkibli maqnit adsorbentin sintezi və tətbiqi haqqında məlumat verilib. Modifikasiya prosesi səthin həyəcanlandırılması ilə atom ötürülməsi radikal polimerləşmə üsulundan istifadə etməklə həyata keçirilib. Nümunənin quruluşu furye çevrilməsilə infraqırmızı və enerji dispersion X-şüalı spektroskopiyası metodları ilə müəyyənləşdirilib. Adsorbentin vasitəsilə qurğuşunun su, siqaret və torpaqdan vorteksla bərk fazadan ekstraksiyası aparılıb. Qurğuşunun miqdari yüksək ayırdetməyə malik alovlu atom-absorbsiya spektrometrinin tətbiqilə təyin olunub.

# BDU əməkdaşları İtaliyada konfransda nanokompozitlərin xassələrinə dair məruzə ediblər

***BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin direktor müavini Mustafa Muradov və Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçisi Lalə Qəhrəmanlı İtaliyanın Roma şəhərində Milli Nüvə Fizikası İnstitutunda professor Stefano Belluccinin rəhbərliyi ilə ənənəvi təşkil olunan "Nanoscience and Nanotechnology 2023" konfransında məruzə ediblər.***




Mustafa Muradovun məruzəsi "Termik tablama və qamma radiasiyanın GO/PVS əsasında nanokompozitlərin struktur və optic xassələrinə təsiri" ("Influence of thermal annealing and gamma irradiation on structure and optical properties of GO/PVA nanocomposites") mövzusuna həsr olunub. Məruzədə termik tablama zamanı temperaturdan asılı olaraq diffuziya proseslərinin qrafen oksidinin polimerdə paylanmasına, qamma şüaların nanokompozitlərin struktur və optik xassələrinə təsirindən danışılıb. Qamma şüaların təsiri ilə kompozitlərin kimyəvi tərkibi və optik xassələrinin dəyişdirilməsinin mümkünlüyü vurğulanıb.

Lalə Qəhrəmanlı isə "Fotokatalitik boya deqradasiyası üçün yeni $Ag\text{-}Ag_2S\text{-}CdS$ nanokatalizatorlarının istifadəsi" ("Utilization of novel $Ag\text{-}Ag_2S\text{-}CdS$ nanocatalysts for photocatalytic dye degradation") mövzusunda dəvət olunmuş məruzəçi (invited speaker) kimi çıxış edib. Çıxışda yeni növ funksional $Ag\text{-}Ag_2S\text{-}CdS$ hibrid nanokatalizatorlarının xassələrinin öyrənilməsi ilə yanaşı, onların boyaq maddələrinin fotodeqradasiya prosesində effektivliyi haqqında məlumat verilib. Lalə Qəhrəmanlı konfransda yerli təşkilat komitəsinin üzvü olmaqla yanaşı, sessiyalarda sədr olaraq da fəaliyyət göstərib.

Konfransda aparılan müzakirələr nəticəsində elmi tədqiqat və təhsil sahələrində birgə layihələrin hazırlanması haqqında razılığa gəlinib.

# Alimin tədqiqatlarının nəticələri məşhur "The Physical Review D" jurnalında dərc olunub

***BDU nəzdində Fizika Problemləri Elmi Tədqiqat İnstitutunun Nəzəri fizika şöbəsinin müdiri, dosent Şahin Ağayevin "$B^+ > D_s^+$ $D_s^-$ $K^+$ parçalanmasının $D_s^+$ $D_s$ kütlə paylanmasında astana-yaxın strukturlar", "$T_{cs0}^0(2900)^{++}$ rezonansının $D^{*+}K^{*+}$ adron molekulu kimi modelləşdirilməsi" qapalı çarmstreync skalyar tetrakvark kimi" ("X(3960) as a hidden charm-strange scalar tetraquark") adlı üç məqaləsi "Web of Science" bazasında Q1 kvartilli jurnallar siyahısına daxil olan "The Physical Review D" jurnalının müxtəlif nömrələrində dərc olunub.***

Məqalələrdə son illərdə əsasən LHCb eksperimentinin müşahidə etdiyi müxtəlif adron rezonanslarının xassələri öyrənilib, onların kütlələri və tam effektiv en kəsikləri molekul və tetrakvark modelləri çərçivəsində hesablanıb. Əldə olunmuş nəzəri və eksperimental nəticələrin müqayisəli analizi aparılıb.

# BDU-da Li qruplarında təyin olunmuş fəzalarda məhdudluq meyarlarının alınmasına dair tədqiqatlar davam edir

***BDU-nun nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü, professor Vaqif Quliyevin "Stratifid Li qruplarında təyin olunmuş Orliç fəzalarında maksimal funksiyanın kommutatorunun Lipşitz funksiyaları ilə xarakterizasiyası" ("Characterizations of Lipschitz functions via the commutators of maximal function in Orlicz spaces on stratified Lie groups") adlı məqaləsi "Web of Science" bazasında Q2 kvartilli jurnallar siyahısına daxil olan "Mathematical Inequalities and Applications" (IF: 1.014) jurnalında dərc olunub.***

Məqalədə stratifid Li qruplarında təyin olunmuş Orliç fəzalarında maksimal kommutator operatoru və maksimal operatorun kommutatorunun məhdudluğu üçün meyarlar alınıb. Bu nəticələrin tətbiqi olaraq stratifid Li qruplarında təyin olunmuş Orliç fəzalarında maksimal kommutator operatorun və maksimal operatorun kommutatorunun məhdud olması üçün zəruri və kafi şərtlər tapılıb.

# Alim metal nanohissəciklərin bioloji sintezinə dair tədqiqatlar aparıb

***İyunun 1-də Biofizika və biokimya kafedrasının müdiri, professor Rövşən Xəlilovun həmmüəllif olduğu "Bioloji/kimyəvi əsaslı metal nanohissəciklərin sintezi, xarakteristikası və ətraf mühitə tətbiqi" (Biological/chemical-based metallic nanoparticles synthesis, characterization, and environmental applications") adlı elmi iş "Web of Science" elmmetrik bazasına daxil olan (IF: 5.545) "Frontiers in Chemistry " jurnalında çap olunub.***

Məqalədə metal nanohissəciklərin bioloji sintezindən bəhs edilir. Müəlliflər icmal məqalədə bu istiqamətdə yerli və xarici alimlərin işlərinə istinad verərək, alınan elmi nəticələri müqayisəli analiz edib, müsbət tərəflərini və qarşıya çıxa biləcək problemləri işıqlandırıblar. Nanohissəciklərin müxtəlif sintez üsulları olsa da, bioloji üsul ekoloji cəhətdən təmiz və təhlükəsiz üsuldur. Nanohissəciklər günümüzdə elmin fərqli sahələrində, xüsusən də tibbdə geniş tətbiq edilir, onların səmərəli üsulla sintezi olduqca aktual məsələdir.

# Alimin məqaləsi beynəlxalq impakt faktorlu jurnallarda dərc olunub

***İyunun 2-də Mexanika-riyaziyyat fakültəsinin dekanı, professor Ziyatxan Əliyevin həmmüəllifi olduğu "Sərhəd şərtinə spektral parametr daxil olan bəzi dördüncü tərtib qeyri-xətti məxsusi qiymət məsələsinin qlobal bifurkasiyası haqqında nəticələr" və "Bəzi qeyri-xətti Sturm-Liuvill məsələlərində sonsuzluqdan qlobal bifurkasiya" adlı məqalələr "Web of Science" beynəlxalq elmmetrik bazasına daxil olan Q1 kvartilli "Tətbiqi Elmlərdə Riyazi Metodlar" və "Malayziya Riyaziyyat Elmləri Cəmiyyətinin Bülleteni" jurnallarında dərc olunub.***

Məqalələrdə sərhəd şərtinə spektral parametr daxil olan ikinci və dördüncü tərtib adi diferensial tənliklər üçün asimptotik xətti məxsusi qiymət məsələlərinin trivial olmayan həllərinin sonsuzluqdan qlobal bifurkasiyası tədqiq edilib. Bu məsələlərdən hər birinin trivial olmayan həllərinin asimptotik bifurkasiya nöqtələrindən budaqlanan və həmin nöqtələrin ətrafında uyğun xətti məsələlərin məxsusi funksiyalarının və onların törəmələrinin osillyasiya xassələrinə malik siniflərdə yerləşən bir cüt qlobal kontinuumlar ailəsinin varlığı isbat edilib.

# BDU-nun elmi işçisi İtaliyanın Milli Nüvə Fizikası İnstitutunun konfransında polimer nanohissəciklərə dair məruzə edib

***İyunun 5-də Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının elmi işçisi Aynurə Kərimova İtaliyanın Roma şəhərində keçirilən "Nanoscience and Nanotechnology 2023" konfransında "Polimer nanohissəciklər – çatdırılma sistemlərində alət kimi" ("Polymeric Nanoparticles – Tool in a Delivery Systems") mövzusunda məruzə ilə iştirak edib.***

Tədqiqat işində dərmanların çatdırılması üçün polimer nanohissəciklərin xüsusiyyətlərinin qısa icmalı təsvir edilib. Məruzədə nanodaşıyıcıların müxtəlif dərman maddələrinin çatdırılması üçün çoxməqsədli platforma olması barədə məlumat verilib. Bununla yanaşı, nanohissəcik əsaslı dərman çatdırılması ilə bağlı imkanlar və çətinliklər də müzakirə olunub.

# Qürur, rəşadət bayramı

*26 iyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günüdür*




Azərbaycanın dövlətçiliyinin və təhlükəsizliyinin qarantı olan Müzəffər Ordumuz bu gün dünyanın ən güclü orduları sırasında yer almaqla yanaşı, regionda sülhün, sabitliyin qorunmasında mühüm rol oynayır.

105 il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 26 iyun 1918-ci il tarixli qərarı ilə ölkəmizdə ilk Əlahiddə Azərbaycan Korpusu yaradılıb, bununla Azərbaycan Silahlı Qüvvələrinin təməli qoyulub. Həmin ilin avqust ayının 1-də Hərbi Nazirlik təsis olunub. Beləliklə, uzun müddət hərb sənətindən, ordu quruculuğundan məqsədli şəkildə uzaq salınmış xalqımız tarixi ənənələri bərpa edib, sıralarında millətimizin ən cəsur oğullarının cəmləşdiyi milli ordumuz yaradılıb.

Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra ölkəmizdə hərbi kadrların hazırlanması prosesi geniş vüsət alıb, Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılıb. Sonralar Ulu Öndər deyirdi: "Biz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk bünövrə daşlarını qoyanda o, bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm”.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra milli ordu quruculuğuna yenidən başlanılıb. Ölkəmizdə bütün sahələrin inkişafı kimi, peşəkar, nizami ordu quruculuğu və vahid komandanlığın yaradılması da Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndərin ardıcıl səyləri, dərin bilik və bacarığı, sərkərdəlik məharəti nəticəsində peşəkar ordunun formalaşdırılması prosesinə başlanılıb. Dahi şəxsiyyət tarixi ənənələrə hörmət, varislik prinsiplərinə sədaqətlə yanaşaraq, silahlı qüvvələr gününün tarixinin qeyd edilməsinə də yenidən baxıb və ədaləti bərpa edib. Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün, yəni 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olunub.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti illərində ordu quruculuğu daim prioritet məsələ kimi diqqətdə saxlanılıb, ölkəyə cəlb edilən investisiyalardan əldə edilən gəlirlər ordunun maddi-texniki təminatına, eyni zamanda hərbçilərin sosial rifahının yaxşılaşdırılmasına yönəldilib. Ordunun kadr potensialının müasir səviyyədə təmin edilməsi məqsədilə hərbi lisey və ali hərbi məktəblərin maddi-texniki bazası gücləndirilib, strukturu və idarə edilməsi təkmilləşdirilib.

2003-cü ildən ölkəmizə uğurla rəhbərlik edən, Ulu Öndər Heydər Əliyevin siyasi varisi, layiqli davamçısı İlham Əliyevin prezidentliyi dövründə ölkə həyatının bütün sahələrində sürətli inkişafa, davamlı tərəqqiyə nail olunub. Bu illər ərzində ölkəmizdə ordu quruculuğu özünün ən yüksək inkişaf səviyyəsinə çatıb. Ölkə başçısının düşünülmüş siyasəti, məharətli idarəçilik səriştəsi sayəsində Azərbaycan silahlı qüvvələri yüksək maddi-texniki təminatla təchiz olunub, ən müasir silahlarla silahlanıb, peşəkar ordu kimi formalaşıb.

Ulu Öndərin uzaqgörənliklə formalaşdırdığı və Müzəffər Ali Baş Komandan İlham Əliyevin məharətlə rəhbərlik etdiyi Azərbaycan Silahlı Qüvvələri özünün ən şərəfli missiyasını Vətən müharibəsində yerinə yetirdi və 30 il davam edən işğala 44 gün ərzində son qoydu. Rəşadətli ordumuz tarixi ədaləti, ölkəmizin ərazi bütövlüyünü təmin etdi, müqəddəs üçrəngli bayrağımızı tarixi torpaqlarımızda əbədi ucaltdı.

Artıq üç ildir 26 iyun – Silahlı Qüvvələr Gününü Müzəffər ordu, qalib xalq olaraq ümumxalq bayramı kimi qeyd edirik. Xalqımıza bu zəfəri yaşadan şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyir, qazilərimizə cansağlığı diləyir, Vətənin müdafiəsində dayanan igid hərbçilərimizlə fəxr edirik.

Qalib Ordumuzun əsgər və zabitlərini, bütün xalqımızı bayram münasibətilə təbrik edirik.

Tanrı Azərbaycanımızı və Müzəffər Ordumuzu qorusun!

# Azərbaycan Silahlı Qüvvələr Gününə həsr edilən kitab sərgisi



***İyunun 25-də BDU-nun Elmi Kitabxanası Azərbaycan Silahlı Qüvvələr Gününə həsr edilən kitab sərgisi təşkil edib.*** Sərgidə Azərbaycan Silahlı Qüvvələrinin tarixini və müasir dövrünü əks etdirən kitablar nümayiş olunur. Nümayiş olunan kitablar sırasında Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli sərkərdəliyi, Ordumuzun rəşadəti, xalqımızın “Dəmir yumruq” ətrafında sıx birliyi nəticəsində şanlı qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsindən bəhs edən son illərin nəşrləri oxucular tərəfindən böyük marağa səbəb olub. Sərgidə düşmən tərəfindən torpaqlarımızın qəsb olunmasına qarşı mübarizədə, Azərbaycanın ərazi bütövlüyü uğrunda hər iki Qarabağ müharibəsində şəhid olan igid və cəsur oğul və qızlarımızın həyatı, keçdiyi döyüş yolundan bəhs edən nəşrlər də nümayiş olunmaqdadır.

Gənclərə hərbi işin sevdirilməsi, onlarda hərbi-vətənpərvərlik hisslərinin gücləndirilməsi, orduya xidmətin müqəddəs bir iş, böyük bir borc olduğunu təbliğ edən sərgidə mövzu ilə bağlı Bakı Dövlət Universitetinin 2021-ci ildə işıq üzü görən “Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışları”, “Vətən müharibəsi yerli və xarici mediada”, “Bakı Dövlət Universiteti Vətən Müharibəsi dövründə”, “Tarix yazan məzunlar” adlı nəşrlər də yer alır.

# BDU tələbələri “Qədim yurd yerimiz – Qərbi Azərbaycan” adlı kitab sərgisində




***İyunun 25-də İnformasiya və sənəd menecmenti fakültəsinin bir qrup tələbəsi Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən hazırlanan “Qədim yurd yerimiz – Qərbi Azərbaycan” adlı kitab sərgisini ziyarət ediblər.***

BDU tələbələrini sərgi ilə tanış edən Milli Kitabxananın direktor müavini, tarix üzrə fəlsəfə doktoru Ədibə İsmayılova Qərbi Azərbaycanın tarixi, mahalları, əhalisi barədə ətraflı məlumat verib. Qeyd edib ki, Qərbi Azərbaycanda yaşayan soydaşlarımız dəfələrlə deportasiyaya məruz qalıb, öz yurd yerlərindən didərgin düşüb, minlərlə insan vəhşicəsinə qətlə yetirilib. Tələbələr Qərbi Azərbaycan İcmasının fəaliyyəti barədə məlumatlandırılıb. İcma tərəfindən təsdiq edilmiş “Qərbi Azərbaycana Qayıdış Konsepsiyası”nda yer almış prioritetlər şərh olunub. Bildirilib ki, sərginin keçirilməsində məqsəd qədim yurd yerlərimiz haqqında sənədlərin, tarixi məlumatların, elmi araşdırmaların yer aldığı kitabların təbliği, Azərbaycan həqiqətlərinin tanıdılmasıdır.

“Qədim yurd yerimiz – Qərbi Azərbaycan” adlı kitab sərgisi ilə tanışlıq tələbələrdə böyük təəssürat yaradıb, Milli Kitabxananın əməkdaşları tərəfindən onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, sərgidə qədim yurd yerlərimiz olan Qərbi Azərbaycan torpaqları, o cümlədən İrəvan xanlığı, Göyçə, Dərələyəz, Vedibasar, Ağbaba, Zəngəzur, Zəngibasar mahalları və digər tarixi torpaqlarımız haqqında müxtəlif mövzularda kitablar nümayiş olunur.

# BDU-nun həmtəşkilatçılığı ilə İstanbulda beynəlxalq seminar-təlimlər keçiriləcək

***İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) tərəfindən 2023-cü il 31 iyul - 5 avqust tarixlərində Türkiyə Respublikasının İstanbul şəhərində “Model Satellite (CanSat) Training Workshop & Aerospace Symposium” təlimləri təşkil olunacaq. Bu seminar-təlimlər BDU-nun həmtəşkilatçılığı ilə keçiriləcək.***

Tədbir İslam dünyası ali təhsil müəssisələrinin tələbələri və əməkdaşları arasında kosmik sahəyə marağın artırılması, bu sahədə fundamental bilik və bacarıqlar formalaşdırılması, yerli kadrların yetişdirilməsi məqsədilə təşkil edilir. Təlimlərdə iştirakçı gənclərə nəzəri və praktik biliklər veriləcək, onların elektronika, mexanika və proqramlaşdırma kimi mühəndislik istiqamətlərində bacarıqları tapşırıqların yerinə yetirilməsi ilə qiymətləndiriləcək.

# BDU tələbələrinin maarifləndirmə aksiyası

***İyunun 6-da Biologiya fakültəsinin tələbələri 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə əlaqədar Universitet ərazisi, AMEA bağı və Hüseyn Cavid parkında maarifləndirmə aksiyası keçiriblər.***




Tələbələr "Biz təbiəti qoruduqca, təbiət də bizi qoruyur", "Ağac əkmək üçün birləşək", "Qarabağın meşələrini birlikdə dirçəldək", "Yer kürəsini iqlim dəyişikliklərindən qoruyaq", "Gəlin daha yaxşı bir dünya quraq", "Torpağın dostlara ehtiyacı var" kimi şüarlar səsləndirərək insanları ətraf mühiti qorumağa çağırıblar.

Qeyd edək ki, BMT Baş Assambleyasının 1972-ci ildə keçirilən iclasında ətraf mühitin mühafizəsi problemlərinə diqqəti yönəltmək üçün 5 iyunun Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü kimi qeyd olunmasına qərar verilib.

# BDU könüllüləri təmizlik aksiyasında

***İyunun 12-də Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə könüllüləri Ekologiya və Təbii Sərvətlər Nazirliyi, IDEA İctimai Birliyi, Azərbaycan Gənclər Fondu, "Təmiz Şəhər" ASC və BMT İnkişaf Proqramının Azərbaycandakı nümayəndəliyinin tərəfdaşlığı ilə "Sahillər təmiz qalsın" şüarı altında keçirilən ənənəvi sahilyanı təmizlik aksiyasında iştirak ediblər.***

Çimərlik mövsümünün açılışı ərəfəsində keçirilən və Ümumdünya Ətraf Mühit Gününə həsr olunan aksiyada könüllülər Corat çimərliyi ərazisini təmizləyib, toplanan tullantılar Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna təhvil verilib.



# XVI Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına seçmə imtahanı keçirilib

***İyunun 13-də BDU-da XVI Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına seçmə imtahanı keçirilib. İmtahanda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş III Məktəblilərarası Astronomiya Olimpiadasının qalibləri iştirak ediblər.***

III Məktəblilərarası Astronomiya Olimpiadası Bakı Dövlət Universiteti, Azərbaycan Respublikasının Təhsil İnstitutu, N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və Beynəlxalq Astronomiya İttifaqının Astronomiya Təhsili İdarəsi tərəfindən şagirdlər arasında astronomiya sahəsinə marağın artırılması, təhsil sistemində astronomiyaya daha geniş yer verilməsinin təşviq edilməsi, həmçinin qaliblərin Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlanması məqsədi ilə keçirilib. Olimpiadanın qalibləri BDU-da təşkil olunmuş Astronomiya dərslərinə cəlb olunub. Seçmə imtahanı da bu dərslərdə öyrənilmiş biliklər əsasında təşkil edilib. İmtahan nəticəsində seçilən 5 nəfərdən ibarət komanda 10-20 avqust tarixlərində Polşada keçiriləcək XVI Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında ölkəmizi təmsil edəcək. Seçilən şagirdlərin nəzəri və praktiki hazırlığı olimpiadanın keçirilməsi tarixinə qədər davam edəcək.

Qeyd edək ki, III Məktəblilərarası Astronomiya Olimpiadası və Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərsləri Cənubi Qafqazda yeganə planetarium olan Tusi-Bohm Planetariumun dəstəyi ilə həyata keçirilir.

# BDU-nun tələbəsi aqrar sahədə beynəlxalq təcrübə proqramını başa vurub

***Ekologiya və torpanşünaslıq fakültəsinin magistrantı Gülər Mirzəyeva Kənd Təsərrüfatı Nazirliyi və İsrailin Arava Beynəlxalq Kənd Təsərrüfatı Tədris Mərkəzinin (AICAT) təşkilatçılığı ilə aqrar sahədə fəaliyyət göstərən gənc mütəxəssislər üçün nəzərdə tutulmuş 11 aylıq təcrübə proqramında iştirak edib.***



Təcrübə proqramının Məzun Günündə Azərbaycanın İsraildəki fövqəladə və səlahiyyətli səfiri Muxtar Məmmədov proqramı uğurla başa vuran tələbələri təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Gülər Mirzəyeva praktiki fəaliyyət göstərdiyi müəssisədə də aktiv və uğurlu fəaliyyətinə görə əlavə sertifikatla təltif olunub.

# 2023-cü il BDU-nu 5000-dən çox tələbə bitirir

***2022-2023-cü tədris ilində BDU-nu 5000-dən çox tələbə bitirir.***

Ümumilikdə fəaliyyət göstərdiyi dövr ərzində BDU 200 min nəfərədək mütəxəssis və yüksəkixtisaslı kadr yetişdirib.

Hazırda BDU-da 16 fakültə, 1500 nəfərlik professor-müəllim heyəti fəaliyyət göstərir, 25000-ə yaxın tələbə təhsil alır. Bakalavriat səviyyəsində 84 ixtisas, magistratura səviyyəsində 246 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir.

# Tələbə Gənclər Təşkilatının üzvləri DTX-nin Akademiyasının "Şöhrət" muzeyində

***İyunun 6-da BDU Tələbə Gənclər Təşkilatının üzvləri Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyini ziyarət ediblər.***

TGT üzvləri əvvəlcə Ulu Öndər Heydər Əliyevin Akademiyanın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri düzüblər. Sonra "Şöhrət" muzeyində Ümummilli Lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən fotostend və eksponatlarla tanış olublar.

"Şöhrət" muzeyinin eksponat və stendlərində olan unikal sənədlər, arxiv materialları Ulu Öndərin həyat və fəaliyyətini, mənalı və şərəfli ömür yolunu, xalqımızın tarixində və taleyində oynadığı misilsiz rolu, o cümlədən təhlükəsizlik orqanlarındakı xidmət dövrü haqqında məlumatları əks etdirir.

# İqtisadiyyat və Humanitar Kollecdə "YUBİLEY" turniri keçirilib



***İyunun 6-da BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecin tələbələri arasında "Heydər Əliyev İli"nə həsr edilmiş "YUBİLEY" turniri təşkil edilib.***

BDU-nun Tarix fakültəsi üzrə könüllülərinin təşkilatçılığı ilə keçirilən intellektual turnirdə komandalara Ümummilli Liderin həyat yoluna və Azərbaycan tarixinə dair suallar verilib.

Yarışın nəticələrinə görə "Xudafərin" komandası I, "Dəmir Yumruq" komandası II, "Əlincə" komandası isə III yerə layiq görülüb. Turnirdəki ən yaxşı oyunçu Diana Məmmədova sonda xüsusi sertifikatla təltif edilib.

# BDU tələbələri beynəlxalq simpoziumda məruzə ediblər

***İyunun 13-də Türkiyənin Qazi Universitetinin professoru, tanınmış türkoloq alim Necati Dəmirin rəhbərlik etdiyi Türklərin Dünyası İnstitutunun təşəbbüsü ilə Çexiyanın paytaxtı Praqa şəhərində VII Beynəlxalq Türklərin Dünyası Sosial Elmlər Simpoziumu keçirilib.*** Dünyanın müxtəlif ölkələrindən tanınmış türkoloqların qatıldığı simpoziumda BDU-nun tələbələri onlayn formada iştirak ediblər.

Bölmə iclaslarında Filologiya fakültəsinin tələbələri – Tələbə Elmi Cəmiyyətinin sədri Zəhraxanım Rəhimova "Qıpçaq qrupu türk dillərində ismin hal kateqriyası", Vüsalə Rizvanova "Sifətin dərəcə kateqoriyası" və Nəcibə Qurbanova "Mühakimətül-lüğəteyn" əsəri haqqında" adlı məruzələrlə çıxış ediblər.

Çıxışları maraqla qarşılanan BDU tələbələri sertifikatla təltif olunublar.

# Mediasiya Şurasında təcrübə keçən BDU tələbələrinə sertifikatlar verilib

***İyunun 2-də BDU-nun SABAH qruplarının Hüquqşünaslıq, Sosial münasibətlər və psixologiya fakültəsinin Sosial iş ixtisasları üzrə təhsil alan tələbələrinin Mediasiya Şurasında tədris- istehsalat təcrübələri başa çatıb.***

Tədbirdə Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilov, BDU-nun Sosial iş kafedrasının müdiri Üzeyir Şəfiyev, Elm və Təhsil Nazirliyinin SABAH qrupları layihəsinin İcra Komitəsinin rəhbəri Eldar Qocayev, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının prorektoru Elçin Xələfov iştirak edib.



Qeyd olunub ki, SABAH qruplarının Hüquqşünaslıq, Sosial münasibətlər və psixologiya fakültəsinin Sosial iş ixtisasları üzrə təhsil alan IV kurs tələbələri Mediasiya Şurasında tədris-istehsalat təcrübəsi zamanı lazımi praktiki biliklərə yiyələniblər. Tədris-istehsalat təcrübəsi Mediasiya Şurası ilə BDU arasında imzalanmış əməkdaşlıq haqqında memorandum çərçivəsində həyata keçirilib. Mediasiya Şurası hər il tələbələrin təcrübə proqramlarında iştirakını təmin edəcək.

Sonda təcrübə proqramını uğurla başa vurmuş tələbələrə sertifikatlar təqdim olunub.

## BDU-nun doktorantı çirkab suları ağır metallardan təmizləyən təbii sorbent əldə edib

***İyunun 14-də kimya fakültəsinin Analitik kimya kafedrasının doktorantı Tahir Cavadzadə İtaliyanın La Sapienza Universitində 3 aylıq elmi-tədqiqat işini uğurla yekunlaşdırıb.***

Tahir Cavadzadə La Sapienza Universitinin professoru Luka Di Palmanın elmi rəhbərliyi ilə "Ingegneria Chimica Materiali Ambiente" bölümündə qida tullantılarından təbii sorbent əldə edib. Bu sorbent çirkab sulardan ağır metalları təmizləmək imkanına malikdir.



Yüksək faizlə çirkab sudan misi təmizləyən təbii sorbentlərin Abşeron yarımadasının neftlə çirklənmiş sularının təmizlənilməsində tətbiqi imkanı da tədqiqat planına salınıb.

Qeyd edək ki, Tahir Cavadzadə Avropa İttifaqının 2019 - 2023-cü illər üzrə nəzərdə tutulan "Azərbaycanda ekoloji xarakterli fövqəladə hallar üzrə 3-cü dövr yeni magistratura səviyyəsini dəstəkləyən innovativ təlim mərkəzi" (ITACA) layihəsi çərçivəsində İtaliyada tədqiqat işi aparmaq imkanı əldə edib.

## SABAH qruplarının tələbələri Milli Məhkəmə Müsabiqəsinin XII buraxılışının qalibi olublar

***BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisasının III kurs tələbələri Şahin Bayramlı və Elmar Bəyərov Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının Azərbaycan nümayəndəliyi (ELSA Azərbaycan) tərəfindən keçirilən Milli Məhkəmə Müsabiqəsinin XII buraxılışının qalibi olublar.***

Vəkillər Kollegiyasının dəstəyi ilə keçirilən müsabiqə türk dünyasının ilk qadın hüquqşünası və vəkili Süreyya Ağaoğlunun 120 illik yubileyinə həsr olunub.

3 mərhələdən ibarət müsabiqənin final mərhələsi Azərbaycan Respublikasının Ali Məhkəməsində baş tutub. Final mərhələsində prosesə Ali Məhkəmənin Mülki kollegiyasının hakimləri Aqil Abbasovun sədrliyi, Vidadi Məmmədov, Zaur Əliyevdən ibarət tərkibdə baxılıb. Qiymətləndirilmə nəticəsində "The Court Jesters" komandasının üzvləri Şahin Bayramlı və Elmar Bəyərov qalib elan olunub.



## BDU-nun 265 tələbəsi yaz semestri üzrə təhsil krediti alıb

### Təhsil krediti almaq istəyən tələbələr www.e-ttkf.edu.az üzərindən elektron müraciət edə bilərlər

***BDU-nun 265 tələbəsi 2022/2023-cü tədris ilinin yaz semestri üzrə təhsil krediti almaq hüququ əldə edib. Onlardan 84-ü sosial, 181-si isə standart təhsil kreditidir.***

2022/2023-ci tədris ilində isə ümumilikdə 563 tələbəyə tələbə krediti verilib. Onlardan 172-i sosial, 391-i isə standart təhsil krediti olub.

Təhsil krediti almaq istəyən tələbələr www.e-ttkf.edu.az üzərindən elektron müraciət edə bilərlər.

Qeyd edək ki, təhsil tələbə krediti verilən zaman girov və ya zaminlik tələb olunmur. Təhsil tələbə krediti uzunmüddətlidir və təhsil müddətində, güzəşt və möhlət dövründə tələbədən kreditin qaytarılması tələb edilməməklə yanaşı, faizlər də hesablanmır.

## SABAH qruplarının tələbələri üçün ekstremal şəraitdə psixoloji xidmətin təşkilinə dair praktik dərs



***İyunun 14-də BDU-nun SABAH qruplarının Psixologiya ixtisasının II kurs tələbələri və Fövqəladə Hallar Nazirliyinin Akademiyasının kursantları üçün ekstremal şəraitdə psixoloji xidmətin təşkilinə dair praktik dərslər təşkil olunub.***

BDU-nun SABAH qruplarının Ümumi psixologiya fənninin müəllimi Aytən Quliyevanın rəhbərliyi ilə dərs prosesində tələbələr ekstremal şəraitdə psixoloji xidmət, fəlakətlər və insan psixologiyası, insan psixologiyasının sosial-psixoloji aspektləri barədə təqdimatla çıxış edib, testlər keçiriblər.

Dərs zamanı ekstremal və fövqəladə hallar zamanı xilasedicilərin hadisələri aradan qaldırması yolları nəzəri-praktiki cəhətdən izah olunub.

Praktiki dərsin keçirilməsində məqsəd ekstremal və fövqəladə vəziyyətlərdə xilasedicilərin adekvat reaksiyaya hazırlıqlı olmasıdır.

## SABAH qruplarının tələbəsi "Sülh səfiri" adını qazanıb



***BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisasının IV kurs tələbəsi Cavid Rəhimli Almaniya Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən və Volksbund Xalq Birliyi tərəfindən təşkil olunmuş "Sülh Xətti" layihəsi çərçivəsində bir sıra səfər və tədbirlərdə iştirak edib.***

Layihə çərçivəsində Cavid Rəhimli Almaniya, Polşa, Litva və Latviyanın bir sıra tarixi əhəmiyyətli şəhər və kəndlərini ziyarət edib, tarixçilərlə, diplomatlarla görüşüb, intensiv təlim proqramını uğurla tamamlamaqla "Sülh səfiri" adını qazanıb.

Səfərlər zamanı BDU tələbəsi digər layihə iştirakçılarına Qərbi Azərbaycanın tarixi, xüsusən Qafan hadisələrindən bəhs edib.

Qeyd edək ki, layihə müharibə və münaqişə ilə bağlı tarixi yerlərin araşdırılması, sülhü təşviq etmək məqsədi daşıyır.

# DİN-in Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov Hüquq fakültəsinin tələbələri ilə görüşüb



***İyunun 2-də Daxili İşlər Nazirliyinin (DİN) Baş Kadrlar İdarəsinin rəisi, general-mayor Rafiq Abbasov Hüquq fakültəsinin tələbələri ilə görüşüb.***

Görüşdə çıxış edən rektor Elçin Babayev bildirib ki, BDU-nun əsas missiyalarından biri ölkə üçün yüksəkixtisaslı, peşəkar kadrlar hazırlamaqdır. Məzunların işlə təmin olunma göstəricilərinə görə BDU digər ali məktəblərdən öndədir. Rektor Azərbaycan polisinin ölkədə ictimai-siyasi sabitliyin, dövlətçiliyimizin qorunmasında xüsusi xidmətlərini xatırladıb, son illər bu sahədə müsbət dəyişiklikləri qeyd edib. O, belə görüşlərin tələbələrin karyerasında önəmli rola malik olduğunu vurğulayıb.

DİN-in Baş Kadrlar İdarəsinin rəisi, general-mayor Rafiq Abbasov tələbələri DİN-də işə qəbul qaydaları, şərtlər və güzəştlərlə tanış edib. Bildirib ki, hazırda daxili işlər orqanlarında 1400 BDU məzunu çalışır. Onlardan 971 nəfəri hüquqşünasdır. Həmin şəxslərdən 259 nəfəri müxtəlif vəzifələri tutur. Daxili işlər orqanlarında çalışmağın çətin, məsuliyyətli və şərəfli olduğunu qeyd edən general-mayor Rafiq Abbasov kadr seçimində BDU məzunlarına xüsusi önəm verildiyini bildirib.

General-mayor Rafiq Abbasov daha sonra BDU tələbələrinin suallarını cavablandırıb.

# BDU tələbəsinin yaradıcılıq sərgisi



***İyunun 5-də Ekologiya və torpaqşünaslıq fakültəsində 5 iyun – Ümümdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr olunmuş yaradıcılıq sərgisi keçirilib.***

Sərgidə fakültənin Ekologiya ixtisası üzrə IV kurs tələbəsi Bahar Həşimovanın tullantı kağız materiallarının təkrar istehsalından hazırlanmış əl işləri və onlar üzərində rəsmləri sərgilənib.

Bahar Həşimova həmçinin tullantı kağız materiallarının təkrar istehsalı prosesini də eyani şəkildə sərgi iştirakçılarına təqdim edib. Təkrar istehsal kağızları üzərində təsvir edilmiş rəsm əsərlərinin əksəriyyəti ətraf mühitin mühafizəsi sahəsində vacib çağırışlara həsr olunub.

# BDU-nun Qazax filialında yaz imtahan sessiyasında 1746 tələbə iştirak edir



***İyunun 5-də BDU-nun Qazax filialında 2022/2023-cü tədris ilinin yaz semestrinin imtahan sessiyası başlayıb.***

Bakalavriat səviyyəsində 17 ixtisas üzrə 1735, magistratura səviyyəsində 7 ixtisaslaşma üzrə 11 tələbə imtahanlarda iştirak edir.

Yaz imtahan sessiyası ilə bağlı filialda əvvəlcədən lazımi hazırlıq işləri görülüb, nəzarətçi müəllim-koordinatorların siyahısı təsdiq olunub, imtahanların şəffaf və obyektiv keçirilməsi üçün lazımi şərait yaradılıb. İmtahanların nəticələri imtahan keçirilən gün tələbələrə elan olunur.

İmtahan sessiyasında tələbələrin müraciətlərinin qəbulu və araşdırılması, tələbələrin biliyinin qiymətləndirilməsində obyektivliyin təmin olunması məqsədilə Operativ Qərargah və Apelyasiya Komissiyası formalaşdırılıb. Filialda "Qaynar xətt" də fəaliyyət göstərir.

Sessiya iyulun 5-dək davam edəcək.

# BDU Elmi Kitabxanasından növbəti kitab bağışlama aksiyası

***İyunun 6-da BDU-nun Elmi Kitabxanası Nərimanov rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminə (MKS) 572 nüsxə ədəbiyyat hədiyyə edib.*** Kitabxananın mübadilə-ehtiyat fondundan Nərimanov rayon MKS-in filiallarında daha çox ehtiyac duyulan elmi, bədii, tədris ədəbiyyatı seçilərək təhvil verilib. Hədiyyə olunan ədəbiyyatların içərisində BDU-nun mətbəəsində çap olunan "Bakı Universitetinin Xəbərləri" jurnalının son illərdəki buraxılışları, ayrı-ayrı fakültələrin keçirdiyi konfransların materialları, həmçinin Universitetin professor-müəllim heyətinin müəllifi olduğu dərslik və dərs vəsaitləri də yer alıb.

# BDU-da proqramlaşdırma müsabiqəsi keçirilib

***İyunun 1-də "BDU könüllüləri"nin təşkilatçılığı ilə "Heydər Əliyev İli"nə həsr olunmuş "Yeni başlayan proqramçılar-2" adlı proqramlaşdırma müsabiqəsi keçirilib.*** Müsabiqədə tələbələr nəzəri və praktiki biliklərə əsaslanaraq mübarizə aparıblar. Dörd turdan ibarət olan yarışın ilk mərhələsi proqramçı məntiqi ilə bağlı olub. Komandalar verilmiş vaxt ərzində suallara cavab tapmağa çalışıblar. İkinci mərhələdə hər komanda öncədən bildirilmiş mövzular üzrə bir proqramçı seçib. Proqramçılar elektron sistemdə qurulmuş məsələləri həll edərək komandalarına xal qazandırıblar. Yarışın üçüncü mərhələsində tələbələr IT sahəsi ilə bağlı nəzəri sual və məsələləri cavablandırıblar. Sonuncu mərhələdə komandalar səviyyə məntiqi ilə proqramlar yazıblar.

Müsabiqənin nəticəsinə əsasən, "Meta Team" komandası I, "Not Found 404" komandası II, "Hacktives" komandası isə III yerə layiq görülüb.

# BDU-da yaz imtahan sessiyası başlayıb

***İyunun 5-dən BDU-da 2022-2023-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası başlayıb. Sessiya iyulun 5-dək davam edəcək.***

Bakalavriat səviyyəsi üzrə imtahanlar yazılı və şifahi olmaqla iki növbədə (saat 10:00 - 13:00 və saat 14:00 - 17:00), magistratura səviyyəsi üzrə saat 14:00-dan 17:00-dək keçiriləcək.

Bakalavriatura səviyyəsində 704 qrup uzrə 15 mindən çox, magistratura səviyyəsində 240 ixtisaslaşma üzrə 1000-ə yaxın tələbə imtahan verəcək. Müxtəlif səbəblərdən imtahanda iştirak etməyən təhsilalanlara həmin fənlərdən imtahan vermək üçün 2023-ci il iyul ayının 6-dan 12-dək şərait yaradılacaq.

Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif və Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edəcək.

# BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə yaz imtahan sessiyasında 800-dək tələbə iştirak edir



***İyunun 2-dən BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə 2022-2023-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası başlayıb. Sessiya iyulun 5-dək davam edəcək.***

İmtahanlar iki növbədə (Humanitar ixtisaslar üzrə saat 10:00-dan 13:00-dək, iqtisadiyyat ixtisasları üzrə saat 14:00-dan 17:00-dək) keçirilir. İmtahanlarda Azərbaycan və rus bölmələri üzrə 800-ə yaxın tələbə iştirak edir. Mayın 22-dən iyunun 7-dək Kollecə ümumi orta təhsil bazasından qəbul olan 251 tələbənin böyük summativ qiymətləndirilməsi də aparılır. İyunun 9-dan 21-nə kimi həmin tələbələrin imtahanları keçiriləcək.

Yaz imtahanı sessiyası zamanı üzrlü və üzrsüz səbəblərdən imtahanda iştirak etməyən təhsilalanlara həmin fənlərdən imtahan vermək üçün iyul ayının 6-dan 12-dək şərait yaradılacaq.

Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif və Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edəcək.

# Milli Gimnastika Arenasında BDU-nun Məzun Günü keçirilib

***İyunun 23-də Milli Gimnastika Arenasında Bakı Dövlət Universitetinin Məzun Günü keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi anılıb.

Tədbiri açıq elan edən BDU-nun rektoru Elçin Babayev məzunları təbrik edib, onlara uğurlar arzulayıb: "Bu gün siz ömrünüzün ən rəngarəng dövrü olan qaynar tələbəlik illəri ilə vidalaşırsınız. Yüksək ixtisaslı mütəxəssislər, ölkəmizin böyük ümidlər bəslədiyi gənclər, layiqli vətəndaşlar kimi ömür yolunuzun yeni, parlaq səhifəsini açırsınız. Bu unudulmaz anları sizlərlə bölüşmək çox xoşdur, qürurvericidir! Müasir cəmiyyətimizin inkişafı yüksək təhsillə, elm və innovasiyalarla, bilik, bacarıq və səriştələrlə sıx bağlıdır. Siz Universitetdə əldə etdiyiniz bu bilik və bacarıqlara arxalanaraq, dövlətimiz və xalqımız, doğma və müqəddəs BDU qarşısında məsuliyyətinizi dərk etməklə, yüksəkixtisaslı gənc mütəxəssislər kimi qüdrətlənən, qalib və məğrur ölkəmizin inkişafına dəyərli töhfələr verə, tariximizin yeni yazılan səhifələrinin həmmüəllifləri ola bilərsiniz. Cənnət Vətənimizin daha da qüdrətlənməsində, xalqımızın rifahının yüksəldilməsində, dövlətçiliyimizin möhkəmləndirilməsində fəal iştirak etmək, Vətən və xalq sevgisi ilə yaşamaq, yaratmaq sizin gələcək həyatınızın əsası olacaq. Təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində ilk dünyəvi ali təhsil ocağı olan və 104 illik zəngin tarixə malik Bakı Dövlət Universitetinin məzunları sırasında elmə, mədəniyyətə, siyasətə layiqli töhfələr verən dahi və görkəmli şəxsiyyətlər çox olub. Onların hər birinin ömür yolu, xalqa və dövlətə sədaqəti, əvəzedilməz xidmətləri sizlərə örnək olmalıdır. BDU-nun ən böyük məzunu, heç şübhəsiz, bu il 100 illik yubileyini həm ölkə daxilində, həm də ölkə xaricində böyük təntənə ilə qeyd etdiyimiz dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevdir. Ulu Öndər "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" deməklə Universitetimizə ən böyük qiymətini verib. Həmişə fəxr edək və qürur duyaq ki, Ümummilli Liderimiz Heydər Əliyevin məzunu olduğu Bakı Dövlət Universiteti ailəsinin üzvləriyik və sizlər bu müqəddəs ali təhsil ocağından məzun olursunuz. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bilavasitə iştirakı ilə ölkədə elm və təhsilin inkişafı üçün atılan addımlar, yüksəkixtisaslı insan kapitalının formalaşdırılması istiqamətində görülən işlər dövlətimizin inkişafı, gələcəyi üçün ən yaxşı sərmayə və təminatdır. Siz bu hərəkatın ən yaxşı daşıyıcıları olacaqsınız".








Rektor vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı BDU 1919-cu ildə cəmi 2 fakültə, 44 nəfərlik professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayıb. Bu gün isə Universitetdə 16 fakültə, 1500 nəfərlik professor-müəllim heyəti fəaliyyət göstərir, 25000-ə yaxın tələbə təhsil alır. 120 kafedra, 2 elmi-tədqiqat institutu, 4 elmi-tədqiqat mərkəzi, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, 21 elmi-tədqiqat, 23 tədris laboratoriyası, 5 muzey, Qazax filialı, İqtisadiyyat və Humanitar Kollec, "Gənc istedadlar" liseyi fəaliyyət göstərir. Bakalavriat səviyyəsində 84 ixtisas, magistratura səviyyəsində 246 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir. Bu tədris ilində 5000-dən çox tələbə BDU-dan məzun olur: "Bakı Dövlət Universiteti Azərbaycan xalqının övladlarına layiqli ali təhsil vermək, vətənimizin bəşəri elm və mədəniyyət məkanında layiqli yer tutmasını təmin etmək kimi ən uca missiyasını şərəflə yerinə yetirir. Hazırda universitetimizdə tarixi ənənələrin və modern dünya təcrübəsinin vəhdəti şəklində tədris müasir, innovativ təlim texnologiyaları əsasında qurulmaqdadır, elmi-tədqiqat işlərinin məzmunu günün tələblərinə uyğun şəkildə yenilənməkdədir. Beynəlxalq əlaqələr və ölkədaxili əməkdaşlıq uğurla inkişaf etdirilir. Universitet daxilində islahatlar aparılır, dəyərli, gənc kadrlara meydan açılır. Hazırda dünyanın aparıcı universitetləri – İsrail, Fransa, ABŞ, İsveçrə, Qazaxıstan və digər ölkələrin nüfuzlu universitetləri ilə 11 ikili diplom proqramı əsasında kadrlar hazırlayırıq. Bu ilin aprel ayında Bakı Dövlət Universiteti İsrailin Holon Texnologiya İnstitutu ilə kompüter elmləri üzrə ikili diplom proqramının ilk məzunlarının buraxılış mərasimini yüksək səviyyədə keçirdi. Əsasını Eynşteyn və Veyçmanın qoyduğu Yerusəlim İbrani Universiteti ilə Dövlət Proqramı çərçivəsində ikili diplom və tədqiqat proqramları uğurlu nəticələr verəcək. Bütün bunların nəticəsidir ki, məhz Bakı Dövlət Universiteti "Times Higher Education" nüfuzlu beynəlxalq reytinq siyahısında yer alan ilk Azərbaycan ali məktəbi olub. Universitetimiz dünyanın bir sıra elm və təhsil reytinqlərində təmsil olunur və daha ön sıralarda olmaq üçün ciddi səylər göstərir. Bu il ən böyük uğurlarımızdan biri də BDU-nun İstanbulda keçirilmiş "TEKNOFEST-2023" Aerokosmik və Texnologiya Festivalında təmsil olunan komandalarının qazandıqları möhtəşəm qələbə oldu. BDU-nun iki komandası müxtəlif layihələrlə 20000-dən çox layihə arasından I və III yerləri qazanaraq Universitet tarixində əhəmiyyətli uğura imza atdı. BDU bundan sonra da milli və beynəlxalq əmək bazarında rəqabətədavamlı, vətənpərvərlik ruhunda tərbiyə edilmiş yüksək ixtisaslı mütəxəssislər hazırlamağa əzmlə davam edəcək, ölkəmizin qüdrətlənməsinə, elm və təhsilinin inkişafına töhfələr verəcək. BDU fəaliyyət göstərdiyi bir əsrlik tarixi ərzində 200 minədək mütəxəssis, o cümlədən bir sıra xarici ölkələr üçün yüzlərlə yüksək ixtisaslı kadr yetişdirib. BDU-nun məzunları tarix boyu ölkə quruculuğunda çox mürəkkəb, məsuliyyətli və eyni zamanda nəcib missiyanı şərəflə yerinə yetiriblər və yetirməkdə davam edirlər".



Sonra Universitet tələbələrinin ifasında BDU-nun himni səsləndirilib.

Gənclər və idman naziri Fərid Qayıbov əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilən dövlət gənclər siyasətinin əhəmiyyətindən bəhs edib. O, BDU-nun Azərbaycanın inkişafına mühüm töhfələr verdiyini deyib: "Siz qalib xalqın qalib gəncləri-siz. Həyatınızın bu mərhələsini uğurla tamamlayıb növbəti mərhələyə qədəm qoyursunuz. Hər birinizə uğur olsun!".

Nazirin çıxışından sonra BDU haqqında videoçarx nümayiş olunub.

BDU İctimai Nəzarət Şurasının üzvü, millət vəkili Arzu Nağıyev, Xüsusi Təyinatlı Qüvvələrin komandanının müavini, Vətən Müharibəsi Qəhrəmanı, general-mayor Zaur Zeynalov, BDU Himayəçilər Şurasının üzvü, BP-nin Yaxın Şərq və Xəzər ölkələrində kommunikasiya və təşviqat üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Holon Texnologiya İnstitutunun prezidenti, professor Eduard Yakubov (onlayn), Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri, professor Mətanət Abdullayeva, Biologiya fakültəsindən məzun olan İnci Kərimovanın atası Kərim Kərimov çıxışlarında məzunları təbrik edib, onlara şəxsi və iş həyatlarında uğurlar arzulayıblar.

Sonra Ulu Öndər Heydər Əliyev haqqında videoçarx nümayiş olunub.

Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) yüksək olan və xüsusi fəallığı ilə seçilən 33 məzuna sertifikat və hədiyyələr təqdim edilib. Xatirə lövhəsinə ən yüksək ÜOMG olan BDU tələbələrinin adları həkk edilib.

Tədbirdə daha bir ilk yaşanıb. Eyni anda Məzun Günü keçirən BDU, İstanbul Texniki Universiteti və Azərbaycan Texniki Universiteti (AzTU) ortaq bağlantı yaradıblar. İstanbul Texniki Universitetinin rektoru İsmail Koyuncu, BDU rektoru Elçin Babayev və AzTU rektoru Vilayət Vəliyev 3 universitetin məzunlarını təbrik edib, Türkiyə-Azərbaycan qardaşlığının daha da güclənəcəyini bildiriblər.

Tədbir konsert proqramı ilə davam edib.

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Qulu Məhərrəmli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
**Çapa imzalanıb:**
25.06..2023
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.
**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08